Xalqın qəzeti!

# Xalq qəzeti

№ 252 (30948) 2 dekabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Prezident İlham Əliyev Laçının işğaldan azad olunmasının ildönümü ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçının işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda "Zəfər Tariximiz: 1 Dekabr 2020-ci il Laçın" sözləri yer alıb.**

# XALQ – LİDER BİRLİYİ
## uğurlarımızın sarsılmaz təməlidir



***Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə Xalq–İqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir.***

***Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq–İqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Cənubi Qafqaz və Şərqi Avropada geostrateji koordinasiya

**Azərbaycan–Polşa münasibətləri strateji xarakter daşıyır, ölkələrin Şərqi Avropa və Cənubi Qafqazda dəyişən güc balansı fonundakı praktiki əməkdaşlığı isə qarşılıqlı təhlükəsizlik maraqlarına və strateji platformalara söykənir.**

Noyabrın 28-də Varşavada keçirilmiş Azərbaycan–Polşa konsulluq məsləhətləşmələri bu baxımdan xüsusi önəm kəsb edir. Görüşdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin konsulluq idarəsinin rəisi Emil Səfərov, Polşa nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyinin konsulluq məsələləri idarəsinin müdiri Justyna Çrzanovska rəhbərlik edib. Təmas zamanı konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, sahə üzrə yeni ikitərəfli sənədlərin imzalanması və konsulluq xidmətlərinin rəqəmsallaşdırılması imkanları müzakirə olunub. Tərəflər həmçinin ədliyyə, daxili işlər, prokurorluq və miqrasiya sahələrində əməkdaşlıq perspektivlərini də nəzərdən keçiriblər.

*(ardı 5-ci səhifədə)*

## Qarabağ Zəfərinin Laçın finalı




Səhifə ⇨ 11

# 44-ün 33 üzərində diktəsi
## *Yaxud ATƏT-in Minsk qrupunun "ölüm"ünə nekroloq əvəzi*




**Azərbaycan Xarici İşlər Nazirliyinin ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair 1 sentyabr 2025-ci i tarixli məlumatında bəzi vacib məqamlar açıqlanmaqla yanaşı, belə nəticəyə gəlinirdi ki, "vaxtilə Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınması məqsədilə təsis edilmiş sözügedən institutların münaqişənin həlli nəticəsində yaranmış yeni şəraitdə lüzumsuz olması bütün ATƏT iştirakçı dövlətləri tərəfindən qəbul edilərək, həmin institutların bağlanması rəsmiləşdirilib":**

"Sözügedən qərarın qəbulu, Azərbaycan Respublikasının vaxtilə işğal edilmiş əraziləri üzərində suveren nəzarətini və ərazi bütövlüyünü bərpa etməsi və bununla da Ermənistan–Azərbaycan münaqişəsinə son qoyulması ilə bağlı reallığın və Azərbaycan tərəfindən irəli sürülmüş sülh gündəliyinin beynəlxalq müstəvidə qəbul edilməsinin göstəricisi olmaqla yanaşı, 8 avqust 2025-ci il tarixli Vaşinqton görüşündə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi ilə əlaqədar əldə edilmiş razılıqların praktiki icrası istiqamətində mühüm addımdır. Azərbaycan Respublikası bundan sonra da regionda sülhün və sabitliyin gücləndirilməsi istiqamətində beynəlxalq hüquqa əsaslanan prinsipial və ardıcıl mövqeyini davam etdirəcəkdir".

*(ardı 2-ci səhifədə)*

## Sözdən əmələ keçid



Səhifə ⇨ 3

## Avropa yenidən hərbi səfərbərlik dövrünə qayıdırmı?



Səhifə ⇨ 3

## TRIPP yeni nəqliyyat şəbəkəsi formalaşdırır




Səhifə ⇨ 4

## Nifaq yuvası Eçmiədzində qarşıdurma



Səhifə ⇨ 6

## Xəzər geriyə, problemlər isə sahilə hücum çəkir



Səhifə ⇨ 8

## Gözəgörünməz cibgirlər



Səhifə ⇨ 9

# “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Ruanda Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1**. 2025-ci il sentyabrın 20-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Ruanda Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2**. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3**. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ruanda Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 dekabr 2025-ci il**

# Zərdab rayonunun Zərdab–Məlikumudlu–Çallı–Salahlı–Hüseynxanlı–Xanməmmədli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1**. Səkkiz min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Zərdab–Məlikumudlu–Çallı–Salahlı–Hüseynxanlı–Xanməmmədli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2**. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3**. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4**. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 dekabr 2025-ci il**

# Rumıniyanın Prezidenti Zati-aliləri cənab Nikuşor Dana

**Hörmətli cənab Prezident!**

Rumıniyanın milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz dost və tərəfdaş olan Rumıniya ilə dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Bu gün xoş ənənələr və sağlam təməllər üzərində qurulan Azərbaycan-Rumıniya ikitərəfli əməkdaşlıq gündəliyinin genişlənməsi, səmərəli birgə fəaliyyətimizin ticari-iqtisadi, energetika, xüsusilə yaşıl enerji, mədəni-humanitar və digər sahələrdə yeni məzmunla zənginləşməsi, strateji tərəfdaşlığımızın möhkəmlənməsi məmnunluq doğurur.

Əminəm ki, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri, həm ikitərəfli, həm də çoxtərəfli əsasda səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək, strateji tərəfdaşlığımız daha da dərinləşəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Rumıniya xalqına daim firavanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 noyabr 2025-ci il**

# Bakıda Rumıniyanın Milli Günü

**Bakıda Rumıniyanın Milli Gününə həsr olunmuş rəsmi qəbul keçirilib.**



Rumıniyanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare ölkəsinin tarixindən, Milli Günün əhəmiyyətindən bəhs edib. O, 1918-ci ildə Alba Yuliyada Bessarabiya, Bukovina və Transilvaniya rumınlarının bir araya gələrək Böyük Birliyi elan etməsinin Rumıniya dövlətçiliyinin formalaşmasında mühüm rol oynadığını bildirib.

Azərbaycanla Rumıniya arasındakı dostluq münasibətlərindən danışan səfir bu münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, siyasət, iqtisadiyyat, energetika, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın dinamik inkişaf etdiyini vurğulayıb.

Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini Musa Qasımlı çıxışında Prezident İlham Əliyevin Rumıniya dövlətinə və xalqına Milli Gün münasibətilə səmimi təbriklərini çatdırıb.

Rumıniyanın 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi xüsusi əhəmiyyət daşıdığını qeyd edən M.Qasımlı bildirib ki, Ulu Öndər Heydər Əliyevin Rumıniyaya səfəri ilə təməli qoyulan münasibətlər bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

***XQ***

# Türkiyə səfiri Səhiyyə Nazirliyində

**Azərbaycanın səhiyyə naziri Teymur Musayev Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün ilə görüşüb.**



Görüşdə T.Musayev ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli əlaqələrin, dostluq və qardaşlıq münasibətlərinin dərin tarixi köklərə əsaslandığını diqqətə çatdırıb. Müasir Azərbaycanın müstəqilliyinin ilk illərindən etibarən səhiyyə qurumlarımız arasında rəsmi münasibətlərin qurulmasını qeyd edən nazir bütün sahələrdə olduğu kimi, səhiyyə və tibb elmi sahəsində də qardaş ölkə ilə əməkdaşlığın nümunəvi olduğunu vurğulayıb.

Birol Akgün isə vurğulayıb ki, möhkəm təməllər üzərində dayanan Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri bizim birlik və həmrəyliyimizin bariz göstəricisidir. Səfir xalqlarımız arasında münasibətlərin inkişafında dövlət başçılarının müstəsna rolunu diqqətə çatdırıb.

***XQ***

# Nazir Vilayət Eyvazov Gəncədə vətəndaş qəbulu və sıra baxışı keçirib



**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov noyabrın 30-da və dekabrın 1-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Gəncə şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Goranboy, Daşkəsən, Naftalan, Göygöl, Samux, Kəlbəcər, Xocalı şəhər və rayonlardan, eləcə də digər bölgələrdən qəbula gələn 384 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədi ilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 42 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 362 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***



# 44-ün 33 üzərində diktəsi

**(əvvəli 1-ci səhifədə)**

12 min 328 gün, 33 il 9 ay. ATƏT-in dünəndən artıq rəsmən tamamilə keçmişdə qalan Minsk qrupu bu qədər müddət yaşadı. Bəli, 1992-ci il martın 24-də o zaman ATƏM adlanan qurumun bu təsisatı bir qərinə ömür sürdü. Necə deyərlər, getsin gəlməsin. Əlbəttə, gəlməyəcək, çünki güclü və qüdrətli Azərbaycan dövləti özünün ərazi bütövlüyünü və suverenliyini şübhələndirməyə imkan tanımayacaq.

Əslində, Azərbaycan heç o zaman da işğal reallığını tanımamış və mübarizə aparmışdı. Hər halda, Ermənistan və havadarları ATƏT-in Minsk prosesinin yaranmasını arzulamamışdılar. Bütün dərd-sərləri nəyin bahasına olursa-olsun, ölkəmizdən torpaq qoparmaq idi. Ona görə də Minsk prosesi çərçivəsində xeyli oyunbazlıqlar törətdilər, manipulyasiyaları, spekulyasiyaları ard-arda sıraladılar. Nəhayət, dizlərini yerə qoydular. Dünən 33 il davam etmiş saxtakarlıqlara da, riyakarlıqlara da rəsmən son qoyuldu.

SSRİ-nin dağılmasından sonra – Ermənistanla Azərbaycan arasındakı indi tarixə çevrilmiş Dağlıq Qarabağ münaqişəsinin, guya, sülh yolu ilə həllinə çalışmaq üçün formalaşdırılmış beynəlxalq təşəbbüsə ehtiyac yoxdur. Həm də ona görə ehtiyac yoxdur ki, Azərbaycan həmin təşəbbüsün sözdə rəhbər tutduğu prinsipi özünün ədalətli yanaşması ilə təmin etdi. Ölkəmiz ədalət naminə ortaya möhtəşəm güc və iradə qoydu.

Qeyd edək ki, 1995-ci ildən başlayaraq, Minsk qrupuna üç həmsədr – ABŞ, Rusiya və Fransa rəhbərlik etmişdi. Yəni söz sahibi onlar idilər. Amma sahib olmaq istədikləri təkcə söz yox, diktə idi. Həmsədrlər mahiyyət etibarilə ədalətsizlik üçün, belə demək mümkünsə, diktə dillərini işə salmışdılar. Bir klişeləri də var idi - münaqişənin hərbi həlli yoxdur.

Prezident İlham Əliyev 2020-ci il noyabrın 25-də Kəlbəcərin azad olunması ilə bağlı xalqa müraciətində bu məqama kifayət qədər geniş izahat verib: “Mən bir daha danışıqlar dövrünə qayıtmaq istəyirəm. O vaxt dəfələrlə mənə deyilirdi ki, münaqişə yalnız sülh yolu ilə həll olunmalıdır. Deyə bilərəm ki, bütün beynəlxalq təşkilatlar, təmasda olduğum bütün böyük dövlətlərin liderləri dəfələrlə deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Bu, ifadələr açıq mətbuatda da var. Mən nə deyirdim? Deyirdim ki, var! Deyirdim ki, lazım olsa, torpaqlarımızı hərbi yolla azad edəcəyik. Deyirdim ki, müharibə heç zaman istisna olunmur. Danışıqlar dövründə müxtəlif mərhələlərdə dəfələrlə təklif irəli sürülürdü ki, Azərbaycan tərəfi müharibə yolundan imtina etsin. Mən heç vaxt buna razılıq vermirdim. Ondan sonra məni ittiham etməyə başlayırdılar ki, İlham Əliyev müharibəyə başlamaq istəyir. Mən deyirdim ki, məsələni sülh yolu ilə həll etmək istəyirəm. Amma həll etmək istəyirəm”.

Əminliklə onu da deyə bilərik ki, Azərbaycan 44 gün ərzində “olmaz” deyənlərin də üzərində diktə etdi. 44 gündə bizə 30 ilə yaxın müddətdə yaşatdıqlarının öcünü aldıq. Doğrudur, Ermənistan 2020-ci il noyabrın 10-da təslim olmuşdusa, Minsk qrupunun sıradan çıxması üçün əlavə beş il də gözlədik. Nəhayət, bu il avqustun 8-də bu qrup da “ağ bayraq” qaldırmaq məcburiyyətində qaldı. Həmin gün Azərbaycan və Ermənistan liderləri arasında Vaşinqtonda keçirilmiş görüşdə, iki ölkənin xarici işlər nazirləri birgə müraciət ünvanlayaraq, Minsk qrupunun və ona bağlı strukturların ləğvini xahiş etdilər.

Minsk qrupunun ləğvi Azərbaycanın Ermənistanla sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü şərt idi. Ölkəmiz özündə münaqişə məntiqini saxlayan hansısa qurumun mövcudluğunu yolverilməz saydı. Məsələnin məhz bu cür qoyuluşu nəticəsində rəsmi İrəvan xeyli müddət vəziyyətlə barışmaq istəmədi. Avqustun 8-də isə barışmalı idi. Barışdı və sentyabrın 1-də ATƏT-in Nazirlər Şurası 57 üzv ölkənin yekdil qərarı ilə Minsk qrupununun və “Minsk prosesi” adlanan strukturun bağlanmasına qərar verdi. Dekabrın 1-dək isə “son”un texniki və inzibati “təmizləmə işləri”, avadanlıq və resursların təhvil verilməsi, sənədlərin arxivləşdirilməsi və s. tədbirlərin görülməsi qərarlaşdırıldı. Qərar dünən icra olundu.



Əlbəttə, Minsk qrupunun ləğvinin rasional reallıqlar prizmasından və yeni geopolitik kontekstdən izahı var. Məsələ ondadır ki, 2020-ci ilin 44 günlük müharibəsindən və 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycan regiondakı “status-kvo”nu tamamilə öz xeyrinə dəyişməyə müvəffəq oldu. Nəticədə, vaxtilə danışıqlar masasında mümkün sayılan ssenarilər aktuallığını itirdi. Belə bir durumda Minsk qrupu da “donmuş format”a çevrildi. Yəni onun yaranışda açıqlanmış sülhə xidmət egidası reallıqların sülh diktəsi qarşısında aciz duruma düşdü. Yeri gəlmişkən, Ermənistan 44 günlük müharibədən sonra bu acizliyin də yaşanmaması üçün çox çalışıdı. təkcə Ermənistan yox, onun havadarları və dünya erməniliyi də həmçinin.

Ümumən, regionda 2020-2023-cü illərdə yaşanmış hadisələr göstərdi ki, münaqişənin tənzimlənməsi yalnız danışıqlarla deyil, real güc balansı və hərbi-siyasi reallıqlar çərçivəsində mümkündür. Deməli, bu vəziyyətdə Minsk qrupunun qalması həm də beynəlxalq diplomatik institutların dişsizliyi təəssüratı yarada bilərdi. Yəni ləğvdən qaçış yeri yox idi. Məsələni təkcə Ermənistan deyil, bütövlükdə beynəlxalq ictimaiyyət də məhz vurğuladığımız tərzdə qəbul etdi. Daha doğrusu, qəbul etməli oldu.

Minsk qrupunun ləğvi göstərdi ki, sülh prosesləri, normallaşma və regional inteqrasiya təşəbbüsləri yalnız bilavasitə dövlətlərarası münasibətlər əsasında deyil, həmçinin real geopolitik reallıqlar çərçivəsində qurula bilər. Halbuki, qrup “status-kvo + danışıqlar” siyasətini dəstəkləyirdi. Bu siyasətə son qoyulması imkan verdi ki, regiona dair məsələlər keçmişə baxış üzərindən yox, gələcəyə yönəlmiş barış, inteqrasiya, bərabərlik və davamlılıq prinsipləri əsasında həll olunsun. Beləliklə, klassik diplomatiya mərhələsi də ömrünü başa vurdu.

Bəli, Minsk qrupunun sonu həm də uzunmüddətli münaqişənin və danışıqsızlıq durumunun bitməsinin simvolik və praktiki addımıdır. O addım ki, gerçək geopolitik reallıqları və regionda mövcud olan yeni güc balansını qəbul edən beynəlxalq akt mahiyyəti daşıyır. Elə bir akt ki, illüziyanın, formallığın rəsmən sona çatdığının göstəricisidir. Axı Minsk qrupu real sülh mexanizminə deyil, geosiyasi balanslaşdırma alətinə çevrilmişdi ki, bu alət mahiyyətcə, ermənipərəst baxışa əsaslanırdı.

Sonda bir məqamı da vurğulayaq ki, Azərbaycanın hərbi gücü və iradəsi, həmçinin diplomatik səriştəsi ilə ATƏT-in Minsk qrupunun ləğvinin beynəlxalq düzən üçün də müstəsna mesaj payı var. Belə ki, ölkəmiz müasir dünyada özünün olana sahiblənmək, haqqını əldə etmək nümunəsidir. Bunu ədalətsiz düzənə qarşı demarş örnəyi kimi də qiymətləndirmək mümkündür. Nəzərə alaq ki, Azərbaycan öz gücü və iradəsi ilə BMT-nin illərdir icra olunmayan qətnamələrini yerinə yetirməklə, beynəlxalq hüquq prinsiplərinin qərarlaşmasına töhfə verdi.

Amma ədaləti təkcə ölkəmizmi bərpa etməlidir? Əsla yox! Məsələ beynəlxalq ictimaiyyətin ümdə vəzifəsinə çevrilməlidir. Bunun üçün isə işlək olmayan, ədalətdən dəm vuran, ancaq əməlində ədalətin heç “ə” hərfi belə olmayan strukturlar demontaj edilməli, yenidən formalaşdırılmalıdır. ATƏT-in Minsk qrupunun ləğvi həm də bu istiqamətdəki yüksək səsli çağırışdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sözdən əmələ keçid

*Azərbaycanın təşəbbüsləri ilə yüksələn Türk birliyi*

**Qlobal geosiyasətdə müşahidə olunan paradiqma dəyişiklikləri və beynəlxalq təhlükəsizlik arxitekturasının transformasiyası regional inteqrasiya birliklərinin funksionallığını, strateji əhəmiyyətini əsaslı şəkildə artırmışdır. Bu kontekstdə, Türk dünyasının inteqrasiya prosesi Avrasiya məkanında yeni geostrateji güc mərkəzinin təşəkkülü kimi xarakterizə edilməlidir. Azərbaycan Respublikasının təşəbbüskarlığı ilə Türk Dövlətləri Təşkilatı (TDT) və Türk Dövlətləri Parlament Assambleyasında (TÜRKPA) institusional əlaqələrin dərinləşdirilməsi, inteqrasiyanın normativ-hüquqi bazasının formalaşdırılmasına və vahid siyasi-iqtisadi məkanın konseptual əsaslarının yaradılmasına xidmət edən sistemli fəaliyyətin göstəricisidir. Rəsmi Bakının strateji yanaşması inteqrasiya mexanizmlərinin səmərəliliyini artırmaqla, çoxtərəfli əməkdaşlığı deklarativ səviyyədən praqmatik, nəticəyönümlü institusional müstəviyə keçirməyi hədəfləyir.**



Azərbaycanın inteqrasiya proseslərinə yanaşması formal diplomatiyadan uzaq, dərin strateji məzmun kəsb edən fəaliyyət üzərində qurulmuşdur. Prezident İlham Əliyevin müəllifi olduğu xarici siyasət doktrinasında Türk dünyası ilə əlaqələr sadəcə prioritet istiqamət kimi qəbul edilmir, milli kimliyin və dövlətçiliyin təbii forması kimi dəyərləndirilir. Vətən müharibəsində qazanılan Zəfər təkcə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədi, həm də bütün Türk dünyasında özünəinam hissini, hərbi-siyasi həmrəylik ruhunu alovlandıran qığılcım rolunu oynadı. Məhz həmin tarixi qələbədən sonra inteqrasiya prosesləri şüarçılıqdan real iş müstəvisinə keçid aldı. İndi müşahidə edilən mənzərə ondan ibarətdir ki, Bakı TDT-nin icraedici gücü ilə TÜRKPA-nın qanunvericilik potensialını vahid hədəfə yönəldən sinerji mərkəzinə çevrilmişdir. Məqsəd aydındır: Türk dövlətlərini sadəcə etnik köklər birləşdirən ölkələr qrupundan çıxararaq vahid iqtisadi, hərbi və siyasi prosesə çevirmək.

Əlaqələrin genişlənməsi inteqrasiyanın dərinliyini təmin edən ən vacib amildir. Dövlət başçılarının Zirvə görüşlərində qəbul etdiyi strateji qərarların, imzalanan bəyannamələrin və razılaşmaların həyata keçirilməsi milli qanunvericiliklərin harmonizasiyasını tələb edir. İqtisadi sərhədlərin aradan qaldırılması, gömrük prosedurlarının sadələşdirilməsi, vahid nəqliyyat və enerji məkanının yaradılması yalnız hüquqi bazanın unifikasiyası halında mümkündür. TÜRKPA məhz həmin funksiyanı yerinə yetirən, Türk dünyasının hüquqi infrastrukturunu inşa edən platformadır. Azərbaycanın təşəbbüsləri sayəsində parlament diplomatiyası icra hakimiyyətlərinin qərarlarını tamamlayan, onları hüquqi cəhətdən əsaslandıran və xalqlar arasında birbaşa təmasları təmin edən struktura çevrilmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, inteqrasiyanın iqtisadi təməlləri Azərbaycanın geostrateji təşəbbüsləri üzərində yüksəlir. Orta Dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) layihəsi Türk dünyasını Çindən Avropaya qədər uzanan nəhəng ticarət yolunun əsas sahibi və operatoruna çevirmək potensialına malikdir. Şərq-Qərb ticarətinin Rusiya üzərindən keçən şimal marşrutunun aktuallığını itirməsi fonunda Azərbaycanın təklif etdiyi və Mərkəzi Asiya ölkələrinin dəstəklədiyi Orta Dəhliz qlobal logistikanın xilaskarı kimi çıxış edir. TDT və TÜRKPA çərçivəsində aparılan müzakirələr dəhlizin səmərəliliyini artırmaq, tarifləri optimallaşdırmaq və bürokratik əngəlləri aradan qaldırmaq məqsədi daşıyır. Azərbaycan Xəzər dənizindəki liman infrastrukturunu, dəmir yollarını və logistik mərkəzlərini modernləşdirməklə, faktiki olaraq Türk dünyasının iqtisadi qapısına çevrilmişdir.

Təhlükəsizlik və müdafiə sənayesi sahəsindəki əməkdaşlıq inteqrasiyanın ən həssas və strateji əhəmiyyətli hissəsidir. Azərbaycanın Türkiyə ilə qurduğu və Şuşa Bəyannaməsi ilə rəsmiləşdirdiyi hərbi müttəfiqlik modeli TDT-nin gələcək təhlükəsizlik arxitekturasının prototipi hesab olunur. Regionda mövcud olan təhdidlər, hibrid müharibələr və xarici təzyiqlər Türk dövlətlərini vahid müdafiə çətiri altında birləşməyə sövq edir. TÜRKPA-nın müdafiə və təhlükəsizlik komissiyaları səviyyəsində aparılan işlər hərbi qanunvericiliyin yaxınlaşdırılmasına, birgə təlimlərin hüquqi statusunun müəyyən edilməsinə, müdafiə sənayesi sahəsində texnoloji transferin asanlaşdırılmasına xidmət edir. Azərbaycanın Vətən müharibəsində tətbiq etdiyi müharibə modeli pilotsuz uçuş aparatlarının və yüksək dəqiqlikli silahların istifadəsi digər Türk dövlətləri üçün öyrənilməsi zəruri olan təcrübədir.

Rəqəmsal transformasiya və innovasiyalar sahəsi Azərbaycanın inteqrasiya proseslərinə gətirdiyi yeni nəfəsdir. "Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində Xəzər dənizinin dibi ilə çəkiləcək fiber-optik kabel xətti Mərkəzi Asiyanı Azərbaycan üzərindən Avropa internet şəbəkəsinə bağlayacaqdır. Layihə Türk dünyasının informasiya təhlükəsizliyini və rəqəmsal müstəqilliyini təmin etməklə yanaşı, regionu qlobal məlumat trafiki mərkəzinə çevirəcək. TDT və TÜRKPA kibertəhlükəsizlik, elektron hökumət və kosmik sənaye sahəsində əməkdaşlığı genişləndirməklə, gələcəyin texnoloji çağırışlarına hazır olmağı hədəfləyir.

Humanitar və mədəni sahə inteqrasiyanın mənəvi təməlidir. Ortaq əlifba, ortaq tarix kitabları, mədəniyyət günləri və gənclər forumları, xalqlarımızın bir-birini yenidən kəşf etməsinə və yadlaşma prosesinin qarşısının alınmasına xidmət edir. TÜRKPA-nın bu istiqamətdəki fəaliyyəti dil və təhsil sahəsindəki maneələri aradan qaldıran qanunvericilik təşəbbüsləri ilə zəngindir. Şuşanın, Xivənin, Türkistanın mədəniyyət paytaxtları elan edilməsi simvolik məna daşımaqla yanaşı, həm də turizm potensialının artırılmasına və bölgələrarası əlaqələrin inkişafına təkan verir.

Bütün qeyd olunan proseslərin fonunda Azərbaycanın təşəbbüsləri inteqrasiyanı sürətləndirən katalizator effekti yaratmışdır. TDT-nin beynəlxalq statusunun artması, BMT və digər qlobal təşkilatlarla əməkdaşlığı Türk dünyasının geosiyasi subyektliyini təsdiq edir. TÜRKPA-nın beynəlxalq parlamentar təşkilatlarda, o cümlədən ATƏT PA və AŞPA-da nümayiş etdirdiyi həmrəylik üzv ölkələrin milli maraqlarının qorunmasında "birimiz hamımız, hamımız birimiz üçün" prinsipinin işlədiyini göstərir. Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsi, minalanmış ərazilərin xəritələrinin tələb edilməsi və ədalətin bərpası uğrunda mübarizədə Türk dövlətlərinin Azərbaycanın yanında yer alması inteqrasiyanın siyasi yetkinlik səviyyəsinə çatdığının sübutudur.

Azərbaycanın liderliyi ilə TDT və TÜRKPA formatında genişlənən əməkdaşlıq Avrasiyanın siyasi mühitini dəyişdirən tarixi hadisədir. İnteqrasiya prosesləri artıq geridönməz xarakter almışdır və xalqların iradəsinə söykənən birlik xarici təhdidlərə qarşı ən etibarlı qalxandır. Azərbaycan Türk dünyasının ideoloji və strateji qovşağına çevrilmişdir. Gələcək məhz bu birliyin, ortaq ağlın və birgə səylərin üzərində qurulacaq. İrəli sürülən hər bir təşəbbüs, qəbul edilən hər bir qərar Türk dünyasının qüdrətli gələcəyinin təməl daşlarını hörür. Bu, bütün dünyanın sabitliyinə və inkişafına töhfə verəcək.

***Yusif YAQUBOĞLU***
***XQ***

### *Ekspert rəyi*



**Fərhad MƏMMƏDOV, politoloq**

Türk Dövlətləri Təşkilatı çərçivəsində yaradılan qurumlar TÜRKSOY, TÜRKPA, Türk Akademiyası, Türk İnvestisiya Fondu və digər institusional strukturlar fəaliyyətlərini daha da genişləndirməli və dərinləşdirməlidir. Bu təsisatların gücləndirilməsi Türk dünyasında inteqrasiya prosesinin sürətlənməsinə xidmət edir.

Hazırda TDT çərçivəsində sahəvi əməkdaşlıq əsasən görüşlər formatında həyata keçirilir. Lakin nazirliklər, dövlət qurumları və qeyri-hökumət təşkilatları yalnız görüşlərlə kifayətlənməməli, daha işlək əməkdaşlıq mexanizmləri formalaşdırmalıdır. Bu məqsədlə daimi katibliklərin yaradılması vacibdir ki, fəaliyyət daha sistemli və inteqrativ şəkildə qurulsun. Bu institusional inkişaf Türk dünyasının daxilən möhkəmlənməsini təmin edəcək və təşkilatın geosiyasi subyektliyini artıracaq.

Orta Dəhlizin strateji əhəmiyyəti isə xüsusilə iqtisadi və texnoloji əməkdaşlıq baxımından önə çıxır. Bu dəhlizin əsas məqsədi nəqliyyat-kommunikasiya sahəsində rəqabətədavamlılığı gücləndirməkdir. Nəqliyyat kommunikasiyasında üç əsas komponent mövcuddur.

Birincisi təhlükəsizlikdir – yüklərin etibarlı şəkildə daşınması prosesinin təmin edilməsi. İkincisi operativlikdir – dəhlizin keçdiyi ölkələr arasında koordinasiya hesabına bürokratik maneələrin minimuma endirilməsi və yüklərin dəniz nəqliyyatı ilə müqayisədə daha qısa vaxtda çatdırılması. Üçüncü komponent isə qiymət məsələsidir – vahid pəncərə sistemi vasitəsilə tariflərin ölkələr üzrə optimal şəkildə uyğunlaşdırılması.

Rəqəmsallaşma bu üç istiqamətin hər birində həlledici rol oynayır. Rəqəmsal həllər təhlükəsizliyin artırılmasına, proseslərin operativləşdirilməsinə və vaxt itkisinin minimuma endirilməsinə imkan yaradır. Əgər bu komponentlər üzrə koordinasiyalı fəaliyyət təmin olunarsa, Orta Dəhlizin rəqabətədavamlılığı daha da artacaq.

# Avropa yenidən hərbi səfərbərlik dövrünə qayıdırmı?

*Qitə müdafiə boşluqlarında könüllü xidmət yaratmaqda israrlıdır*

**"Qoca qitə" XX əsri ağuşuna alan iki böyük müharibədən sonra təhlükənin bitdiyinə inanırdı. Amma yaranan yeni geosiyasi düzən kontinenti silkələdi desək, yanılmarıq. Uzun illər ABŞ-ın təhlükəsizlik zəmanətlərinin yaratdığı sakitlikdən faydalanmış Avropa indi Donald Trampın dəyişən prioritetləri və Rusiyanın aqressiv davranışı ilə üz-üzədir. Elə bu səbəbdən risklərin qarşısını almaq məqsədilə çıxış yolları axtarılır.**



Deməli, bir neçə gün əvvəl 27-ci Dağ Piyada Briqadasında çıxış edən Fransa Prezidenti Emmanuel Makron könüllü hərbi xidmətin bərpası barədə fikir söyləyib. Makron bildirib ki, plan qitənin üzərinə çökmüş təhlükələrə cavab olaraq nəzərdə tutulub. Onun sözlərinə görə, könüllü proqram 18–19 yaşlı gənclər üçün açıq olacaq, iştirakçılara maaş veriləcək və xidmət 10 ay davam edəcək. Təşəbbüsün dəyəri 2 milyard avro (2,32 milyard dollar) təşkil edəcək ki, Makron bunu "əhəmiyyətli və zəruri" adlandırıb. Növbəti ildə proqrama 3 min nəfərin cəlbi nəzərdə tutulur və onlar yalnız Fransa ərazisində xidmət edəcəklər. 2030-cu ilədək bu sayın 10 minə yüksəldilməsi planlaşdırılıb. "Fransa üçün ambisiyam 2035-ci ilədək təhlükələrin inkişafına uyğun olaraq bu rəqəmi 50 min gəncə çatdırmaqdır", – deyə Makron söyləyib. Proqramı bitirənlər mülki həyata qayıda, ehtiyatda xidmətə qoşula və ya orduda qalaraq xidmətini davam etdirə biləcəklər.

Fransa lideri eyni zamanda xatırladıb ki, keçmiş prezident Jak Şirakın 1996-cı ildə məcburi hərbi xidməti ləğv etməsi doğru qərar olsa da, mövcud şəraitdə çağırış sistemi Fransanın ehtiyaclarına cavab vermir. Maraqlısı odur ki, Makronun çıxışı Silahlı Qüvvələrin rəhbəri, general Fabien Mandonun keçən həftə yaratdığı rezonans fonunda bir qədər kölgədə qalıb. General Mandon bundan öncə demişdi ki, Fransa Rusiyanın aqressiyasına qarşı gələcək mümkün itkilərə hazırlaşmalıdır. Hətta Fransa Senatının xarici əlaqələr, müdafiə və silahlı qüvvələr komitəsinin sədri Sedrik Perrin də Mandonu müdafiə etmişdi.

Məsələnin məğzini anlamaq üçün təkcə Fransadakı vəziyyəti analiz etmək kifayət deyil. Çünki proses sadəcə bu ölkədə baş vermir. Bütövlükdə Avropa qitəsi 1945-ci ildən bəri görünməmiş şəkildə yenidən səfərbərlik ruhuna qayıdır. Son iyirmi ildə ən pasifist dövlətlərdən hesab olunan Almaniya belə, Rusiya-Ukrayna müharibəsindən sonra öz siyasi lüğətinə tərifini illərlə çəkinərək dilə gətirdiyi "Zeitenwende" (epoxal dönüş) ifadəsini qaytardı.

Bəli, rəsmi Berlin birdən-birə illərlə qadağan etdiyi mövzulara açıq toxunmağa başladı, hərbi büdcənin artırılması, çağırış sisteminin bərpası, ehtiyat ordusunun genişləndirilməsi və ölkənin yenidən səfərbərlik ruhuna qaytarılması prosesləri alman cəmiyyətinin psixoloji dəyişimi qədər dövlətin təhlükəsizlik fəlsəfəsinin də dəyişdiyini göstərdi. Oxşar dönüş Skandinaviya ölkələrində daha erkən müşahidə olunurdu. Ümumən, Şimali Avropanın bu dövlətləri Rusiyanın hərbi aktivliyini ciddiyə almaqda digər ölkələrdən həmişə bir addım irəlidə olublar. Məsələn, İsveç məhz bu səbəbdən illər sonra neytrallıq siyasətini bir kənara qoyaraq NATO-ya üzv olmaq qərarını verdi və çağırış sistemini yenidən bərpa etdi. Finlandiya uzun sərhəd xəttinə görə, hələ sovet dövründən bəri ən geniş ehtiyat ordularından birinə sahib idi və indi bu modeli daha da gücləndirir. Norveç isə təhlükənin coğrafi məsafə ilə ölçülmədiyini anlayaraq həm qadınlar, həm kişilər üçün universal xidmət sistemini davam etdirir.

Adlarını çəkdiyimiz ölkələrin hər biri müxtəlif siyasi xəttə malikdir, lakin onların hərbi siyasətlərində müşahidə edilən dəyişiklik eyni sualın ətrafında formalaşır ki, Avropa öz müdafiəsini etibarlı şəkildə necə təmin edə bilər? Baltikyanı ölkələrdə isə vəziyyət daha ciddidir. Litva və Estoniya Rusiyanın ən yaxın hədəflərdən biri ola biləcəyini illərdir deyir və təhlükəni real, günbəgün hiss edirlər. Elə bu səbəbdən həmin ölkələr gəncləri yenidən hərbi sistemə qaytarmaqdan çəkinməyib, oxşar proqramları çoxdan bərpa ediblər.

Onların üçüncü tərəfə arxalanmaq imkanı, demək olar ki, yoxdur və buna görə də müdafiə modelini tam öz gücləri üzərində qururlar. Eyni dinamika Mərkəzi Avropada da açıq sezilir. Xüsusilə Polşa ordusunu ikiqat artırmaqla bütün qitədə ən sürətli hərbi genişlənmə modelinə çevrilib. Rəsmi Varşava təhlükəni bütün Şərqi Avropanın taleyi kimi görür. Öz təhlükəsizlik doktrinasını regional liderlik iddiası ilə birləşdirən Polşa hərbi sənayesini elə genişləndirir ki, bu proses Avropanın güc balansını yaxın illərdə ciddi şəkildə dəyişə bilər.

Qərbi Avropanın daha sakit görünən ölkələri Niderland və Böyük Britaniya da prosesdən kənarda qalmır. Hər iki ölkədə çağırış sisteminə qayıdış bir müddət əvvəl təfəkkür xaricində görünürdü, lakin indi ordudakı kəskin kadr çatışmazlığı, NATO öhdəliklərinin ağırlaşması və Rusiya təhlükəsinin yaxınlaşması bu müzakirələri diqqət mərkəzinə çəkib. Görünür, Britaniyada bir zamanlar qəti şəkildə "keçmişin qalığı" kimi görünən milli xidmət ideyası yenidən gündəmə qayıdıb.

Ümumiyyətlə, Avropanın müasir təhlükəsizlik arxitekturası on illərdir iki sütun üzərində dayanırdı. ABŞ-ın qitə üçün yaratdığı müdafiə çətiri və Rusiyanın nisbi sabitlik içində saxladığı enerji asılılığı. Hər iki sütun çökəndə qitə özünü təhlükəsizlik boşluğunda tapdı. Tramp dövründə başlayan "ABŞ Avropanın müdafiəsinə borclu deyil" ritorikası, Rusiyanın Ukraynaya tammiqyaslı hücumu ilə birlikdə kontinentin tarixi rahatlığını pozdu. Uzun əsrlər imperiyalar quran, qitələrdə hökmranlıq edən Avropa dövlətləri indi ilk dəfə müasir tarixlərində öz ərazilərinin təhlükəsizliyi mövzusuna bu qədər ciddi qayıdırlar. Fransadakı könüllü hərbi xidmət çağırışı bu baxımdan həm simvolik, həm də funksional dönüşdür.

Simvolikdir, çünki Fransa özünü Avropanın strateji lideri kimi göstərmək istəyir. Funksionaldır, çünki real olaraq minlərlə gənci ordu sisteminə qaytarır və cəmiyyəti hərbi psixologiyaya alışdırır. Makronun "konskripsiya dövrünə qayıtmayacağıq" deməsi isə əslində eyni çağırışın müasir formasını yaradır. Məcburiyyət yoxdur, amma sosial təzyiq, dövlət təşviqi, təhlükə ritorikası və kollektiv məsuliyyət anlayışı gəncləri könüllü şəkildə xidmətə qoşulmağa sövq edir. Bu isə faktiki olaraq "könüllü məcburiyyət" modelidir və Avropanın yeni ordularında həlledici rol oynayacaq.

Prosesin ikinci və daha dərin məqsədi Avropanın müharibə dövrü sənaye sistemini bərpa etməkdir. Çünki ordu silah, texnologiya, istehsal zənciri və müdafiə sənayesi ilə həyatda qalır. Avropa bu sahədə də zəif vəziyyətdədir. Bunun arxasında isə NATO-ya daxil olan əksər ölkələrdə sursat ehtiyatlarının Ukraynaya yardım üçün boşaldılması, hərbi zavodların istehsal qabiliyyətinin 30–40 il əvvəlki səviyyədən aşağı olması, modern texnologiyaların isə ABŞ-a və ya Asiyaya həddindən artıq bağlılığı durur. Ona görə də Avropa hökumətləri gənclərin orduya qayıdışı ilə yanaşı, müdafiə sənayesini də sürətlə bərpa edir.

Almaniya yeni tank və sursat zavodları açır, Polşa Cənubi Koreya ilə birgə silah istehsal edir, Fransa və İtaliya raket istehsalını artırır, İsveç modern artilleriya sistemlərini yenidən qurur. Ordunun böyüməsinin üçüncü hədəfi isə cəmiyyətin psixoloji müqavimətinin gücləndirilməsidir. Avropa uzun illərdir ki, "sülh dövrü insan tipi" yetişdirib. Loru dildə desək, çətinlikdə "bişməyən", təhlükədən uzaq, dövlətin bütün riskləri onun əvəzinə həll edəcəyinə inanan nəsillər formalaşıb. Lakin Ukraynadakı müharibə göstərdi ki, təhlükə qapıya yaxınlaşanda cəmiyyətin də dözümlü olması şərtdir.

Sonda qeyd edək ki, Avropa ölkələrində səfərbərlik prosesinin eyni vaxtda başlayıb eyni istiqamətdə inkişafı əslində, qitənin gələcəyi üçün tarixi dönüş yaradır. İndi gənclər həm də milli kimlik anlayışını tam olaraq dərk etməyə başlayacaqlar.

***Nəzrin ELDARQIZI***
***XQ***

# TRIPP yeni nəqliyyat şəbəkəsi formalaşdırır

## "Qlobal qapı"nın açarı isə Cənubi Qafqazdadır

**Regionda son illər müşahidə olunan dinamika göstərir ki, qlobal nəqliyyat sistemində kəskin dəyişmə mərhələsi başlayıb. Avrasiya xəritəsində yeni strateji ox formalaşır. Bu oxun əsasında isə Zəngəzur dəhlizi (TRIPP) dayanır. Coğrafi ölçüsü kiçik olsa da, siyasi çəkisi sürətlə böyüyən dəhliz Bakıdan Avropanın dərinliklərinə qədər uzanan yeni tranzit konsepsiyasını formalaşdırır. Artıq deyə bilərik ki, bu layihə sadəcə regional marşrut deyil, Avrasiyanın güc balansını və iqtisadi axınlarını yenidən dizayn edən mühüm geosiyasi alətə çevrilməkdədir.**




Dekabrın 1-də Brüsseldə "EU Today" platformasına müsahibəsində Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də məhz buna diqqət çəkərək bildirib ki, Zəngəzur dəhlizi (TRIPP) Avrasiyanın nəqliyyat mənzərəsini kökündən dəyişdirəcək. Prezidentin köməkçisi həmçinin qeyd edib ki, Azərbaycan Avropa İttifaqının, o cümlədən Aİ-nin "Qlobal qapı" təşəbbüsü çərçivəsində yeni nəqliyyat kompozisiyasının bir hissəsi olmasını istəyir. Azərbaycan regionun logistika arxitekturasını yenidən quran idarəedici mərkəz kimi çıxış edir. Son 15 ildə həyata keçirilən nəqliyyat siyasəti rəqəmlərlə təsdiqlənir. Ələt limanının illik 25 milyon ton gücə çatdırılması, Bakı–Tbilisi–Qars xəttində modernizasiya işləri, habelə, Transxəzər infrastrukturunun genişləndirilməsi və Orta Dəhliz üzrə yük axınının 2023–2024 illərdə 2,5 dəfə artması artıq ölkəni qitələrarası tranzit uzlaşmasının əsas dayağına çevirib. Zəngəzur dəhlizi isə (TRIPP) bu mozaikanın strateji mərkəzi rolunu oynayır. Dəhliz açıldıqdan sonra Çindən Avropaya daşımalar 38 gündən 18 günə düşəcək, logistika xərcləri 35–40 faiz azalacaq və Avropa İttifaqı Rusiyadan keçən marşrutlara həssaslığı ciddi şəkildə azalacaq. Məhz bu səbəbdən Hikmət Hacıyevin də Brüsseldə qeyd etdiyi kimi, Bakı Avropa İttifaqını (Aİ) bu yeni nəqliyyat sisteminin bir hissəsi kimi görmək istəyir. Aİ-nin enerji təhlükəsizliyində Bakı artıq strateji tərəfdaş statusundadır və logistika sahəsində də eyni model tətbiq olunmaq üzrədir.

Avropa İttifaqının 2021-ci ildə elan etdiyi "Qlobal qapı" təşəbbüsü dünya üzrə strateji infrastruktur layihələrini öz təsir dairəsinə daxil etmək məqsədi daşıyır. Təşəbbüs çərçivəsində rəsmi Brüssel 2027-ci ilə qədər 300 milyard avroluq investisiya paketi formalaşdırmağı hədəfləyib və həmin investisiyaların əsas istiqamətlərindən biri də Avrasiya boyunca təhlükəsiz, siyasi risklərdən uzaq tranzit xətlərinin qurulmasıdır. Prezidentin köməkçisinin Brüsseldə verdiyi mesajın əsl mahiyyəti də burada üzə çıxır. Azərbaycan TRIPP vasitəsilə təkcə Orta Dəhlizi genişləndirmir, həm də Aİ-nin "Qlobal qapı" strategiyasının təbii tərəfdaşına çevrilir. Bakı bildirir ki, yeni yaranan nəqliyyat sistemini Brüsselin qlobal təşəbbüsü ilə birləşdirmək mümkündür və Aİ bu inteqrasiyanın tərkib hissəsi olarsa, həm enerji təhlükəsizliyində, həm də ticarət axınlarında dayanıqlı model əldə edəcək. Bu, Avropanın Çin və Mərkəzi Asiya ilə ticarətdə Rusiyadan asılılığını kəskin aşağı salır, eləcə də Qara dəniz və Şərqi Aralıq dənizi marşrutlarında geosiyasi riskləri minimuma endirir. Beləliklə, Azərbaycan Zəngəzur dəhlizini (TRIPP) Avropanın "Qlobal qapı" təşəbbüsü çərçivəsində strateji tərəfdaşlıq platforması kimi təqdim edir və bu, Aİ-nin Cənubi Qafqaz siyasətində prioritetlərin yenidən müəyyənləşməsi üçün real əsas yaradır.

*

Dəhlizin açılması Türkiyə, Azərbaycan və Mərkəzi Asiya arasında yeni iqtisadi təmas xəttinin yaranmasına səbəb olur və bu xətt Türk Dövlətləri Təşkilatının (TDT) iqtisadi inteqrasiyasını praktik mərhələyə keçirir. Mərkəzi Asiya ölkələrinin Aralıq dənizinə çıxışı iki dəfədən çox qısalır, Avropanın Mərkəzi Asiya bazarlarına daxil olması asanlaşır, Transxəzər xətti isə qlobal enerji və yükdaşımada alternativsiz arteriyaya çevrilir. Əslində, bu proses qlobal miqyasda yeni "XXI əsr Transxəzər İpək Yolu" modelinin formalaşmasını təmin edir və Çin–Qazaxıstan–Azərbaycan–Türkiyə–Avropa xəttini ilk dəfə vahid, koordinasiya olunmuş geoiqtisadi sistem kimi önə çıxarır.

Dəhlizlə bağlı Ermənistanda formalaşdırılan manipulyativ narrativlər real iqtisadi mənzərəni əks etdirmir, çünki aparılmış hesablamalar göstərir ki, Ermənistan Zəngəzur dəhlizi vasitəsilə illik 1,8–2,2 milyard dollar tranzit gəliri əldə edə bilər və bu rəqəm ölkənin illik büdcəsinin təxminən 20–22 faizinə bərabərdir. Əgər İrəvan layihədən kənarda qalmaqda israr etsə, yeni Avrasiya yük axınlarının tamamlayıcı hissəsi olmaq əvəzinə, onların kənarında dayanan passiv müşahidəçiyə çevriləcək və Cənubi Qafqazdan keçən tranzit xəritəsində faktiki rolunu itirəcək. Bakı isə bu dəhlizi siyasi təzyiq vasitəsi kimi yox, regionda iqtisadi inteqrasiyanı bərpa edən və sülhün möhkəmlənməsinə xidmət edən praktik mexanizm kimi təqdim edir. TRIPP Azərbaycanın sülh strategiyasının konkret tətbiq olunan komponenti kimi status qazanır.

Oktyabrın 21-də Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında bildirdi ki, Zəngəzur dəhlizinin açılışı 2028-ci ilin sonuna qədər baş verə bilər və TRIPP ilkin mərhələdə illik 15 milyon ton yük daşıya biləcək. Lakin logistika ekspertləri bu rəqəmin sonrakı mərhələdə 25–30 milyon tona qalxacağını proqnozlaşdırırlar. Bu isə Orta Dəhliz üzrə yük axınının ən azı 5 dəfə artması deməkdir. Açıq şəkildə görünür ki, Zəngəzur dəhlizi açıldıqdan sonra Azərbaycan Xəzər hövzəsinin energetik və siyasi mərkəzi kimi yanaşı, Avrasiyanın tranzit paylayıcı gücünə də çevriləcək.

Bu gün Zəngəzur dəhlizi (TRIPP) ətrafında gedən müzakirələr bəzən texniki detallarla məhdudlaşdırılır, lakin layihə əslində daha geniş bir mənzərəni ifadə edir. Dəhliz Avropanın ticarət təhlükəsizliyini möhkəmləndirir, Türk dünyasının iqtisadi bağlarını gücləndirir, Mərkəzi Asiyanın enerji-logistika çıxışını genişləndirir və Cənubi Qafqazda davamlı sülhün iqtisadi təməlini formalaşdırır. Azərbaycan isə bu prosesin əsas memarıdır. TRIPP açıldıqda Avrasiyanın xəritəsində yeni geosiyasi ox yaranacaq və bu ox gələcək qitələrarası güc balansının ana xəttini müəyyən edəcək.

*Tacir SADIQOV*
*XQ*

### Ekspert rəyi



**Yusif BAĞIRZADƏ, politoloq**

– Aİ-nin "Qlobal qapı" təşəbbüsü çərçivəsində Cənubi Qafqazın geoiqtisadi əhəmiyyəti artdığı bir vaxtda Azərbaycanın bu yeni nəqliyyat kompozisiyasına qoşulmaq istəyi həm regional, həm də qlobal səviyyədə strateji nəticələr doğurur. Prezidentin köməkçisi, Azərbaycan Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Brüsseldə verdiyi açıqlamaya görə, Bakı avropalı tərəfdaşlarla daha sıx inteqrasiya və nəqliyyat dayanıqlığının artırılmasını strateji prioritet hesab edir. Bu fonda Avropa İttifaqının Azərbaycanı real strateji tərəfdaş kimi tanıması üçün bir neçə həlledici siyasi, iqtisadi və təhlükəsizlik faktoru ön plana çıxır.

İlk növbədə qeyd edək ki, Avropa İttifaqı üçün praktik infrastruktur reallığı əsas dəyər olaraq qalır. Azərbaycanın Zəngəzur dəhlizini 2026-cı ilə qədər tamamlamaq planı və bu xəttin illik 15 milyon ton yükdaşıma potensialı, rəsmi Bakının regionun əsas tranzit qovşağına çevrilməsi istiqamətində ciddi iradə nümayiş etdirdiyini ortaya qoyur. Bu, həm Avropa ilə Asiya arasındakı ticarət axınlarının şaxələndirilməsi, həm də Orta Dəhlizin effektivliyinin artırılması baxımından Aİ üçün strateji üstünlükdür. Aİ-nin "Qlobal qapı" çərçivəsində dayanıqlı, təhlükəsiz və rəqabətqabiliyyətli nəqliyyat şəbəkələri yaratmaq hədəfi də Azərbaycanla əməkdaşlığı daha cəlbedici edir deyə bilərik.

Siyasi aspektdə Bakı–Brüssel tərəfdaşlığının dərinləşməsi Cənubi Qafqazda sabitliyin təmin edilməsi ilə sıx bağlıdır. Postmünaqişə dövründə regionda yeni kommunikasiya xətlərinin açılması və sərhədlərin demarkasiyası üzrə irəliləyişlər Aİ-nin regiona dair parçalanmış siyasətinin yenidən formalaşmasına təkan verə bilər. Zəngəzur dəhlizi, yalnız Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın iqtisadi inteqrasiyasını gücləndirəcək vasitə kimi Brüssel üçün uzunmüddətli sabitlik aləti qismində çıxış edə bilər. Bu baxımdan demək olar ki, siyasi sabitlik, qarşılıqlı faydalı münasibətlər və regional əməkdaşlıq xəttini əsas götürən Azərbaycanın, Aİ üçün "etibarlı tərəfdaş" statusu daha da möhkəmlənəcək.

Şübhəsiz ki, burada iqtisadi faktorlar da mühüm əhəmiyyət daşıyır. "Qlobal qapı" çərçivəsində nəzərdə tutulan milyardlarla avroluq investisiya paketləri nəqliyyat-logistika infrastrukturuna sərmayə yönəltməklə Orta Dəhlizin tranzit qabiliyyətini ciddi şəkildə yüksəldə bilər.

Nəhayət, Aİ üçün təhlükəsizlik məsələləri də həlledici rol oynayır. Regionda Rusiya, İran və Çin kimi aktorların fəallığı fonunda Aİ yeni marşrutların təhlükəsizliyinə təminat istəyir. Ölkəmizin regional risklərin azaldılması, tranzit infrastrukturunun müdafiəsi və beynəlxalq təhlükəsizlik standartlarına uyğunluq baxımından ardıcıl addımlar atması isə, şübhəsiz ki, Aİ-ni də Azərbaycanla bu istiqamətdə strateji tərəfdaşlıq qurmağa sövq edə bilər.

# Heydər Əliyev Fondu İƏT festivalının tərəfdaşı oldu

**Heydər Əliyev Fondu İslam Əməkdaşlıq Təşkilatının Mədəniyyət Festivalının tərəfdaşı olub.**




"İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə – 2025" dekabrın 5-dən 11-dək İslam Əməkdaşlıq Təşkilatının və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək.

Mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, tolerantlıq, sülh və müxtəlifliyə hörmətin təbliği festivalın əsas istiqamətlərindəndir. 50-dən çox ölkədən qonağın iştirak edəcəyi Yaradıcı Həftə çərçivəsində təqdim olunacaq kino, teatr, dəb, dizayn, musiqi, oyun texnologiyaları, rəqəmsal yaradıcılıq və startap sahələrinə yönəlmiş panellər, nümayişlər, sərgilər və digər fəaliyyətlər ölkəmizin yaradıcı sənaye ekosistemini qlobal müstəvidə tanıdacaq.

Festival günlərində "Mədəni və yaradıcı sənayelər forumu" (MYFORUM), "Creative Village": mədəni və yaradıcı sənayelər sərgisi" (MYEXPO), "Baku Cinema Breeze – 2025" beynəlxalq kino proqramı, "Şərq moda nümayişi" – İƏT ölkələrinin gənc və tanınmış dizaynerlərinin təqdimatları, oyun texnologiyaları üzrə beynəlxalq sammit (G-HUB) və digər təqdimatlar olacaq.

*XQ*

# İslam dünyasında süni intellekt mövzusunda konfrans keçiriləcək

**Heydər Əliyev Fondu, Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və ICESCO-nun tərəfdaşlığı ilə dekabrın 8-9-da Bakıda, Heydər Əliyev Mərkəzində "İslam dünyasında süni intellekt indeksinin tərtib olunması" mövzusunda beynəlxalq konfrans keçiriləcək.**




ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik və Həmdan Bin Rəşid Əl Məktum Fondunun ali sədri Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Məktum tədbirdə iştirak edəcəklər.

Süni intellektin inkişaf trendlərinin elmi əsaslarla ölçülməsi üçün hazırlanmış "İslam dünyasında süni intellekt indeksi" sənədi də məhz ilk dəfə Bakı konfransında təqdim olunacaq.

Konfransın məqsədi İslam dünyasında süni intellekt üzrə əməkdaşlığı gücləndirmək, həmçinin süni intellektin etik, sosial və iqtisadi təsirlərini müzakirə etməkdir.

Tədbirdə ICESCO-ya üzv 10 ölkənin təhsil nazirləri, beynəlxalq ekspertlər, dövlət qurumlarının nümayəndələri daxil olmaqla, ümumilikdə 150-yə yaxın şəxs iştirak edəcək.

Konfrans çərçivəsində təhsil sistemində süni intellektin roluna həsr olunmuş müzakirələr aparılacaq və "ICESCO-ya üzv ölkələr arasında süni intellekt indeksinin tərtib olunması"na dair yekun bəyannamə qəbul ediləcək.

*XQ*

*Xuntaçıların məhkəməsi*

# Qanlı cinayətlər sübuta yetirilir

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 1-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə keçirilən açıq məhkəmə iclasında təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Səbuhi Tağıyevin hüquqi varisi Sərdar Tağıyev qardaşının Laçında düşmən atəşi nəticəsində həlak olduğunu bildirib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş Zəka Vəliyev qeyd edib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində Allahverdi Səfiyev və Elnur Kərimov həlak olub, o və Rəsul Ağayev isə müxtəlif növ bədən xəsarətləri alıblar.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Vahid Alcanov bildirib ki, düşmənin genişmiqyaslı təxribatı nəticəsində Laçın rayonu ərazisində atılan minaatan mərmisinin partlaması nəticəsində bir nəfər həlak olub, o və daha bir neçə şəxs yaralanıb.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs Elgün İsmayılov qeyd edib ki, Ağdərə rayonunun Gülyatağ kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən avtomat silahlardan açılan atəşlər nəticəsində o və Səfər Hüseynquliyev xəsarət alıblar.

Bəxtiyar Hüseynov bildirib ki, Kəlbəcər rayonu istiqamətində düşmən tərəfindən atılan əl qumbarasının yaxınlığında partlaması nəticəsində xəsarət alıb. Təxribat zamanı ondan başqa yaralananlar da olub.

Nüsrət Orucov qeyd edib ki, Kəlbəcərdə düşmən tərəfindən atılan əl qumbarasının yaxınlığına düşüb partlaması nəticəsində çiynindən yaralanıb.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Cavid Xosiyev bildirib ki, Ağdam-Xocalı istiqamətində düşmən tərəfindən atılan minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində o və Cavad Quliyev müxtəlif növ bədən xəsarətləri alıblar.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Nihad Seyidzadə vurğulayıb ki, Xocalı rayonu istiqamətində düşmən tərəfindən açılmış atəşlər nəticəsində o, Murad Hüseynov və Rəvan Ağazadə müxtəlif növ bədən xəsarətləri alıblar.

Bəylər Kərimov ifadəsində Ağdam-Xocalı istiqamətində düşmənin minaatandan açdığı atəş nəticəsində yaralandığını deyib.

Məhkəmə prosesi sənədlərin və cinayət işi materiallarına olan digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası dekabrın 2-nə təyin olunub.

*XQ*

# İlham Əliyev: liderin tarixi-siyasi missiyası



## III MƏQALƏ

### Çoxparametrli kurs

Bu mövzuda öncəki məqalənin son tezisində enerji strategiyası, əməkdaşlıq platformaları, layihələr və regional infrastrukturun kompleks halında Cənubi Qafqazda bütöv geosiyasi dinamikanı və yekun mənzərəni dəyişdirdiyi ifadə edilmişdi. Vurğulanan parametrlərin uzunmüddətli siyasi kursda bir-biri ilə ziddiyyətsiz qarşılıqlı təsirdə olmalarının təmini XXI əsrdə ciddi siyasi məharət tələb edir. Situasiyanı aydınlaşdırmaq üçün qısa müqayisə aparaq.

Enerji strategiyası öncədən hazırlanmış ayrıca bir fəaliyyət sistemidir. Burada Azərbaycan Respublikası dövlətinin strateji milli maraqlarını nəzərə almaqla hər mərhələdə müstəqil dövlətçiliyə xidmət edən addımlar atmaq tələb olunur. Prezident onun üç mərhələsini vurğulamışdır. Birinci mərhələdə dünyanın böyük enerji şirkətlərini Xəzərin Azərbaycan hissəsindəki enerji yataqlarının istismarı və nəqlinə cəlb etmək lazım idi. İkinci mərhələdə qaz yataqlarının nəqli məsələsi neft-qaz sintezi kontekstində təmin edilməli idi. Üçüncü mərhələdə isə bərpaolunan eneri, "yaşıl enerji" üzrə layihələrin reallaşması həyata keçməli idi. İkinci mərhələnin əsas tranzit proqramı olan "Cənub Qaz Dəhlizi"nin üçüncü mərhələdə əhəmiyyəti azalmamalı idi.

Əlbəttə, səthi yanaşmada belə bu qədər faktoru özündə ehtiva edən bir strateji ilə ümumiyyətlə, əməkdaşlıq platformaları və müxtəlif sferalar üzrə layihələrin harmoniyasını təmin etmək böyük siyasi məharət tələb edir. Üstəlik, bütün bunları kompleks regional infrastrukdurda vahid sistem halına gətirməyin mürəkkəbliyi kontekstində təsəvvür edə bilərik.

İndi bütün bu özəllikləri vahid bir siyasi mənzərədə qarşılıqlı təsirlər şərti ilə sintez etməyə çalışaq. Etiraf edək ki, kifayət qədər mürəkkəb və dinamik mənzərə alınır. Çünki məsələ yalnız struktur elementləri kimi vurğulanan məqamları uyğunlaşdırmaqdan ibarət deyildir – onları həm də dinamik dəyişən daxili və xarici təsirlər faktorları prizmasında müsbət nəticəverici müstəvidə saxlamaq lazım gəlir.

Bu isə bizim ümumi adlandırdığımız "çoxparametrli siyasi kursun" müəyyən olunmasını tələb edir. İlham Əliyev bu çox çətin və mürəkkəb prosesin öhdəsindən böyük uğurla gələn yeganə liderdir. Bu məqam da liderin tarixi-siyasi missiyasının vacib tərkib hissələrindən biridir.

Bu uğurun faktoloji təsdiqləri mövcuddur. Onlardan birini vurğulayaq.

### ABŞ–Cənubi Qafqaz: "Əliyev ssenarisi" üzrə yaxınlaşma

"New Lines Institut"u nəzdindəki xüsusi Proqram rəhbəri Kamran Bokhari Beyin Mərkəzlərinin Bakıda keçirilən I Forumunda demişdir: "Tramp administrasiyası da bu marşruta (Zəngəzur dəhlizi nəzərdə tutulur – F.Q.) xüsusi diqqət ayırıb, çünki həmin xətt Qərb–Şərq əlaqələrinin genişlənməsi üçün yeni imkanlar yaradır. Bu, eyni zamanda, ABŞ-ın Azərbaycanla münasibətlərində yeni bir mərhələ və Vaşinqtonun Cənubi Qafqaz regionuna indiyədək olmadığı qədər yaxınlaşması deməkdir".

Burada, birincisi, Tramp administrasiyasının Zəngəzur dəhlizinə xüsusi diqqət ayırması, ikincisi, ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələnin başlaması, üçüncüsü, bütövlükdə Amerikanın Cənubi Qafqaza tarixdə olmadığı qədər yaxınlaşması prinsipial siyasi və geosiyasi faktorlardır. Burada bir layihənin həyata keçməsi ilə iki dövlət arasındakı münasibətlər və dünyanın ən güclü ölkəsinin regiona daha da yaxınlaşması arasında sıx bağlantı yarada bilən siyasi kurs zəruridir. Həmin kursun memarı Prezident İlham Əliyevdir.

Bu il noyabrın 16-da Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxışı zamanı Azərbaycanın dövlət başçısı vurğulamışdır: "Əminəm ki, Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcək. Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta Dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir".

Bütün bunlar Azərbaycan liderinin XXI əsrdə dünya strategiyalarından birini yaratdığını deməyə tam əsas verir. Özü də bu strategiya unikaldır. Çünki indiki postmüharibə mərhələsində çox mürəkkəb geosiyasi şəraitdə Cənubi Qafqazı region kimi qlobal miqyasda öncəki dönəmlərdən fərqli keyfiyyət və funksiyada təqdim etməyə imkan yaratmışdır.

### Kissincerin yanaşması ilə qısa müqayisə

Azərbaycan liderinin dünya strategiyası ilə Henri Kissincerin XX əsr üçün formalaşdırdığı təsnif üçün ortaq olan məqam vardır; hər iki halda postmüharibə dövründə uğurlu strategiyaların hazırlanmasından söhbət gedir.

H.Kissincer əsas olaraq II Dünya müharibəsindən sonra ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Sinqapur və Misirin o dövrdəki liderlərinin dünya miqyasında geosiyasi mənzərəyə təsir edən siyasi strategiyalarını təhlil etmişdir. Ancaq burada bir xüsusiyyət vardı: həmin dövlətlərin hər biri müharibəyə qədər (Sinqapur istisnadır) müstəqil formalaşmış dövlətlər idilər.

Hətta ABŞ, Böyük Britaniya, Fransa, Almaniya dünya siyasətində aparıcı rollara sahib idilər. II Dünya müharibəsi onların bu rollarında böhranların yaranmasını üzə çıxardı və əsas məqsəd həmin rolları saxlamaq üçün hansı strategiyanı seçməklə bağlı idi.

Misir üçün fərqli situasiya mövcud idi. Qahirə İsraillə qarşıdurmadan öz simasını və dövlətçiliyi necə saxlamaq naminə düzgün strategiya seçməli idi. Sinqapur isə müstəmləkədən qurtuluşu sürətli inkişaf yoluna çevirmək strategiyasını hazırlamalı idi.

Azərbaycan üçün bu siyasi kriteriyaların heç biri uyğun deyildi. Çünki birincisi, əsrlərlə Azərbaycanın müstəqil dövlət olmaq hüququ əlindən alınmışdı, ikincisi, sovetlərin tərkibində olanda da ona qarşı qərəzli siyasət müxtəlif üsullarla davam etdirilmişdi, üçüncüsü, müstəqillik əldə ediləndə Azərbaycan faktiki olaraq xarici təcavüz və daxili separatizm vasitəsi ilə olduqca çətin vəziyyətə salınmışdı və dördüncü, Azərbaycanın beynəlxalq dəstəyi demək olar ki, yox idi. Əgər ABŞ, Fransa, Almaniya və Böyük Britaniya daim beynəlxalq dəstək görürdülərsə, Azərbaycan əksinə, daim təzyiq və qərəzli münasibət altında idi (nümunə: "907-ci düzəliş", Qərbin və Rusiyanın təcavüzkar ermənilərə tam dəstəkləri, havadarlıqları və s.).

Belə bir şəraitdə elə dahi Azərbaycan lideri meydana çıxmalı idi ki, faktiki olaraq məhv olunmaq halına salınmış ölkəni müstəqil dövlətə çevirə biləcək strategiya hazırlasın. Bunu çox təcrübəli, Vətənsevər, tarixi dərindən bilən, dünya siyasətinə dərindən bələd olan və yüksək siyasi-diplomatik məharət sahibi lider edə bilərdi. Həmin lider Heydər Əliyev oldu.

### "Güclü dövlət" strategiyası: dünya kontekstində

Ancaq Azərbaycan nümunəsində də bir əhəmiyyətli geosiyasi və siyasi fərqlilik vardı. Çünki H.Kissincerin önə çəkdiyi siyasi liderlərdən fərqli olaraq Heydər Əliyev üçün müahirbə bitməmişdi – ölkəyə təcavüz davam edirdi, hətta onun daha şiddətli mərhələsinə keçməyə çalışırdılar. Bu vəziyyətdə uğurlu strategiya nədən ibarət ola bilərdi? Bu barədə tam yekun fikir bildirməkdən uzağıq, çünki olduqca məsuliyyətli bir təsnifdir. Ancaq baxdığımız kontekstdə Heydər Əliyevin strategiyasını "güclü dövlət" adlandırmaq olar. Məhz güclü dövlət qurmadan ərazi bütövlüyünü bərpa etmək imkansızdı, ərazisi bütöv olmayan və suverenliyi tam təmin edilməyən dövlət isə əsl mənada müstəqil deyildir. Müstəqil olmayan dövlətin dünya strategiyasından danışmaq imkansızdır.

Deməli, Heydər Əliyev sonrakı mərhələ üçün müstəqil dövlət bazasını hazırlamalı idi. Ulu öndər bu vəzifənin öhdəsindən böyük uğurla gəldi və eyni zamanda, sonrakı mərhələdə Azərbaycanın dünya strategiyası səviyyəsində siyasi kurs fəlsəfəsinin təməlini qoydu.

### XXI əsrdə bir ilk: İlham Əliyev qarşısındakı mürəkkəb vəzifələr

Beləliklə, Prezident İlham Əliyev qarşısında XXI əsrdə dünya strategiyası kateqoriyasına daxil ola biləcək strateji konsepsiya hazırlayıb onu həyata keçirmək kimi böyük tarixi-siyasi missiya dayanmışdı. Burada bir neçə istiqamətdə çətinlik vardı.

Birincisi, XXI əsrdə dünya strategiyasının nümunəsi yox idi və deməli, lider xeyli dərəcədə "təcrübə vakuumunda" fəaliyyət göstərməli idi.

İkincisi, ərazi bütövlüyünün bərpası və tam suverenliyin təmini ilə postmüharibə və postkonflikt mərhələlərinin strateji quruculuq xətti faktiki olaraq vahid strateji konsepsiya daxilində həyata keçirilməli idi.

Üçüncüsü, Azərbaycanın dünya strategiyası səviyyəsində özünütəsdiqi, yəni Prezident İlham Əliyevin beynəlxalq aləmi söhbətin dünya üçün əhəmiyyəti olan strategiyadan getdiyinə inandırması lazım idi.

Bu, böyük dövlətlərin liderləri üçün tam bir yenilik idi. Çünki Cənubi Qafqazın həmişə arxa plana atılan bir dövlətinin həm ərazi bütövlüyünü bərpa etməsi, həm də dünya geosiyasi meydanına XXI əsrin strategiyalarından birinin yaradıcısı kimi çıxması məlum dairələrə şok effekti verə bilərdi. Onlar, səmimi olaq, heç bunu arzulamırdılar, istəmirdilər və hər vəchlə mane olmağa üstünlük verirdilər.

Burada psixoloji aspektdə ciddi diqqət yetirilməli olan bir xüsusiyyəti mütləq qeyd etməliyik. Məsələ onunla bağlı idi ki, özlərini dünyanın ən güclü və düşüncəli liderləri hesab edənlərin heç birinin dünya strategiyası yoxdur. H.Kissincer bu barədə yazmaq istəsəydi, çox çətinə düşərdi. Çünki həmin dövlətlərin liderləri davamlı və qalıcı siyasi kurs sayəsində dünyanın qədərini müsbətə doğru dəyişə biləcək bir konsepsiya və ya davamlı fəaliyyət doktrinası ortaya qoya bilməmişlər. Son aylar buna yalnız Donald Tramp iddia edə bilər. Lakin onun dünyanı radikal yeniləşdirmək kursunun necə sonuclanacağı bəlli deyildir. Yəni H.Kissincerin kriteriyaları fonunda D.Tramp kursu başa vurmamışdır və onun dünya strategiyası kimi təsnifi tam anlaşıqlı olmazdı. Mümkündür ki, D.Tramp öz yeni strategiyası ilə həqiqi anlamda dünyanın qədərini müsbətə doğru dəyişsin. Hələlik bu istiqamətdə ABŞ prezidenti qismən uğurludur.

Türkiyə Prezidenti R.T.Ərdoğan ciddi uğurlar əldə etmişdir. R.T.Ərdoğan dünya siyasi və geosiyasi düzəninə əhəmiyyətli təsir edə bilir. Lakin qardaş dövlətin başçısının siyasi kursu dünya strategiyası çərçivəsində təhlil edilməmişdir və orada da proseslər davam edir. Ankaranın bəyan etdiyi "XXI əsr Türkiyə əsridir" strateji şüarının tam reallaşması lazımdır. Bu istiqamətdə Türkiyənin uğurlu olacağına tam əminik.

Başqa liderlərdən heç biri haqqında dünya strategiyası kontekstində danışmaq mümkün deyildir. Onların heç biri bu miqyasda qlobal düzəni yeniləşdirə biləcək siyasi xəttə sahib deyillər.

Şübhəsiz, bu dərəcədə geniş müqayisələr fonunda Azərbaycan Prezidentinin hələlik yeganə dünya strategiyasına malik lider olması tezisini irəli sürmək və onu əsaslandırmaq intellektual cəsarət tələb edir. Lakin faktlar və əldə olunan nailiyyətlər bu işi asanlaşdırır.

Biz Azərbaycan Prezidentinin dünya strategiyasını qısa belə adlandıra bilərik: "Sülh qazandıran Qələbə strategiyası"!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Cənubi Qafqaz və Şərqi Avropada geostrateji koordinasiya

**(əvvəli 1-ci səhifədə)**

Son illərdə davam edən Ukrayna müharibəsi regionda mövcud güc balansını kökündən dəyişdirib və dövlətlərarası tərəfdaşlıq əlaqələrinin qiymətləndirilməsi və yeni kontekstdə formalaşdırılması zərurətini ortaya qoyur. Konflikt Avropada və Cənubi Qafqazda strateji qərarların qəbulunda ölkələrin mövqeyini və prioritetlərini dəyişdirərək, əlaqələrin real geosiyasi və iqtisadi koordinasiya prinsiplərinə əsaslanmasını tələb edir.

Ukrayna müharibəsi Polşanı NATO-nun şərq cinahının əsas dayağına çevirib. Polşa yalnız Şərqi Avropada deyil, həm də qərarverici platformalarda strateji rol oynayan dövlət kimi çıxış edir. Təbii ki, bunlar Polşanın regionun təhlükəsizliyindəki nüfuzunu artırır və onu yalnız öz sərhədləri ilə məhdudlaşdırmır.

Azərbaycan isə Cənubi Qafqazda status-kvonu dəyişdirərək, regionda öz təhlükəsizlik modelini gücləndirib. Ölkəmiz regionda strateji balansı qorumaq və gələcək geosiyasi riskləri idarə etmək üçün hərtərəfli yanaşma tətbiq edir. Diplomatik kanallar vasitəsilə Azərbaycan qonşu dövlətlərlə dialoqu davam etdirir, beynəlxalq təşkilatlarda öz mövqeyini qoruyur və tərəfdaşlıq platformalarını genişləndirir. Eyni zamanda, enerji resursları və tranzit potensialı ölkəmizə region və Avropa ilə iqtisadi və siyasi əlaqələrdə əhəmiyyətli təsir gücü qazandırır. Belə bir strategiya nəticəsində Azərbaycan Cənubi Qafqazda regional aktor kimi qərarvermədə iştirakını möhkəmləndirir, enerji, ticarət və təhlükəsizlik sahələrində öz maraqlarını səmərəli şəkildə irəli aparır. Diplomatik manevrlər və enerji strategiyaları birlikdə Azərbaycanın həm regional, həm də qlobal səviyyədə təsir gücünü artıran kompleks təhlükəsizlik modeli yaradır.

İki məkan – Şərqi Avropa və Cənubi Qafqaz artıq periferik zonalar kimi deyil, qlobal güclərin rəqabət xəttində birləşən təhlükəsizlik dəhlizinə çevrilir. Təhlükəsizlik dəhlizi strateji baxımdan, enerji, ticarət və logistika platformalarının koordinasiyası üçün əhəmiyyət daşıyır.

*

Enerji təhlükəsizliyi hazırkı geosiyasi mühitin ən kritik elementlərindən biridir və Azərbaycan–Polşa xətti bu kontekstdə xüsusi strateji əhəmiyyət daşıyır. Nəzərə alaq ki, Polşa uzun illər Rusiya qazından asılı idi və bu asılılıq ölkənin Avropa enerji siyasətində ciddi həssaslıq yaratmışdı. Hazırda Varşava alternativ mənbələrə yönəlməklə, enerji təhlükəsizliyini möhkəmləndirməyə çalışır və bu strategiyada Bakı kritik tərəfdaş kimi çıxış edir.

Azərbaycan Avropanın enerji müqavimət xəttində əsas təchizatçı rolunu oynayır. Ölkəmizin təbii qaz resursları Avropanın geosiyasi balansında mühüm element kimi nəzərə alınır. Faktiki olaraq, Azərbaycan qazının tədarükü 12 Avropa dövlətinə çatdırılır və onların enerji təhlükəsizliyinə birbaşa təsir göstərir, həmçinin 8 Avropa İttifaqı ölkəsinin enerji asılılığını azaltmaqda mühüm rol oynayır.




Polşa isə şimalda enerji paylayıcı mərkəz rolunu yerinə yetirərək, Avropaya alternativ enerji marşrutlarının açılmasında və tədarükün şaxələndirilməsində strateji rol oynayır. Analitik baxımdan, Polşanın bu rolu bir neçə əsas funksiyanı yerinə yetirir: birincisi, enerji tədarük zəncirində fasiləsizliyi təmin edir və Avropa ölkələrinə alternativ marşrutlar təqdim edir; ikincisi, tədarükün müxtəlifliyi nəticəsində Avropanın geosiyasi manevr imkanlarını artırır; üçüncüsü, Polşa enerji paylayıcı mərkəz kimi çıxış edərək, həm regional, həm də qlobal enerji siyasətində strateji aktor statusunu gücləndirir.

Bütün bu amillər Avropada enerji marşrutlarının şaxələndirilməsi siyasətinin strateji komponentidir. Analitik baxışla deyə bilərik ki, Bakı–Varşava enerji xətti iqtisadi əməkdaşlıq sərhədlərini aşaraq, Avropanın geosiyasi dayaqlarından birinə çevrilmək potensialına malikdir.

Buradan ortaya çıxan strateji sual belədir: Polşa Azərbaycanın enerji resurslarından NATO və Avropa üçün kritik strateji məqsədlərdə nə dərəcədə və necə səmərəli şəkildə istifadə edə bilər? Sual enerji təhlükəsizliyinin, regiondakı siyasi balansın və geosiyasi etibarlılığın ölçüsünü müəyyənləşdirir. Həm Bakı, həm də Varşava üçün strateji baxımdan vacib olan bu əməkdaşlıq gələcəkdə enerji və təhlükəsizlik inteqrasiyasının modelini təqdim edə bilər.

*

Çin–Avropa ticarət xəttində Rusiyadan yan keçən Orta Dəhliz layihəsi (Azərbaycan–Gürcüstan–Türkiyə) də Polşanın diqqət mərkəzindədir. Dəhliz Avropanın Şərq bazarlarına çıxışını təmin edən, geosiyasi alət funksiyasına malik strateji koridor kimi qəbul edilir. Azərbaycan isə burada Avropa və Asiya arasında ticarət və logistika axınlarını yönləndirən əsas aktordur.

Bəs Avropa yeni ticarət xəttinin şərq qapısı kimi Polşanı, cənub qapısı kimi Azərbaycanı sinxronlaşdırmağa hazırdırmı? Əgər belə sinxronizasiya reallaşsa, bu, iki ölkənin rolunu qlobal enerji və ticarət siyasətində strateji mərkəzlər kimi gücləndirəcək. Azərbaycan–Polşa xətti Orta Dəhliz vasitəsilə Avropanın strateji seçimlərinin yeni koordinat sistemi kimi çıxış edə bilər. Yəni hər iki ölkənin həm logistik, həm enerji, həm də geosiyasi planlarda qərarverici aktor roluna yüksəlməsi mümkündür.

Belə bir perspektiv həm də praktiki təhlil üçün imkan yaradır: Avropa Orta Dəhliz və Şərqi Avropa arasında qarşılıqlı əlaqəni sistemləşdirə bilsə, Bakı–Varşava xətti qlobal ticarət və strateji koordinasiyanın əsas sütunlarından birinə çevriləcək.

*

Varşavada keçirilmiş son konsulluq məsləhətləşmələri Azərbaycan–Polşa münasibətlərinin dərinləşməsinin və tərəfdaşlığın praktiki əsaslarının yaradılmasının



göstəricisidir. Konsulluq sahəsində əməkdaşlıq – vətəndaşların hüquqlarının qorunmasından, miqrasiya və hüquqi məsələlərin koordinasiyasına qədər – ölkələr arasında etibarlı kommunikasiyanın təməlini təşkil edir.

Konsulluq və hüquqi əməkdaşlıq, miqrasiya, ədliyyə və prokurorluq sahələrində qarşılıqlı təcrübə mübadiləsi, təhlükəsizlik məsələlərində həmrəylik imkanını artırır. Konsulluq əməkdaşlığı vasitəsilə yaradılan platforma strateji planlaşdırma üçün baza rolunu da oynayır. Azərbaycan–Polşa əməkdaşlığı enerji tədarükü, Orta Dəhliz layihəsi və regional təhlükəsizlik çərçivəsində praktiki inteqrasiya üçün önəmli imkan yaradır.

Bəs Varşava və Bakı bu əməkdaşlıq platformasını regional və qlobal strategiyaların planlaşdırıldığı bir koordinasiya mexanizminə çevirə biləcəklərmi? Cavab birbaşa mövcud geosiyasi mühitdən asılıdır. Ukrayna müharibəsi, enerji və ticarət marşrutlarının şaxələndirilməsi və Avropada təhlükəsizlik balansı koordinasiyalı əməkdaşlıqla səmərəli idarə oluna bilər. Eyni zamanda, enerji və ticarət marşrutlarının şaxələndirilməsi Avropanın davamlılığı üçün strateji əhəmiyyət kəsb edir.

Belə bir reallıq kontekstində yalnız koordinasiyalı əməkdaşlıq vasitəsilə Avropa və Cənubi Qafqazda təhlükəsizlik, enerji təminatı və ticarət axınları səmərəli idarə oluna bilər. Azərbaycan və Polşanın qarşılıqlı fəaliyyətləri həm təhlükəsizlik, həm də iqtisadi sahələrdə bir-birini tamamlayan mexanizm rolunu oynayır. Praktiki nəticələr göstərir ki, koordinasiyalı platforma olmadan enerji marşrutları etibarlı idarə olunmayacaq, ticarət dəhlizlərinin optimallaşdırılması mümkünsüzə çevriləcək, onların regional geosiyasi təsir gücü isə azalacaq.

Son olaraq qeyd edə bilərik ki, Bakı–Varşava xətti strateji qərarların qəbulunda, regional təhlükəsizlik və qlobal enerji siyasətinin formalaşdırılmasında real mexanizm kimi çıxış edə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Nifaq yuvası Eçmiədzində qarşıdurma

## *Din xadimləri katolikosun istefasını tələb edirlər*

**Erməni Apostol Kilsəsi ilə ölkə hakimiyyəti arasında yaranmış gərginlik davam edir. Hakimiyyət bütün ermənilərin katolikosu II Qareginin dərhal istefa verməsini tələb edir. Ölkənin baş naziri Nikol Paşinyan bir neçə gün öncə məlum tələbini yenidən təkrarlayıb. O, jurnalistlərə açıqlamasında katolikosun islahat prosesində iştirak etmək üçün bütün imkanları tükəndirdiyini, II Qareginin, sadəcə, müqəddəs Eçmiədzin ana taxtını azad etməli olduğunu vurğulayıb.**



Noyabrın 29-da bu istiqamətdə mühüm hadisə baş verib. Həmin gün axşam saatlarında bir qrup yepiskop və arxiyepiskop katolikosu vəzifəsindən könüllü olaraq istefa verməyə çağıran ictimai müraciətlə çıxış ediblər. “Sputnik Ermənistan”ın yaydığı xəbərə görə, iyerarxlar bəyanatda II Qaregini özbaşına idarəetmə metodlarında, siyasi proseslərə müdaxilədə və kilsə rəhbərinin missiyası ilə uyğun olmayan bir sıra digər hərəkətlərdə ittiham ediblər. Bundan əlavə, müraciət müəllifləri 1999-cu il oktyabrın 27-də baş tutmuş katolikos seçkilərinin təzyiq və qorxutma şəraitində keçirildiyini iddia edərək II Qareginin seçilməsinin legitimliyini, faktiki olaraq, şübhə altına alıblar. Bəyanatda deyilir: “Biz son aylarda kilsəmizin daxilində və ətrafında yaranan və hamımızın qəlbini sarsıdan qeyri-sağlam atmosferə görə dərin təəssüf hissi keçiririk. 1999-cu ildə katolikos seçkiləri ədalətli və təzyiq olmadan keçirilsəydi, bunların heç biri baş verməzdi. Erməni kilsəsinin xüsusilə son aylarda həm daxili idarəçiliyinin düzgün olmaması, həm də kilsə–dövlət münasibətlərində münasibətlərin pis olması səbəbindən mövcud böhran görünməmiş miqyas alaraq həm vətəndə, həm də diasporda təhlükəli vəziyyət yaradaraq xalqımızın sabitliyini, inancını və birliyini pozub. Katolikosun səhv və özbaşına rəhbərliyi səbəbindən yeparxiyalarımız və ayrı-ayrı pastorlarımız və diaspordakı dairələrimiz tez-tez narahat olur, bəzən Eçmiədzinlə əlaqələrini kəsməyə məcbur olurlar. Biz kilsəmiz və xalqımız naminə katolikos II Qareginin mövcud vəziyyəti ayıq qiymətləndirəcəyini, könüllü olaraq istefa verəcəyini və yeni seçkilərin keçirilməsinə şərait yaranacağını gözləyirik”. İddialar arasında ayrı-ayrı keşişlərin vəzifədən məhrum edilmələrinin əsassız olduğu və “katolikosa şəxsən sədaqətli, lakin səriştəsiz” ruhanilərin əsas vəzifələrə təyin edildiyi də qeyd olunur.

Müraciəti ümumilikdə 10 iyerarx – arxiyepiskoplar Ovnan Terteryan, Navasard Kçoyan, Avraam Mkrtçyan, Arakel Karamyan, Sion Adamyan, Vazgen Mirzəxanyan və yepiskoplar Anuşavan Jamkoçyan, Vrtanes Abraamyan, Artak Tiqranyan və Gevorq Saroyan imzalayıb. Bunlardan 8 nəfəri noyabrın 27-də N.Paşinyanla görüşdə iştirak edən şəxslərdir. Daha sonra qoşulan iki nəfərdən biri erməni kilsəsinin ABŞ-dakı Qərb yeparxiyasının rəhbəri, arxiyepiskop Ovnan Terteryan və Armavir yeparxiyasının rəhbəri, arxiyepiskop Sion Adamyandır.

*

Ancaq II Qaregin də geri çəkilənə oxşamır. Eçmiədzin ana taxtının dəftərxanasının rəhbəri, arxiyepiskop Arşak Xaçatryan katolikosun patriarx taxtını tərk etməyi düşünmədiyini bildirib. Xaçatryan dünən keçirilən mətbuat konfransında bildirib: “Katolikosun istefa verməsi üçün heç bir səbəb görmürəm. O, yalnız bəzi şübhəli dini mənsubiyyətə malik dairələrin belə bir tələb irəli sürməsi səbəbindən taxtını tərk edə bilməz”. Arşakın sözlərinə görə, hətta 10 yepiskop belə bir tələb irəli sürsələr də, bu mümkün deyil.

Gözlənildiyi kimi, kilsənin Rusiya və Şimali Qafqazı, həmçinin Rostov-Don şəhəri və Krasnodar diyarını əhatə edən qondarma “Novo-Naxçıvan” yeparxiyası katolikosa dəstək nümayiş etdirib. Yeparxiya yaydığı bəyanatda deyilir: “Moskvadakı Yaradanın Yenilənməsi kafedralının keşişi, ierey Akop Saroyan istisna olmaqla, yeparxiya ruhaniləri yekdilliklə müqəddəs Eçmiədzin ana taxtına, onun sadiq ruhanilərinə və bütün ermənilərin katolikosu II Qareginə, eləcə də Ermənistan hakimiyyəti tərəfindən həbs edilən ruhanilərə sarsılmaz və qeyd-şərtsiz sədaqətlə yanaşdıqlarını bəyan edirlər. Biz, erməni kilsəsinin Rusiya və “Novo-Naxçıvan” yeparxiyasının ruhaniləri müqəddəs kilsəmizin ətrafında və xüsusən də daxilində baş verən təhlükəli hadisələrlə bağlı narahatlığımızı və qəzəbimizi bildiririk. Ermənistan hakimiyyətinin kilsə əleyhinə kampaniyasını və eyni prinsiplərə və məntiqə əsaslanan bəzi ruhanilərin əsassız və bölücü yanaşmalarını qətiyyətlə pisləyirik”.

Qeyd edək ki, kilsənin Rusiya yeparxiyasına II Qareginin qardaşı arxiyepiskop Yezras Nersisyan rəhbərlik edir. Paşinyan bir ay öncə Yezrasının SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin (“KQB”) agenti olduğunu demişdi: “O, sovet dövründən bəri o KQB-yə işləyib və bu, faktdır. Dərc edilmiş faktlar və sənədlər onun KQB agenti kimi əməkdaşlığa cəlb edildiyini açıq şəkildə göstərir və bu, faktdır. Yeri gəlmişkən, bu faktlarla bağlı nə Ktriç Nersisyandan (II Qaregin), nə də qardaşından heç bir izahat gözlənilmir”.

Həmçinin hazırda həbsdə olan arxiyepiskoplar Mikael Acapaxyan və Baqrat Qalstanyan da istintaq təcridxanasından birgə bəyanat verərək, bütün ermənilərin katolikosu II Qareginin istefasını tələb edən yepiskopları qınayıblar. Onlar baş nazirlə görüşdə iştirak edən yepiskopları “satqın və gizli davranış” vasitəsilə kilsədə nifaq salmağa çalışan “10 İuda” adlandırıblar.

Bu arada Ermənistanda məhkəmə katolikosun qardaşı və qardaşı oğlunun həbs müddətini uzadıb. Məlumata görə, Gevork Nersisyan barəsində həbs-qətimkan tədbirinin müddəti iki aylıq, onun oğlu Ambartsum Nersisyanın həbs müddəti isə üç aylıq uzadılıb. Ata və oğul noyabrın 3-də saxlanılmışdı. Onlara Vaqarşapatda keçiriləcək seçkilərdə qərbyönlü “Respublika” partiyasının təbliğat-təşviqatına mane olmaq ittihamı irəli sürülmüşdü. İstintaqın məlumatına əsasən, Nersisyanlar noyabrın 1-də Vaqarşapat icmasının tərkibinə daxil olan Voskeat kəndində partiya fəalı ilə münaqişəyə girərək ona qarşı təhqiramiz davranış sərgiləyiblər. Hadisə ilə bağlı iş noyabrın 17-də məhkəməyə göndərilib.

*

Beləliklə, görünən odur ki, Erməni Apostol Kilsəsi ilə siyasi hakimiyyət arasında qarşıdurma sürətlə dərinləşir və proses artıq sadəcə, kilsədaxili fikir ayrılığı yox, bütövlükdə, Ermənistanın institusional sabitliyinə təsir edən böhran xarakteri alır. Katolikos II Qaregindən istefa tələbi ilk dəfə deyil, lakin bu dəfə prosesin miqyası və iştirakçıların dairəsi, eləcə də hökumətin açıq mövqeyi situasiyanı yeni mərhələyə gətirib çıxarıb. Baş nazir Nikol Paşinyan məsələni şəxsi münasibətlər müstəvisindən çıxararaq kilsə idarəçiliyində şəffaflıq, legitimlik və yenilənmə ehtiyacı kimi ümumxalq maraqlarına bağlayır. Paşinyanın “katolikos islahatlar üçün bütün imkanları tükəndirdib” deməsi də onun uzun müddətdir Eçmiədzinlə dialoq qurmağa çalışdığını göstərir.

Bir qrup yepiskopun katolikosun istefasını tələb etməsi isə böhranın kilsə daxilində necə dərin köklərə malik olduğunu üzə çıxardı. Onların açıqlaması yalnız idarəçilikdə özbaşınalıq deyil, həm də 1999-cu il seçkilərinin legitimliyinə dair ağır ittihamları əhatə edir. Bu isə formal olaraq illərdir müzakirə olunmayan, amma kilsə daxilində daim narazılıq yaradan məsələlərin kəskin şəkildə üzə çıxması deməkdir. Müşahidəçilərə görə, iyerarxların bu cəsarətli addımı Paşinyanın kilsə islahatları ilə bağlı çağırışlarının cəmiyyətdə və ruhani camedə rezonans yaratdığını da nümayiş etdirir.

Bununla belə, II Qaregin mövqeyindən geri çəkilməyəcəyini açıq şəkildə bəyan edib və bu bəyanatın Qareginin yaxın çevrəsi tərəfindən sərt tonda səsləndirilməsi bazardakı qarşıdurmanı daha da gücləndirir.

**Politoloq İlyas Hüseynov XQ-yə açıqlamasında bildirdi ki,** hakimiyyət–kilsə böhranının daha geniş geosiyasi ölçüləri müşahidə edilir. Onun sözlərinə görə, kilsənin Rusiya yeparxiyasının katolikosu müdafiə etməsi və Ermənistan hakimiyyətini kilsə əleyhinə kampaniya aparmaqda günahlandırması Moskva kilsə dairələrinin bu məsələdən siyasi alət kimi istifadə etməyə çalışdığını göstərir: “Bu da təsadüfi deyil: çünki həmin yeparxiyaya rəhbərlik edən arxiyepiskop Yezras Nersisyanın SSRİ DTK ilə əməkdaşlığına dair Paşinyanın bir müddət öncə səsləndirdiyi faktlar Rusiyanın Eçmiədzin üzərində nə qədər təsir imkanlarına malik olduğunu ortaya qoyur. Katolikosun islahata qarşı sərt müqavimətinin arxasında həm də bu xarici təsirlər dayanır”.

Ekspert hesab edir ki, həbsdə olan arxiyepiskopların baş verənləri “kilsədə nifaq yaratmaq cəhdi” kimi qələmə verməsi isə, əslində, kilsə daxilində uzun illərdir mövcud olan fraksiyaların bir-birinə qarşı açıq mübarizəyə keçdiyini göstərir: “Mənim qənaətim bundan ibarətdir ki, Ermənistanda kilsə–hakimiyyət qarşıdurması yalnız şəxsi xarakterli münaqişə deyil. Bu, ölkənin si-



yasi modernləşmə kursu ilə kilsənin feodal tipli idarəçilik ənənələri arasındakı toqquşmanın nəticəsidir. Paşinyanın islahat xətti Ermənistanı daha açıq, daha demokratik institutlar üzərində qurulan modelə aparır. Eçmiədzin isə illərdir toxunulmaz hesab etdiyi səlahiyyətlərin məhdudlaşdırılmasını qəbul etməyə hazır deyil. Hazırkı situasiya göstərir ki, yaxın aylarda Ermənistanı həm hüquqi islahatlar, həm də kilsə idarəçiliyində struktur dəyişiklikləri gözləyir. Əgər Eçmiədzin bu prosesə konstruktiv qoşulmasa, böhran daha da dərinləşə bilər”.

**P.S.** *Günün sonunda yayılan məlumata görə, katolikos II Qaregin kilsə ətrafındakı vəziyyəti müzakirə etmək üçün yepiskopların iclasını çağırıb. Bu barədə Ermənistan mediası Eçmiədzinə istinadən məlumat yayıb. Bildirilir ki, II Qareginin qərarına əsasən, iclas 10–12 dekabr tarixlərində keçiriləcək. İclas zamanı kilsə ətrafındakı mövcud vəziyyət və daxili kilsə qaydaları ilə bağlı məsələlər nəzərdən keçiriləcək.*

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycana qarşı daxildən cəbhə açmaq mümkün deyil

## *Çünki ölkəmizdə Xalq–Hakimiyyət birliyi sarsılmazdır*

**Son günlər ölkəmizin ictimai-siyasi gündəminə daxil olan mühüm məsələlərdən biri AXCP sədri Əli Kərimli və partiyanın bəzi funksionerləri barəsində həyata keçirilən istintaq tədbirləridir. Məlumatlara əsasən, Dövlət Təhlükəsizliyi Xidməti onların mənzilində axtarış aparmış, bu tədbirlər Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin cinayət işi çərçivəsində reallaşdırılmışdır.**



Xatırladaq ki, Ramiz Mehdiyev Cinayət Məcəlləsinin 278.1, 274 və 193-1.3.2-ci maddələri üzrə ittiham olunur və Səbail Rayon Məhkəməsinin qərarı ilə 4 aylıq ev dustaqlığına məhkum edilib.

Hüquqi baxımdan prosesin məntiqi göstərir ki, əgər istintaq materialları Əli Kərimli ilə bağlı da əsaslı şübhələr formalaşdırırsa, bu halda həmin şəxsin cinayət təqibindən kənarda qalması mümkün deyil. Araşdırmanın nəticələri, ilkin sübutların məhkəməyə təqdim edilməsi və müvafiq qərarların çıxarılması isə prosesin hüquqi məcrada davam edəcəyinin göstəricidir. Yəni məsələyə fərqli don geydirilməsi yolverilməzdir.

Bəli, olayların sırf milli təhlükəsizliyimiz baxımından qiymətləndirilməsi vacibdir. Çünki tarix var və onun 1920-ci il kimi acı reallığı da həmçinin. O reallıq ki, müstəqilliyimizin itirilməsini doğurmuşdu. Deməli, təhdidlərə qarşı cəmiyyətimiz mütəşəkkil olmalıdır. Çünki ölkəmiz inkişaf etdikcə, xarici düşmənlərimizin sayı da artır. Onların daxildəki resurslarını işə salaraq təhlükə yaratmaq ehtimalları da öz yerində.

Belə cəhdləri 2013-cü ildə də görmüşük. Əlbəttə, həmin vaxt bəzi qrupların “beşinci kolon”un canişinləri funksiyasını yerinə yetirdikləri də yaddaşımızdan silinməyib. Adlarını “Milli Şura”, “Ziyalılar forumu” qoymuşdular. Zamanla bu pafoslu təqdimatların Kremlin layihələri olduğu təsdiqini tapdı. Hələ Şimala demokratiyanın beşiyi deyənlər də var idi.

Əlbəttə, bu yerdə Ramiz Mehdiyevin Rusiyaya göndərdiyi və dövlət hakimiyyətinin dəyişdirilməsini nəzərdə tutan məktubunun üzərində də dayanmağa ehtiyac var. Nəzərə alaq ki, məktubda “Dövlət Şurası” ideyasından söz açılır. O ideyadan ki, siyasi sistemin zorla dəyişdirilməsini rəhbər tuturdu. Axı ötən əsrin iyirminci ilində də eyni proses yaşanmışdı. Sapı özümüzdən olan baltalar “Qızıl ordu”nun xalqa xoşbəxtlik gətirdiyini car çəkirdilər. Gördük o xoşbəxtliyi!

Bu gün azadlığımızı boğan zəncirlərdən xilas olmuşuq. Bunu Prezident İlham Əliyevin müzəffər komandanlığı ilə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qalibiyyətlə, müqəddəs Zəfərlə gerçəkləşdirmişik. Tarixdə ilk dəfədir ki, haqqımız olanı geri qaytarmışıq. Görünür, bu əzmimizi gözü götürməyənlər bədnam əməllərini işə salıblar. Elə zənn edirlər ki, bu yolla Cənubi Qafqaz coğrafiyasında mövcudluqlarını davam etdirəcəklər. Təəssüf ki, belə qüvvələrin daxilimizdəki “istinadgahları” da olub. Ancaq hazırda həmin istinadgahlar da “dağıdılır”. Deməli, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına aparan əzmimiz özünə yeni müqavimət çalarları qazanır.

Sonda onu da bildirək ki, bugünün Azərbaycanı nə 1920-ci ilin çaşqın, gücsüz cümhuriyyətidir, nə də 1990-cı illərin qarışıq dövrünün məkanı. Bu torpağın sahibi olan xalq ayıqdır, dövlətin dayaqları möhkəmdir, düşmənlərin oyunu vaxtında aşkarlanır. Daxili təhdidlərin ifşa olunması, xarici mərkəzlərə bağlı strukturların sıradan çıxarılması ölkəmizin suverenliyini daha da möhkəmləndirir. Dövlətçiliyimizə yönəlmiş hər bir addım qarşısında dövlətin və xalqın iradəsi divar kimi dayanır.

Tam qətiyyətlə deyə bilərik ki, bu gün atılan hər addım Azərbaycanın gücünə güc qatır, milli birliyimizi daha da sarsılmaz edir. Bunu hər kəs bilsin! Nəinki bilsin, eyni zamanda, qulağında sırğa eləsin! Onu da bilsinlər ki, Azərbaycanda mövcud olan Xalq–Hakimiyyət vəhdəti bütün təhdidlərə qarşı sipərdir!

***“Xalq qəzeti”nin analitik qrupu***

# QİÇS-lə Mübarizə Gününə həsr olunmuş konfrans



**Dekabrın 1-də Səhiyyə Nazirliyinin dəstəyi ilə Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən 1 Dekabr Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr olunmuş konfrans keçirilib.**

Səhiyyə nazirinin müavini Nadir Zeynalovun sözlərinə görə, hazırda dünyada 38-39 milyon insan İİV-lə yaşayır. Dünyada elə bir ölkə yoxdur ki, orada İİV virusu olmasın. Nazir müavini bildirib ki, xəstəliyin aşkarlandığı 40 il ərzində onun diaqnostikası, müalicəsi və profilaktikasında böyük nailiyyətlər əldə olunub.

“Ölkədə İİV/QİÇS-lə bağlı cari vəziyyət və qarşıda duran hədəflər" barədə təqdimatla çıxış edən **Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktoru Famil Məmmədov** bildirib ki, İİV/QİÇS-ə qarşı aparılan mübarizə tədbirlərinə baxmayaraq, onun dünyada, xüsusən də Şərqi Avropa və Mərkəzi Asiya regionunda yayılması davam etməkdədir.

Qeyd edilib ki, Azərbaycanda ilk dəfə İİV infeksiyasının aşkar edildiyi 1987-ci ildən 2025-ci ilin noyabr ayının sonuna kimi Respublika QİÇS-lə Mübarizə Mərkəzində 11 min 413 Azərbaycan vətəndaşı rəsmi qeydiyyatdadır. Onlardan 71,6 faizini kişilər, 28,4 faizini qadınlar təşkil edir. Ümumilikdə, həmin dövr ərzində İİV infeksiyasından dünyasını dəyişənlərin sayı isə 1540 nəfər olub. Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən qeydiyyata götürülən ölkə vətəndaşlarından 28,2 faizində İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində, 60,3 faizində heteroseksual, 6,3 faizində homoseksual kontakt nəticəsində olub, 1,3 faizində anadan uşağa keçib, 3,9 faizində isə yoluxma yolu müəyyən edilməyib”.

TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva, Milli Məclisin Səhiyyə komitəsinin üzvləri, deputatlar - Soltan Məmmədov, Müşfiq Məmmədli və Pərvanə Vəliyeva səhiyyə sahəsinə ayrılan büdcə, QİÇS-lə bağlı qanunvericilik, xəstəliklə mübarizədə aparılan düzgün strategiyadan bəhs edib, beynəlxalq təcrübə və tövsiyələrə əsaslanan tədbirlərin, görülən işlərin öz müsbət nəticəsini verdiyini diqqətə çatdırıblar. Bildirilib ki, region ölkələrinə bir nümunə olan Azərbaycanda QİÇS-lə bağlı epidemioloji vəziyyət başqa ölkələrdən fərqli olaraq daha yaxşıdır.

Konfrans mövzular ətrafında müzakirələrlə davam edib.

***XQ***

# KOBİA startapların inkişafını təşviq edir

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaxın dövrdə yeni startap təşəbbüslərinin dəstəklənməsi istiqamətində bir sıra proqramların tətbiqini nəzərdə tutur.**

KOBİA tərəfindən "Startap şəhadətnaməsi" mexanizminin əhatə dairəsinin genişləndirilməsi, müraciət prosesinin tam elektronlaşdırılması nəzərdə tutulur. Həmçinin 20 min manat məbləğində qrant proqramının davam etdirilməsi və yeni yaranan startapların ilkin mərhələdə inkişafına yönəlik dəstək mexanizmlərinin gücləndirilməsi planlaşdırılır.

Gənc sahibkarlar üçün innovasiya inkubatorları və akselerasiya proqramlarının işə salınması, mentorluq və təlim imkanlarının artırılması da prioritet istiqamətlərdəndir. Agentlik, həmçinin beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsini planlaşdırır. Bununla yanaşı, Türkiyə, Qətər, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrin aidiyyəti qurumları ilə artıq mövcud olan əməkdaşlıq çərçivəsində innovasiya və startap ekosisteminin inkişafına yönəlik birgə təşəbbüslərin, akselerasiya proqramlarının və təcrübə mübadiləsi imkanlarının daha da genişləndirilməsi planlaşdırılır.

Beləliklə, KOBİA-nın planlaşdırdığı yeni proqramlar startapların ilkin mərhələdə inkişafını sürətləndirəcək, gənc sahibkarların innovativ ideyalarını reallaşdırmaq üçün daha geniş imkanlar yaradacaq və yerli startap ekosisteminin beynəlxalq təcrübə və əməkdaşlıqla zənginləşdirilməsinə xidmət edəcək.

"Startap şəhadətnaməsi" Azərbaycanda innovasiya ekosisteminin inkişafına dəstək məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən startap fəaliyyəti ilə məşğul olan mikro və kiçik sahibkarlara verilən rəsmi sənəddir. Bu sənəd sahibkarın innovativ biznes layihəsinin dövlət tərəfindən tanındığını təsdiqləyir və onun üçün bir sıra maliyyə və inzibati üstünlüklər yaradır.

Şəhadətnamənin əsas üstünlüklərindən biri startapların müəyyən müddət ərzində mənfəət vergisindən azad edilməsidir ki, bu da yeni yaradılan bizneslərin maliyyə yükünü əhəmiyyətli dərəcədə azaldır. Sənəd həm dövlət, həm də özəl qrant proqramlarında iştirak üçün əlavə üstünlük verir, investorlar qarşısında layihənin etibarlılığını artırır və akselerasiya, inkubasiya proqramlarına qəbul ehtimalını yüksəldir.




"Startap şəhadətnaməsi" əsasən innovativ, kommersiya potensialı yüksək olan və mikro və ya kiçik sahibkar statusuna malik layihələrə təqdim olunur.

Sənədin alınması üçün sahibkar öz layihəsini KOBİA-ya təqdim edir, ideyanın yenilikçiliyi və biznes potensialı üzrə mütəxəssis qiymətləndirməsindən keçir və müsbət qərar olduqda şəhadətnamə təqdim edilir. Hazırda müraciət prosesi qismən elektron şəkildə həyata keçirilsə də, yaxın dövrdə prosedurun tam elektronlaşdırılması planlaşdırılır. Bu mexanizm gənc startaplara biznesə addım atmağı asanlaşdırır, onların inkişafını sürətləndirir və ölkədə innovasiyayönümlü iqtisadiyyatın formalaşmasına mühüm töhfə verir.

Qeyd edək ki, KOBİA tərəfindən 200-dən çox mikro və kiçik sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi təqdim olunub. Ortalama olaraq daxil olan müraciətlərin hər üçünün birinə Ekspertlər Şurası tərəfindən müsbət rəy verilib. 2021–2025-ci illər üzrə KOBİA-nın dəstək verdiyi startapların strukturunda əsas üstünlük İT/rəqəmsal həllər, fintek və elektron ticarət istiqamətlərinə məxsusdur.

Kənd təsərrüfatı, yəni agrotech sektoru isə bu bölgüdə sabit şəkildə öz yerini qoruyub saxlayır.

Pandemiyadan sonra dövr ərzində e-ticarət və logistika həllərinin, son iki ildə isə süni intellektə əsaslanan B2B və yaşıl biznesyönümlü xidmətlərin payında artım müşahidə olunub. Ümumi mənzərəyə nəzər saldıqda görünür ki, daha çox rəqəmsallaşma, məlumat/AI əsaslı və ixracyönlü B2B həllər dəstək qazanır, agrotech isə hələ də strateji prioritet olaraq qalır.

*Musa BAĞIRLI*
*XQ*

### *Ekspert rəyi*



**Fərid KAZIMOV,**
**Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumunun icraçı direktoru**

– Son illərdə Azərbaycanda startap mövzusuna maraq xeyli artıb. Xüsusilə gənc sahibkarlar arasında bu sahəyə ciddi meyil formalaşıb. Hər il bir neçə yüz startap ideyası ya tam şəkildə məhsula çevrilərək bazara çıxır, ya da ideya mərhələsində komandalar formalaşdırılır və işlərə başlanılır. Azərbaycanda hər il yüzlərlə yeni startap yaranır. Onların bir hissəsi artıq şirkətləşərək kommersiya strukturuna çevrilir və bazara çıxır, yaxud bazara çıxmaq üçün təşəbbüs göstərir. Elə startapların sayı kifayət qədərdir və rəqəmlər artmaqda davam edir. Bu, ölkə üçün olduqca vacib statistik göstəricidir. Burada maraqlı məqamlardan biri də odur ki, Azərbaycanda startapçıların yaş tərkibi dəyişir. Əgər 10 il əvvəl startapla məşğul olanların əsasən tələbələr olduğunu görürdüksə, hazırda startap quran şəxslərin əhəmiyyətli bir hissəsinin 30 yaşdan yuxarı olduğunu müşahidə edirik. Yəni bu sahədə müəyyən yaş qrupu üzrə artım tendensiyası müşahidə olunur.

İkinci fakt ondan ibarətdir ki, artıq Azərbaycanda startap ekosisteminin yaradılması istiqamətində ciddi işlər görülür. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi və digər aidiyyəti qurumların apardığı fəaliyyət nəticəsində ölkəmizdə real və funksional startap ekosistemi formalaşmaqdadır. Artıq Azərbaycanda formalaşan startaplar əvvəlki kimi yalnız ideyadan ilhamlanan, lakin peşəkar olmayan şəxslərdən ibarət deyil, daha hazırlıqlı, bilikli və strateji düşünən komandalardır. Bu komandalar məhsulun strategiyasını müəyyən edir, bazarı analiz edir, araşdırmalar aparır və daha peşəkar şəkildə fəaliyyət göstərirlər.

Eyni zamanda, startaplara təqdim olunan proqramların sayı da artır. Azərbaycanda kifayət qədər inkubatorlar yaradılıb və onların sayı artmaq üzrədir. Hətta bu gün bəzi universitetlər də əvvəllər olmayan inkubasiya proqramları yaratmaq niyyətində olduqlarını bildirirlər və bu istiqamətdə addımlar atılır. Bildiyiniz kimi, bir çox ölkədə inkubatorlar daha çox universitetlərdə fəaliyyət göstərir və Azərbaycanda da bu model formalaşmağa başlayır.

Bundan əlavə, ölkədə akselerasiya proqramları da yaranıb və artıq bir neçə akselerator real dəstək göstərir. Məsələn, "SABAH.lab"ı misal göstərmək olar. Bu kimi akselerasiya proqramları startap komandalarına həm texniki, həm də strateji baxımdan real kömək edir. Komandalar müxtəlif sahələr üzrə mentorluq, ekspertiza və fərdi məsləhətlər ala bilirlər ki, bu da ekosistemin inkişafı üçün çox vacibdir.

Üçüncü məsələ startapların maliyyələşməsi ilə bağlıdır. Azərbaycanda hələ də müəyyən çətinliklər mövcuddur və bunlar qismən obyektiv səbəblərlə əlaqədardır. Startapların riskli olması səbəbindən vençur maliyyələşməsi, dünyada olduğu kimi, bizdə də çətinlik yaradır. Lakin bu istiqamətdə də işlər başlayıb. Artıq Azərbaycanda dövlət-özəl tərəfdaşlığı ilə vençur fondu yaradılıb, həmçinin ilkin mərhələ investisiyası həyata keçirən "mələk investorlar"ın (angel investors) şəbəkəsi formalaşır.

Startapların şəhadətnamə (startap sertifikatı) alması istiqamətində fəaliyyət göstərən mexanizmlər mövcuddur. Əlbəttə, onlar qrant almaq üçün də müraciət edə bilərlər. Bu proses barədə dəqiq məlumatları Ekosistem Agentliyinin (və ya aidiyyəti qurumun) resurslarından əldə etmək mümkündür. Lakin mövcud qrant proqramı mütləq genişləndirilməlidir. Çünki Azərbaycanda təşəbbüskarların sayı kifayət qədər çoxdur, amma proqramın maliyyə həcmi məhduddur.

Bu proqramın büdcəsi bir neçə dəfə artırılsa, daha çox komanda, daha çox təşəbbüskar və startap dəstək ala bilər. Bu baxımdan proqramın genişləndirilməsi son dərəcə faydalı olardı. Azərbaycan bu modeli öyrənməli və tətbiq etməlidir. Həm startap qrant proqramının həcmi artırılmalı, həm də proqramlar şaxələnməlidir. Qrantların yalnız KOBİA tərəfindən deyil, aidiyyəti dövlət qurumları tərəfindən də verilməsi daha effektiv olardı.

Məsələn, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ekoloji sahədə çalışan startapları dəstəkləyə bilər, kənd təsərrüfatı üzrə fəaliyyət göstərən startaplara Kənd Təsərrüfatı Nazirliyi qrant ayıra bilər və s. Bu halda həmin nazirliklərin sahə üzrə ekspertizası prosesə daxil olur. Çünki onlar real problemləri, ehtiyacları və bazar boşluqlarını daha yaxşı bilirlər. Startapları dəstəkləyərkən doğru istiqamətləri seçə və daha effektiv nəticələr əldə edə bilərlər. Bu yanaşma həm sinerji yaradar, həm də ölkə üzrə innovasiya ekosisteminin real və davamlı şəkildə güclənməsinə səbəb olar.

Bu məsələ – startapların xüsusi güzəştlərdən yararlanması artıq müzakirə olunur və gündəmdədir. Bu, çox yaxşı bir addım ola bilər. Startap şəhadətnaməsi alan hər bir startap və ya şirkət fəaliyyət dövründə illik dövriyyəsi 200 min manatdan aşağı olduqda belə, Yüksək Texnologiya Parkına müraciət edərək həmin parkın rezidenti olmaq hüququ qazansa, bu, ekosistemdə ciddi sürətlənmə yaradardı. Qeyd edim ki, hazırda ƏDV-nin tətbiqi üçün minimal dövriyyə həddi 200 min manatdır, yanvarın 1-dən isə bunun 400 min manata qaldırılması gözlənilir. Yəni dövriyyəsi bu həddi keçməyən startaplar ƏDV ödəyicisi olmurlar.

Amma belə startapların Yüksək Texnologiya Parkına qəbul edilməsi mümkün olarsa, onlar park rezidentlərinə təqdim olunan vergi və digər güzəştlərdən yararlana bilərlər. Bu mexanizmin genişləndirilməsi startap ekosisteminin inkişafına çox böyük təkan verə bilər və startapların sayı daha da arta bilər. Bu istiqamətdə artım müşahidə olunur.

Mənim ehtimalıma görə, yaxın 2-3 il ərzində Azərbaycanda ildə formalaşan startapların – istər yeni yaradılan, istərsə də müxtəlif inkişaf mərhələlərində fəaliyyətini davam etdirənlərin sayı 1000-i keçəcək. Bu proqnozu real edən əsas məqam ondan ibarətdir ki, ölkəmizdə bu sahədə çox dinamik proses gedir.

**Noyabrın 30-da Qiymətləndiricilər Palatasının hesabat xarakterli geniş toplantısı keçirildi. Media nümayəndələri, dövlət qurumlarının təmsilçiləri, qiymətləndirmə şirkətlərinin üzvləri və digər tərəfdaşların iştirak etdiyi məclisdə görülən işlər və qarşıdakı prioritetlər barədə məlumat verildi.**

# Qiymətləndiricilər Palatasında elektron portal yaradılıb

## *Bu onlayn baza rəqəmsal qiymətləndirmə mərhələsinə keçidi sürətləndirəcək*

Yığıncaqda palatanın yeni elektron qiymətləndirmə portalının təqdimatı oldu. Qeyd edildi ki, istifadəyə verilən bu portal bütün Azərbaycan üzrə tətbiq ediləcək və qiymətləndirmə proseslərini tam rəqəmsallaşdırmaq məqsədi daşıyır. Artıq vətəndaşlardan tutmuş dövlət qurumlarına, kommersiya banklarına, böyük holdinqlərə və sahibkarlara qədər hər bir sahədə qiymətləndirmə əməliyyatları elektron qaydada əlverişli olacaq.

AZƏRBAYCAN QİYMƏTLƏNDİRİCİLƏR PALATASI

Məclisdə bildirildi ki, portalın Elektron Məhkəmə sistemi ilə inteqrasiyası artıq son mərhələyə daxil olub. Bu yenilik sayəsində hakimlər qiymətləndirmə sifarişlərini birbaşa portal vasitəsilə göndərə biləcək, beləliklə, prosesdə əlavə vaxt itkisi və kağız daşıyıcılarından asılılıq aradan qalxacaq.

Tədbirdə həmçinin palatanın Prezident İlham Əliyevə ünvanladığı müraciət məktubu oxundu. Məktubda son bir ildə görülmüş işlər, rəqəmsallaşma sahəsində atılan addımlar, yeni portalın ölkə üzrə tətbiqinin əhəmiyyəti və qiymətləndirmə sektorunun inkişafına dair təkliflər yer alırdı. Qeyd edildi ki, yeni platforma qiymətləndirmə sahəsində açıq, şəffaf və müasir idarəetmə modelinin qurulmasına böyük töhfə verəcək.

Qeyd edək ki, Qiymətləndiricilər Palatası tərəfindən media nümayəndələrinə palatanın fəaliyyətininin işıqlandırılmasında fəallıq göstərdikləri üçün sertifikat təqdim olundu.

Tədbir yekun nitqləri ilə başa çatdı və Qiymətləndiricilər Palatası bundan sonra da qiymətləndirmə sahəsində rəqəmsallaşma, şəffaflıq və peşəkarlıq istiqamətində islahatların davam etdiriləcəyini bəyan etdi.

*XQ*

# Bank-sığorta xidmətlərində əlçatanlıq yüksəlir

**Azərbaycanda son illər bank və sığorta sektorlarının yaxınlaşması diqqətçəkən tendensiyalardan birinə çevrilib. Maliyyə xidmətlərinin inteqrasiyası, xüsusilə də "Bancassurance" modelinin tətbiqi, ölkədə sığorta inklüzivliyinin genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.**

Azərbaycan Mərkəzi Bankının bu sahədə ardıcıl atdığı addımlar həm bazarın institusional inkişafına, həm də əhalinin maliyyə savadlılığının artmasına xidmət edir. Sığorta inklüzivliyinin ölkə üçün dəyəri çoxşaxəlidir. İlk növbədə, sığorta mexanizmləri risklərin idarə olunmasını asanlaşdırır və həm fərdlərin, həm də biznes subyektlərinin maliyyə dayanıqlılığını gücləndirir. Kredit götürən vətəndaşlar, əmlak alanlar və investisiya fəaliyyəti ilə məşğul olanlar sığortalanma vasitəsilə potensial itkilərdən qorunmuş olur. Bu isə bütövlükdə iqtisadi sistemin sabitliyinə müsbət təsir göstərir.

Digər tərəfdən, "Bancassurance" modeli bank xidmətləri ilə sığorta məhsullarının vahid platformada təqdim olunmasını mümkün edir. Bu yanaşma vətəndaşların maliyyə alətlərinə çıxış imkanlarını genişləndirir, planlaşdırma vərdişlərini möhkəmləndirir və maliyyə məsuliyyətini artırır. Bankların geniş müştəri şəbəkəsi sığorta bazarının daha sürətli böyüməsinə şərait yaradır və sektorun investisiya cəlbediciliyini artırır.

Sığorta bazarının genişlənməsi həmçinin kapital bazarlarında aktivliyin artmasına, risk idarəçiliyi mədəniyyətinin möhkəmlənməsinə və daha sağlam maliyyə ekosisteminin formalaşmasına imkan verir. Bu proses həm bankların, həm də sığorta şirkətlərinin dayanıqlılığını artırır və maliyyə sektorunda uzunmüddətli sabitliyə zəmin yaradır.

Hazırda Azərbaycanda banklarla sığorta şirkətləri arasında əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi istiqamətində müzakirələr daha da intensivləşib. Sektor nümayəndələri hesab edir ki, "Bancassurance" modeli yaxın illərdə ölkə üzrə geniş tətbiq olunsa, həm maliyyə inklüzivliyinə, həm də iqtisadi təhlükəsizliyə ciddi töhfə verəcək.



**Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayev** XQ-yə açıqlamasında qeyd etdi ki, bu gün lokal və qlobal sığorta bazarlarında sığorta məhsulları istehlakçılara müxtəlif satış kanalları vasitəsilə təklif olunur:

– Bu kanallardan biri də bank kanalıdır. Banklar sığorta sənayesi məhsulları üçün həm əlverişli satış kanalı hesab olunur, həm də "Bancassurance" (bank sığortaçılığı) mexanizmi çərçivəsində ortaq məhsulların formalaşdırılması ilə istehlakçıların sığortaya əlçatanlığını artırmaqda münbit zəmin yaradır. "Bancassurance" yerli maliyyə sektorumuz üçün yeni bir anlayış deyil. Artıq bir neçə ildir ki, bu istiqamət üzrə iş aparılır və sığorta məhsullarının bank kanalları vasitəsilə satışı uğurla həyata keçirilirdi.

**Müsahibimiz onu da bildirdi ki, Mərkəzi Bank tərəfindən həyat sığortalarına yeni tənzimləyici qaydalar gətirildi:**

– Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 16 may 2024-cü il tarixli qərarı ilə "Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası Qaydaları"na əlavə və düzəlişlər təsdiq edildi. Bu məqsədyönlü islahat bank-sığorta əməkdaşlığında yeni və daha uğurlu mərhələnin başlanğıcı oldu. Nəticədə, bank və sığorta sektorlarının təmsilçilərindən ibarət Təşkilat Komitəsi formalaşdırıldı və "Kredit həyat sığortası" məhsulu daha optimal və vətəndaşyönümlü əsaslarla yenidən formalaşdırıldı.

Bununla bağlı qeyd edə bilərik ki, müvafiq islahat tədbiri nəticəsində hazırda istənilən vətəndaş istehlak krediti üçün banka müraciət edərkən daha optimal şərtlərlə və daha geniş təminat əhatəsi ilə ailə büdcəsi risklərini vaxt itirmədən sığortalaya bilir. Bank-sığorta məhsullarının sinerjisi təkcə həyat yox, qeyri-həyat sığorta məhsulları üzrə də həyata keçirilir.

Biz bu istiqamətdə ipoteka kreditlərinin sığortasını, daşınmaz əmlak sığortasını, səfər sığortasını misal göstərə bilərik. İstər Azərbaycan Respublikası Mərkəzi Bankının "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası" çərçivəsində həyata keçirdiyi islahat tədbirləri, istərsə də bank-sığorta sektorlararası əməkdaşlığının cari real aktivliyi bank sığortaçılığı istiqamətinin qarşıdakı dövr ərzində daha da inkişaf edəcəyini deməyə əsas verir və əminlik yaradır.

Yekun olaraq, bank və sığorta sektorlarının inteqrasiyası Azərbaycanda maliyyə xidmətlərinin təşkilində tamamilə yeni bir yanaşma formalaşdırır. "Bancassurance" modeli həm vətəndaşların risklərdən qorunması, həm də maliyyə savadlılığının artması baxımından əhəmiyyətli rol oynaya bilər. Bu sistemin geniş tətbiqi, xüsusilə də bankların güclü infrastrukturundan istifadə etməklə sığorta məhsullarının daha geniş auditoriyaya çatdırılması, iqtisadi dayanıqlılığın möhkəmlənməsinə xidmət edəcək.

*Nurlan ABDALOV*
*XQ*

*Qlobal təbii fəlakət*

**Xəzər dənizi tarix boyu gah çəkilib, gah dolub. Son yüzillikdə bu dəyişkənlik daha aydın görünür. Dəniz səviyyəsinin qalxıb-enməsi təbii proses sayılsa da, xüsusilə XX əsrin ortaları və XXI əsrin əvvəllərində müşahidə olunan sürətli enmə həm miqyası, həm də yaratdığı nəticələrə görə ciddi narahatlıq doğurur. Məlumatlara görə, 1930–1940-cı illərdə Xəzərin səviyyəsi təxminən 2 metr aşağı düşmüş, növbəti otuz ildə əlavə 1 metr enmə qeydə alınmışdır.**



# Xəzər geriyə, problemlər isə sahilə hücum çəkir

## *Region ölkələri ciddi sınaqlarla üzləşib*

1977-ci ildən 1980-ci ilədək proses daha da sürətlənmiş və əlavə yarım metrlik azalma baş vermişdir. Bu enmə, hətta 5 əsr əvvəlki rekord dayazlaşmadan da ağır vəziyyət yaratmışdı. Hazırda oxşar tendensiya davam edir; qısamüddətli yüksəlişdən sonra 1995-ci ildən bu günə qədər suyun səviyyəsi yenidən 2,5 metr enib və proses hələ də davam edir.

Elmi baxımdan bu dəyişiklik dramatik görünməyə bilər, çünki geoloji tarixdə Xəzərin daha böyük səviyyə dəyişiklikləri yaşadığı məlumdur. Lakin praktiki nəticələr tam başqa mənzərə ortaya qoyur. Cəmi 40 il ərzində Xəzərin 48 min kvadratkilometr sahəsi qurumuşdur ki, bu da təxminən Danimarkanın ölçüsünə bərabərdir. Bu qədər geniş ərazinin suyun altından çıxması təkcə coğrafi xəritəni dəyişmir, həm də limanların fəaliyyətini, balıqçılığı



və sahilboyu təsərrüfat həyatını iflic vəziyyətinə salır.

Məsələn, indiki Qazaxstanın Atırau şəhəri olan Quryev limanı dənizdən 35 kilometr aralı düşmüşdü. Eyni vəziyyət indi də müşayiət olunur. Xəzər dənizində suyun səviyyəsinin yenidən enməsi nəticəsində şimalda sahildən 30 kilometrədək çəkilib. Azərbaycan ərazisində çəkilmələr ən çox Neftçala və Abşeron yarımadası ərazilərində nəzərə çarpır.

**Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına Coğrafiya İnstitutunun Xəzər dənizinin sahillərinin və dibinin geomorfologiyası şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Əmir Əliyev** bildirib ki, hazırkı dövrə qədər Azərbaycanın təxminən 38 min hektar ərazisi su altından çıxıb. Onun da 9 min hektara yaxını Neftçala rayonu ərazisindədir. Alim qeyd edib ki, Xəzərin səviyyəsi 1978–1995-ci illər arasında 2,5 metr qalxdığı dövrdə ərazilərin 50 min hektarı su altında qalıb. Ovaxtkı hesablamalara görə, suyun səviyyəsinin artması nəticəsində təxminən 2 milyard dollar dəyərində ziyan dəymişdi. İndi isə həmin ərazilər Xəzərin geri çəkilməsi ilə yenidən üzə çıxıb.

Diqqətçəkən məqamlardan biri də dəyişikliklərin, əsasən, Xəzərin şimal hissəsində kəskin olmasıdır. Cənub hövzəsində oxşar dinamika o qədər də hiss olunmur. Bunun səbəbi şimal hövzəsinin çox dayaz olmasıdır; orta dərinliyi 5 metrdən də az olan bu hissədə suyun bir neçə santimetrlik enməsi sahil xəttinin yüz metrlərlə geri çəkilməsinə səbəb olur. Beləliklə, şimal ekosistemi iqlim dəyişikliklərinə və su səviyyəsi dalğalanmalarına qarşı daha həssasdır.

Elmi tədqiqatlar Xəzərdəki səviyyə dəyişikliklərinin iki əsas səbəbini göstərir. Ən maraqlı izah tektonik hərəkətlər hipotezidir. Bununla bağlı Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun şöbə müdiri Mirnuh İsmayılov Xəzər dənizində çəkilmələrin səbəbini tektonik proseslərlə əlaqələndirir: "Xəzər dənizi aktiv tektonik bölgədə yerləşir. Çünki Qafqaz dağları cavan dağ hesab edildiyindən burada dağ əmələgəlmə prosesi başa çatmayıb. Yəni dağəmələgəlmə prosesi davam etdiyindən də Xəzərin suyunun çəkilmə prosesini müşahidə edirik. Tektonik proseslər isə uzun müddətlidir".

Bu yanaşmaya görə, Xəzər sabit dibə malik "vanna" deyil, yer qabığının hərəkətlərindən asılı olaraq daralan və genişlənən çökəkdir. Altlığın bir istiqamətdə sıxılması suyun digər tərəfə çəkilməsinə, genişlənməsi isə səviyyənin enmiş kimi görünməsinə səbəb olur. Yəni dəniz səviyyəsindəki dəyişikliklər təkcə iqlim və çay axını ilə yox, həm də yer qabığının tektonik hərəkətləri ilə müəyyən edilir.

Beləliklə, Xəzərin "yellənçək" kimi dəyişən səviyyəsi yalnız təbii hadisə deyil, həm də region dövlətlərinin uzunmüddətli planlaşdırmasını tələb edən mühüm geosiyasi və iqtisadi amildir.

### Enmənin qarşısını almaq mümkündürmü?

Xəzər dənizinin hidroloji vəziyyəti hələ SSRİ dövründə də rəhbərliyi ciddi narahat edirdi. Enmə təkcə iqtisadi sahələrə deyil, həm də regionun ekoloji tarazlığına təsir göstərirdi. Problemin miqyası o qədər böyük idi ki, sovet mühəndisləri Xəzər dənizinin taleyini kökündən dəyişə biləcək cəsarətli layihələr üzərində düşünməyə başladılar. Elmi hipotezlər, tektonik proseslər və uzunmüddətli iqlim dövrləri barədə mülahizələr gündəlik idarəetmə üçün o qədər də əhəmiyyət daşımırdı. Sovet təsərrüfat sisteminin mahiyyəti dərhal nəticə vermək idi və dəniz səviyyəsinin öz-özünə bərpa olunmasını gözləmək "siyasi baxımdan yolverilməz" sayılırdı. Buna görə də Moskva rəhbərliyi problemi inzibati və mühəndis vasitələrlə həll etməyə çalışdı.

Ən yaxın və "məntiqli" çıxış yolu Xəzərə axan çayların su ehtiyatını artırmaq idi. Volqa o dövrdə indiki kimi hidroqovşaqlar şəbəkəsi ilə tənzimlənmirdi. Çay tam sərbəst axır, Xəzərə bol su gətirirdi. Bu, sovet planlaşdırıcılarının gözündə böyük üstünlük idi. Deməli, axını gücləndirmək üçün texniki manevrlər az idi. Mühəndislər və hidrotexniklər arxivləri araşdıraraq çar dövrü mütəxəssisi Yakov Demçenkonun Aral–Xəzər düzənliyinin suvarılması haqqında layihəsini gündəmə gətirdilər.

Demçenko Ob və İrtış çaylarının sularını Tobol vadisi və əlavə kanallar vasitəsilə Aral gölünə yönləndirməyi təklif edirdi. Layihəyə görə, Aral dolduqdan sonra su qədim Amudərya (vaxtilə Xəzərə axıb) məcrası ilə Xəzərə axa bilərdi. Bu, nəzəri olaraq həm Aralı bərpa etməyə, həm də Xəzərin səviyyəsini artırmağa imkan verirdi. Lakin planın reallaşdırılması həm coğrafi, həm maliyyə, həm də siyasi baxımdan son dərəcə çətin görünürdü.

Sovet alimləri və təsərrüfat rəhbərləri başqa variant axtararkən diqqəti şimal çaylarına yönəltdilər. Nəticədə Peçora çayının sularının kanallar və şlüzlər vasitəsilə Volqaya istiqamətləndirilməsi ideyası üstünlük qazandı. Bu yanaşmanın seçilməsi təsadüfi deyildi. Stalinin sənayeləşdirmə proqramı çərçivəsində Volqa–Don, Moskva kanalı kimi iri gəmiçilik və suvarma layihələri həyata keçirilmiş, ölkədə böyük hidromühəndislik sistemləri üçün texniki baza artıq formalaşmışdı. Peçoranın istiqamətinin dəyişdirilməsi həmin infrastruktur ənənəsinə uyğun sayılırdı və siyasi rəhbərliyə "tez görülə bilən real tədbir" kimi təqdim olunurdu. Bu layihə də uğursuz oldu.





Beləliklə, Xəzərin dayazlaşması ətrafında formalaşan siyasət sovet dövlətinin ümumi idarəetmə fəlsəfəsini açıq şəkildə əks etdirirdi: təbiət proseslərini gözləmək yox, onları inzibati mexanizmlərlə dəyişdirməyə çalışmaq. Bu ambisiyalı yanaşma sonrakı onilliklərdə həm mühəndislik, həm iqtisadi, həm də ekoloji cəhətdən geniş mübahisələrə səbəb olacaq addımların əsasını qoydu. Onlardan biri "yumşaq", digəri isə "sərt" model adlandırılırdı.

Xüsusi maraq doğuran ilk layihə mühəndis Boris Apollov tərəfindən hazırlanmışdı. O, Xəzəri Bakı ilə Krasnovodsk (indiki Türkmənbaşı) arasında 450 kilometrlik torpaq bəndi ilə ayırmağı təklif edirdi. Bu bənd su səviyyəsindən ən azı iki metr yüksək olmalı idi. Apollov bənddə yaranacaq hündürlük fərqindən istifadə edərək hidroelektrik stansiyalar qurmağı planlaşdırırdı. Bənd həmçinin Qafqazı Orta Asiya ilə birləşdirən yeni nəqliyyat yolu kimi də xidmət edə bilərdi. Layihənin "yumşaq" adlandırılmasının səbəbi isə dənizin tam təcrid edilməməsi idi: balıqlar üçün keçidlər, gəmilər üçün şlüzlər nəzərdə tutulurdu. Bu, Xəzərin ekoloji dinamikasını tam pozmadan onun su səviyyəsinin idarə olunmasına imkan verən bir variant kimi qiymətləndirilirdi.

Eyni dövrdə Selitski və Bellavininin daha radikal layihəsi formalaşdı. Onların təklifi Apollovun planından daha şimal xəttini əhatə edirdi: Tüleni adasından (Dağıstan) Mənqişlaq yarımadasına (Qazaxstan) qədər uzanan bənd Xəzəri, demək olar ki, tam şəkildə ayırmalı idi. Bu bənd qapalı olacaq, yalnız bir ehtiyat suburaxma keçidi saxlanılacaqdı. Əgər layihə həyata keçirilsəydi, Xəzərin şimal hissəsində böyük ölçülü, şirin sulu bir su anbarı yaranacaqdı.

Volqa, Ural və digər şimal çaylarının axını bu yeni akvatoriyanı dolduracaq, beləliklə də Şimali Xəzərin dayazlaşması və quruma təhlükəsi birdəfəlik aradan qalxacaqdı. Bu ideya o dövrün sovet hidroloqlarına cəlbedici görünürdü, çünki SSRİ üçün nəhəng şirin su ehtiyatı yaratmaq strateji əhəmiyyət daşıyırdı. Bununla belə, bu layihə Xəzərin təbii ekosistemini kökündən dəyişəcək, şimaldakı duzlu su biosistemi tamamilə yoxa çıxacaq, əvəzində süni şəkildə formalaşmış şirin su ekosistemi yaranacaqdı.

Hər iki layihə mühəndislik baxımından son dərəcə iddialı idi, lakin onların ümumi cəhəti ondan ibarət idi ki, hamısı Xəzər dənizinin tarixi inkişafını və coğrafiyasını dəyişdirəcək qədər genişmiqyaslı təsirə malik idi. Bu layihələr yalnız infrastruktur deyil, həm də suyun kimyəvi tərkibi, sahil xətlərinin forması, balıqçılıq, limanlar və hətta regionun iqlim sisteminə təsir göstərəcək dəyişiklikləri nəzərdə tuturdu. Xəzər kimi qapalı bir su hövzəsinə belə müdaxilənin nəticələri həm maraqlı, həm də təhlükəli görünürdü.

1951-ci ildə SSRİ Dövlət Plan Komitəsi (Qosplan) bütün layihələri ciddi şəkildə araşdırdı və onları iqtisadi baxımdan həddən artıq ağır hesab edərək rədd etdi. Daha dəqiq desək, hər iki bənd layihəsi tamamilə dayandırıldı, çünki onların tikintisi yüz minlərlə işçi, misilsiz həcmdə material və uzun illər tələb edirdi. Üstəlik, ekoloji risklər və su balansının qeyri-müəyyən nəticələri planlaşdırılan faydadan daha böyük təhlükə yaradırdı.

Bununla belə, "Qosplan" problemin kökündən həllinə yönəlmiş başqa bir ideyaya, şimal çaylarının axınının yönləndirilməsi layihəsinə yaşıl işıq yandırdı və onun detallı işlənməsini tapşırdı. Bu qərar daha çox resurs tələb etməyən, lakin Xəzərin su səviyyəsini artırmağa kömək edə biləcək daha real variant kimi qiymətləndirilmişdi.

Beləcə, Xəzəri iki hissəyə bölmək kimi cəsarətli və bəlkə də tarixi dəyişə biləcək layihələr kağız üzərində qaldı. Bu layihələr həyata keçirilsəydi, Xəzər dənizi bu gün tamamilə fərqli görünə bilərdi: bir tərəfdə duzlu cənub dənizi, digər tərəfdə isə nəhəng şirin su gölü. Bu ideyalar gerçəkləşməsə də, onlar XX əsr sovet mühəndisliyinin ambisiyasını, elmi cəsarətini və eyni zamanda o dövrün iqtisadi məhdudiyyətlərini aydın şəkildə əks etdirir.

Ümumiyyətlə, bu layihələr konkret nəticələr vermədi. Xəzər dənizi isə sürətlə dayazlaşmağa davam edirdi. Limanlar və sahil təsərrüfatları üçün vəziyyət kritikləşirdi. Bu gərgin fonun içində daha sadə, daha tez həyata keçirilə bilən bir həll tapıldı. Xəzərin şərqində, hazırkı Türkmənistan ərazisində, böyük və dayaz Qaraboğaz-Qol körfəzinin qurudulması. Quraq iqlim, yüksək temperatur və dayaz su səviyyəsi səbəbindən Qaraboğaz–Qol Xəzərin əsas buxarlanma məkanı idi.

Bu vəziyyətə görə həll variantı olduqca sadə görünürdü. Boğazı tam bəndlə bağlamaq və Xəzərdən Qaraboğaz–Qola suyun axmasının qarşısını almaq. Bu qərar həm iqtisadi, həm texniki baxımdan əlçatan idi və sovet rəhbərliyi onu dərhal təsdiqlədi. 1980-ci ildə bənd tikildi və körfəzin Xəzərlə əlaqəsini tamamilə kəsildi. Bənd bağlanandan təxminən dörd il sonra, yəni 1980–1984-cü illərdə Xəzərin səviyyəsi qalxmağa başladı. Sonrası da məlumdur.

Son nəticədə bu layihə də uğursuz oldu. Bu hadisə göstərdi ki, Xəzərin tarazlığı həssasdır və bir bölgədə atılan addım bütün hövzəyə təsir göstərə bilər. Qaraboğaz–Qolun taleyi yalnız yerli hidrologiya üçün deyil, bütün Xəzər regionu üçün ekoloji siyasətin əhəmiyyətli dərsidir. Problem həll olunmamış qaldı. Bu gün də həllini gözləyir.

### Limanlar və balıqçılıq zərbə altında

Hazırda Xəzər dənizinin səviyyəsinin sürətlə aşağı düşməsi artıq yalnız texniki problem deyil, bütün region ölkələri üçün strateji iqtisadi təhlükədir. Son 30 ildə dənizin səviyyəsi 2,5 metr azalıb və bu enmə ildə 20–30 santimetr templə davam edir. Nəticədə, Xəzər hövzəsindəki bütün logistika sistemi yenidən qurulmağa məcbur olur. Limanların dərinliyi dəyişir, gəmilərin manevr imkanları azalır, yüklərin daşınması məhdudlaşır və nəqliyyat xərcləri artır. Bu proses illərdir qurulan tranzit ambisiyalarını ciddi risk altına qoyur.

Azərbaycan limanları da istisna deyil. Xüsusilə, Dübəndi neft terminalında vəziyyətin iqtisadi tərəfi aydın görünür. Burada illik daşımalar 880 min tondan 810 min tona enib. Ən iri tanker əməliyyatlarının həyata keçirildiyi bu terminalın normal fəaliyyəti yalnız daimi dərinləşdirmə işləri ilə mümkündür. 2024–2025-ci illərdə 250 min kubmetr dəniz dibinin təmizlənməsi və yeni dərinləşdirmə gəmisinin istifadəyə verilməsi göstərir ki, proses müvəqqəti tədbir deyil, uzunmüddətli strateji yanaşma tələb edir. Lakin bu işlər yalnız problemlərin nəticələrini yumşaldır, kökündən həll etmir.

Regionun digər kritik limanı Qazaxıstanın Aktau limanıdır. Bu liman ölkənin dünya bazarlarına çıxışı üçün dəniz qapısıdır və Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas halqasıdır. Lakin suyun səviyyəsi o qədər aşağı düşüb ki, 6 min 500 tonluq gəmilər yalnız 5 min 500 ton, 12 min tonluq gəmilər isə 9–10 min ton yük daşıya bilir. Tankerlər tam yükləndikdə dibə oturur və hərəkət riski artır. Dərinləşdirmə işləri vaxtında aparılmazsa, limanın rentabelli fəaliyyəti ciddi risk altına düşəcək. Bu, yalnız Qazaxstan üçün deyil, bütün Orta Dəhliz üçün təhlükə yaradır, çünki Aktau limanının yükləmə məhdudiyyətləri artıq regional ticarət axınlarına təsir göstərir. Tankerlərin tam yüklənə bilməməsi həm Azərbaycan, həm Qazaxstan üçün neft daşımalarını məhdudlaşdırır, ixrac gəlirlərinə, müqavilələrin icra müddətlərinə və bəzi marşrutlarda gecikmələrə birbaşa təsir edir. Hazırkı vəziyyət göstərir ki, Xəzər limanlarının işi yaxın illərdə həm texniki, həm maliyyə, həm də strateji baxımdan daha mürəkkəb olacaq.

Bu vəziyyət təkcə ekosistemin tarazlığını pozmur, limanların fəaliyyətində çətinliklər, sahilboyu yaşayış məntəqələrində sosial-iqtisadi problemlər yaratmaqla yanaşı, həm də balıq ehtiyatlarının kəskin azalmasına səbəb olur. Çünki balıqların yaşayış mühiti pozulur. Səviyyə yüksələndə və ya azalanda sahil zonaları dəyişir, balıqların yumurtlama yerləri məhdudlaşır. Suyun tərkibi, duzluluğu və temperaturu dəyişdiyi üçün bəzi balıq növləri uyğun mühit tapa bilmir, plankton azalır. Qida zənciri pozulduğundan əsas ticarət balıqlarının miqdarı düşür.

Xəzərin əsas sərvətlərindən biri olan nərə, eləcə də qızıl balıq və kütüm kimi növlər indi tükənmə təhlükəsi ilə üz-üzədir.

Bu proses yalnız Xəzərdə deyil, Kür, Araz çayları, Mingəçevir və Ceyranbatan kimi daxili su hövzələrində də müşahidə olunur. Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası İctimai Birliyi İdarə Heyətinin sədri Zaur Salmanlı bildirib ki, son illərdə Salyan rayonuna qədər dəniz suyunun Kür çayına daxil olması müşahidə olunur ki, bu da balıq ehtiyatlarına mənfi təsir göstərir.

Salmanlı eyni zamanda qeyd edib ki, problemin əsas səbəbi yalnız iqlim dəyişikliyi deyil, həm də insan faktoru ilə bağlıdır. Qanunsuz balıq ovlamaları və Xəzərin bəzi hissələrində neft qalıqlarının mövcudluğu vəziyyəti daha da ağırlaşdırır.

Azərbaycanın daxili su hövzələrində də balıq ehtiyatlarının hər il azaldığını diqqətə çatdıran Zaur Salmanlı, balıq ehtiyatının artırılması üçün müvafiq tədbirlərin görülməsinin vacibliyini bildirib. Lakin o qeyd edib ki, bu sahədə müəyyən gecikmələr müşahidə olunur. Əvvəllər Balıqçılıq Elmi-Tədqiqat İnstitutu su hövzələrində və dənizdə balıqların sayı, kvotalar və qiymətləndirmələrə nəzarət edirdi, hazırda isə bu istiqamətdə vahid strategiya yoxdur.

Müşahidələr göstərir ki, bütün balıq növlərində azalma müşahidə olunur. Xüsusilə nərə və qızıl balıq kimi qiymətli növlər ciddi risk altındadır. Hazırda isə özəl sektorla Kənd Təsərrüfatı Nazirliyi arasında balıqçılıq sahəsində birgə işlər aparılır. O, ümidini bildirib ki, qarşıdakı 3-4 il ərzində bu əməkdaşlıq nəticəsində balıq ehtiyatlarının bərpası istiqamətində müsbət nəticələr əldə olunacaq.

### Ağac məzarlığı

Son illərdə Xəzər dənizində müşahidə olunan suyun geri çəkilməsi Lənkəran rayonunda da əhəmiyyətli dəyişikliklərə səbəb olub. Səviyyənin azalması nəticəsində sahil zonalarında yeni quru sahələr yaranıb və əvvəlcə qayalıq kimi görünən çıxıntıların əslində qədim ağac kökləri olduğu üzə çıxıb. Lənkəran sahillərindəki endemik ağac növlərinin kök sistemləri və iri gövdə qalıqları bir vaxtlar burada geniş palıd meşələrinin mövcud olduğunu göstərir.

Aparılan müşahidələr həmin ağacların 200–300 illik tarixə malik olduğunu ortaya qoyur. Bu qədim meşə zolaqları təkcə eroziyanın qarşısını almaqda deyil, həm də ərazinin ekoloji tarazlığının qorunmasında mühüm rol oynayıb. Belə təbii örtük Lənkəranın ekologiyasının və coğrafi mühitinin formalaşmasına əhəmiyyətli təsir göstərib.

Mütəxəssislər vurğulayırlar ki, bu qədim ağac qalıqlarının qorunması həm bölgənin tarixi təbiət irsinin öyrənilməsi, həm də gələcək nəsillər üçün ekoloji davamlılığın təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu, bölgənin bioloji müxtəlifliyinin qorunmasının və sahilboyu ekosistemlərin bərpasının nə qədər vacib olduğunu göstərir.

Region ölkələri həm də Xəzərin ekoloji balansını qorumağa diqqət yetirməlidir. Suyun çəkilməsi yalnız iqtisadi problemlər yaratmır, ekosistemin dəyişməsinə və uzunmüddətli fəsadlara da yol açır. Qarşıda duran çağırış həm iqtisadi, həm geosiyasi, həm də ekoloji aspektləri birləşdirən kompleks məsələdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Gözəgörünməz cibgirlər

## “Kiberdələduz” adlanan bu quldurlar bank kartlarına necə yol tapırlar?

**Azərbaycanda kiberdələduzluqla bağlı son aylar daha da artan şikayətlərdə insanlar bildirirlər ki, çox vaxt dələduzlar, sadəcə, onların ad-soyadlarını soruşur, az sonra isə kartlarından pul çıxarıldığı məlum olur. Reallıqda isə bu yolla vəsaitin oğurlanması heç bir düşüncəyə sığmır.**

**Kibertəhlükəsizlik üzrə mütəxəssis Elnur Atayev** ölkədə geniş miqyas alan kiberdələduzluqla bağlı mediaya açıqlamasında bildirib: “Dələduz ad-soyadı soruşmaqla, sadəcə, ünsiyyət qurur, etibar yaradır və qurbanla arasındakı psixoloji maneəni keçir. Ardından söhbəti başqa istiqamətə yönəldərək “pul göndərmə”, “bonus aktivləşdirmə”, “mükafat qazanma”, “vergi qaytarılması”, “kuryer ödənişi” kimi bəhanələrlə kart məlumatlarını və ya bank tətbiqinə daxil olan SMS təsdiqləmə kodunu əldə etməyə çalışır. Yəni pulun çıxarılması qurbanın iştirakı ilə baş verir”.

Mütəxəssisin sözlərinə görə, artıq uzun müddət davam edən prosesin qarşısının tam şəkildə alınmaması isə bir neçə obyektiv səbəbdən qaynaqlanır. Bu fəaliyyətin əksər hissəsi ölkə xaricindən idarə edilir, istifadə olunan nömrələr isə virtualdır, IP-lər gizlədilir və hər əməliyyatdan sonra yeni hesablar açılır. Beləliklə, bu hadisələr təkcə vətəndaşın məsuliyyətsizliyindən irəli gələn proses kimi qiymətləndirilməməlidir. Başqa sözlə, bu hal kütləvi xarakter aldığından artıq mövcud problem sistemli yanaşma tələb edir.

Kibertəhlükəsizlik üzrə mütəxəssis qeyd edir ki, belə bir şəraitdə tərəfdaş banklar informasiya təhlükəsizliyi sistemini sərtləşdirməli, mobil operatorlar saxta nömrələri daha tez bir vaxtda bloklamalı və sosial şəbəkələrdə şübhəli hesablar sürətlə ləğv edilməli, bu istiqamətdə dövlət və özəl sektorun birgə fəaliyyəti gücləndirilməlidir. Bununla yanaşı, geniş kütlə üçün sadə və başadüşülən kibertəhlükəsizlik təlimləri keçirilməli, xüsusilə yaşlı və rəqəmsal savadlılığı zəif olan qruplar bu təlimlərə cəlb edilməlidir.

Bu qısa şərhdən kibertəhlükəsizlik üzrə mütəxəssisin fikirlərinin çox sadə və dəqiq olduğu görünür: ad-soyadın soruşulması pul oğurluğu üçün vasitə deyil, həm də psixoloji səddi aşmaq, qurbanın etibarını qazanmaq məqsədi daşıyır. Əsl proses – kart məlumatlarının, xüsusilə SMS təsdiqləmə kodlarının alınması qurbanın iştirakı ilə baş verir. Eyni zamanda, bu məsələ artıq təkcə vətəndaşın diqqətsizliyi deyil, eləcə də milli və iqtisadi təhlükəsizlik məsələsi kimi qiymətləndirilməlidir.

Ekspert Aydın Vəliyev söhbət zamanı ölkəmizdə belə bir prosesin geniş miqyas almasını bir neçə paralel istiqamətlə əlaqələndirərək bildirdi ki, bu, ilk növbədə, rəqəmsal xidmətlərin genişlənməsi fonunda əhalinin böyük bir qisminin hələ də kibertəhlükəsizlik üzrə geniş məlumatlara sahib olmaması, dələduzların texniki imkanlarının və ssenarilərinin getdikcə mürəkkəbləşməsi, xüsusilə sosial mühəndislik texnikalarının artması ilə bağlıdır. İkincisi, xidmət təminatçıları tərəfindən antifraud (onlayn ödənişlər və distant bank xidmətləri zamanı dələduzluq hallarının aşkar edilməsi) sistemlərinin yetərincə sərt olmaması və nəhayət, fırıldaqçı qrupların ölkə xaricindən idarə edilməsinin hüquqi və texniki çətinlik yaratması ilə bağlıdır.

Müsahibimiz açıqlamasında son illər respublikamızda elektron xidmətlərin, onlayn bankçılığın və rəqəmsal ödəniş sistemlərinin sürətlə genişlənməsinin vətəndaşların gündəlik həyatını xeyli asanlaşdırdığını diqqətə çatdırdı. Eyni zamanda, prosesin bu qədər genişlənməsinin kiberdələduzluq hallarının artmasına da zəmin yaratdığını bildirdi: “Sosial mühəndislik metodlarından istifadə edən hər hansı bir dələduz vətəndaşların zəif psixoloji nöqtələrini taparaq onların öz iştirakı ilə bank hesablarından vəsait çıxamağa nail olur. Son aylar şikayətlərin sayının çoxalması da məsələnin artıq ictimai təhlükəsizlik səviyyəsinə yüksəldiyini göstərir”.

**Kibertəhlükəsizlik üzrə digər mütəxəssis Elnur Şahbazov** isə söhbətində dələduzların fəaliyyət sxeminin getdikcə daha peşəkar beynəlxalq şəbəkələr tərəfindən koordinasiya edildiyini, bu səbəbdən də



problemin texnoloji baxımdan mürəkkəb, hüquqi cəhətdən isə çoxölçülü olduğunu dedi. O, eyni zamanda, hazırda Azərbaycanda bu istiqamətdə gerçəkləşdirilən layihələrin müəyyən müsbət nəticələr verdiyini, lakin mövcud riskləri önləmək üçün sistemli və institusional yanaşmaya ciddi ehtiyac duyulduğunu xatırlatdı.

Ekspertin sözlərinə görə, Azərbaycan vətəndaşlarının üzləşdiyi dələduzluq metodları getdikcə formasını dəyişir. Məsələn, son aylarda hər hansı bir kiberdələduz vətəndaşla sadə, zərərsiz görünən suallarla, məsələn, ad-soyad soruşmaqla ünsiyyət qurmağa cəhd göstərir. Əslində, bu, mahiyyət etibarilə şəxsiyyət haqqında məlumat toplamaq anlamına gəlmir. Burada əsas məqsəd qurbanla emosional yaxınlıq yaratmaq, onun diqqətini yayındırmaq, təhlükə hissini sıfırlamaq, təhlükəli sualların gələcəkdə “normal” görünməsini təmin etməkdir.

Bu psixoloji yanaşma, eyni zamanda, sosial mühəndisliyin klassik prinsipidir. Bu prinsipə əsaslanan dələduz söhbəti fərqli istiqamətə yönəldərək “pul göndərmək”, “bonus aktivləşdirmək”, “vergi qaytarılması”, “kuryer çatdırılması”, “uğurlu alış-veriş” kimi bəhanələrlə kart məlumatlarını və daha təhlükəlisi – SMS təsdiqləmə kodlarını əldə etməyə çalışır. Bu kodların verilməsi nəticəsində isə vəsaitin çıxarılması texniki olaraq qurbanın öz iştirakı ilə baş verir və buna görə banklar əksər hallarda məsuliyyət daşımır.

### Fırıldaqçılıq necə davam edir?

Mütəxəssislər bildirirlər ki, kiberdələduzluğun artmasının əsas səbəblərindən biri hücumların əksəriyyətinin ölkə xaricindən idarə olunmasıdır. Belə ki, hər hansı bir dələduz qrupu xarici serverlərdən yararlanır, IP-lərini gizlədir, virtual nömrələr əldə edir və hər əməliyyatdan sonra yeni hesablar açır. Bu, hüquq-mühafizə orqanlarının texniki imkanlarını çətinləşdirir və araşdırma müddətini uzadır.

Mobil operatorlar və sosial şəbəkələrdə nəzarətin yetərincə çevik olmaması da problemin həllini çətinləşdirir. Məsələn, saxta nömrələrin operativ bloklanmaması dələduzluq hallarını sürətləndirir. Sosial şəbəkələrdə saxta profillərin gec ləğv edilməsi də problemin geniş yayılmasına münbit şərait yaradır.

Fırıldaqçılığın qarşısını almaq və ya aşkarlamaq üçün texnoloji vasitələr və proqram təminatı olan Anti-fraud (fırıldaqçılığın qarşısını almaq və ya aşkarlamaq üçün texnoloji vasitələr və proqram təminatları) sistemlərinin zəifliyi də problemin həllini çətinləşdirir. Belə ki, bir çox banklarda hələ də tranzaksiyaların (bir bank hesabından digərinə pul köçürmək) risk monitorinqinin nəzərdə tutulduğu qədər güclü olmaması, anomaliya aşkar edən sistemlərin ləng reaksiya verməsi, riskli əməliyyatları avtomatik bloklayan mexanizmlərin tam tətbiq edilməməsi bunun bariz ifadəsidir.

Fırıldaqçılığın qarşısının alınmasını əhalinin rəqəmsal savadlığının aşağı olması da çətinləşdirir. Xüsusilə yaşlı nəsil və regionlarda yaşayan vətəndaşların böyük bir qismi fırıldaq sxemlərini tanımır, şəxsi məlumatların qorunması qaydalarını bilmir, SMS kodun heç vaxt paylaşılmamalı olduğunu dərk etmir. Buna görə də vətəndaşların üzləşdiyi dələduzluq hallarına qarşı mübarizənin səmərəli aparılması üçün zəruri addımlar atılmalıdır. Azərbaycanda hazırda kiberdələduzluğa qarşı mübarizə artıq sadəcə maarifləndirmə səviyyəsindən çıxdığı üçün milli təhlükəsizlik baxımından sistemli layihələrin gerçəkləşdirilməsi qarşıda mühüm vəzifə kimi durur.

**Kibertəhlükəsizlik üzrə mütəxəssis Aqil Aslanov** bunun üçün, ilk növbədə, Milli Anti-Fraud Platformasının yaradılmasını prioritet hesab edir. O, bu platformanın banklar, mobil operatorlar, internet provayderlər və hüquq-mühafizə orqanlarının vahid monitorinq mərkəzi kimi fəaliyyət göstərməsinin zəruriliyini diqqətə çatdırır. Mütəxəssis, eyni zamanda, bu platformanın real vaxt rejimində şübhəli əməliyyatların təhlilinin aparılacağı, müxtəlif banklar arasında məlumat mübadiləsinin həyata keçiriləcəyi, dələduzluq riski yüksək olan nömrələrin və IP-lərin avtomatik bloklanması, eləcə də virtual nömrələrin ləğvinin dərhal reallaşdırılacağı təqdirdə müsbət nəticələr əldə ediləcəyini diqqətə çatdırır.

A.Aslanovun sözlərinə görə, banklarda risk monitorinqinin gücləndirilməsi də önəmli amillərdən biridir. Bank sistemində 3 səviyyəli nəzarət mexanizmi tətbiq edilməli, süni intellekt əsaslı anomaliya aşkarlama sistemi (qeyri-adi əməliyyatları avtomatik bloklama) yaradılmalı və təhlükəli əməliyyatların 24/7 müddətində canlı monitorinqi aparılmalıdır. Təbii ki, bütün bu sadalananlarla yanaşı, mobil operatorların məsuliyyəti də gücləndirilməlidir. Hər bir operator virtual nömrələrin qeydiyyatını sərtləşdirməli, şübhəli SMS axınlarını dərhal bloklamalı, vətəndaşlara fırıldaq xəbərdarlıqları göndərməlidir. Eyni zamanda, dövlət və özəl sektorun birgə gerçəkləşdirdiyi kibertəhlükəsizlik təlimlərdə iştirak edən məktəblilər, universitet tələbələri, yaşlılar, kiçik sahibkarlar və sosial şəbəkə istifadəçilərinə kiber dələduzlardan qorunmanın yolları sadə dildə, real nümunələr əsasında çatdırılmalıdır.

Kibertəhlükəsizlik üzrə mütəxəssis söhbətinin sonunda ölkəmizdə bu sahə ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi məsələsinə toxunaraq dövlətin müdaxilə imkanlarını genişləndirən hüquqi dəyişikliklərin zəruriliyini diqqətə çatdırdı. O, xarici serverlərdən həyata keçirilən dələduzluğun araşdırılmasını sürətləndirən prosedurları, fırıldaq fəaliyyətini gizlədən texnologiyalara qarşı xüsusi sanksiyaların tətbiqini də xüsusi vurğuladı.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*

**Akif NƏSİRLİ,**
**iqtisadçı-ekspert**



– Bu gün beynəlxalq səviyyədə kibercinayətkarlıq sürətlə artır və bu, özünü respublikamızda da qabarıq büruzə verir. Amma aparılan müşahidələr ölkəmizdəki bankların təhlükəsizlik sisteminin dünya bankları ilə müqayisədə nisbətən geri qaldığını göstərir. Onu da deyim ki, Azərbaycanda vətəndaşların iradəsindən kənar hər hansı bir kiber cinayətkarlıq hücumu nəzərə çarpmır. Yəni insanlardan məlumat əldə edilmədən onların kart və ya bank hesablarına müdaxilə hələlik müşahidə olunmur.

Belə bir hadisə əksər hallarda vətəndaşlardan məlumatlar alındıqdan sonra onların kart hesablarına daxil olub başqa bir karta pul köçürülməsi ilə diqqət çəkir. Bu prosesi həyata keçirmək üçün isə haker (kompüter sistemlərini dərindən bilən və onların müxtəlif yollarla isifadəsini reallaşdıran) olmağa ehtiyac yoxdur. Adi kart əməliyyatları barədə məlumatlı hər kəs bu prosesi asanlıqla gerçəkləşdirə bilir.

Bu əməliyyatların bank sistemi üzərindən izlənilməsi və köçürülən vəsaitin kimə aid olduğunun müəyyənləşdirilməsi bir neçə saniyə ərzində mümkündür. Milli Qəhrəman Hökümə Əliyevanın atasının bank kartından 80 min manatın oğurlanması və bu məbləğin tezliklə tapılması vurğulanan fikrin bariz ifadəsidir. Amma daha az məbləğdə pulu oğurlanan vətəndaşlar var ki, onların pullarının geri qaytarılmasında nə banklar, nə də digər orqanlar kibercinayətə qarşı kifayət qədər operativlik göstərmir. Bu məqamda belə bir sual yaranır: əgər Milli Qəhrəmanımıza məxsus böyük bir məbləği oğurlayan dələduzlar qısa bir müddətdə ifşa olunurlarsa, bəs sadə vətəndaşların kiçik məbləğlərinin geri qaytarılması niyə müşkülə dönür?

Fikrimcə, Azərbaycanda fəaliyyət göstərən bu cinayətkar qrup, bank kartlarından vəsait oğurlayan şəxslər nə hakerlərdir, nə də kiber cinayətkarlar. Sadəcə, onlar yaxşı danışmaq bacarığına malikdirlər. İnsanları asanlıqla aldadıb, onlardan bütün məlumatları alaraq oğurluq proseslərini sadə şəkildə həyata keçirirlər. Burada düşünmək olar ki, bəzi hallarda sanki banklar özləri də bu cinayətkarlara kömək edirlər.

Azərbaycanda kibercinayətkarlıq adlandırılan bu məsələlər, əslində, adi oğurluqdur. Məsələn, biri cibinizdən pul oğurlasa, onun kimliyini tapmaq çətin olar, çünki heç bir məlumat yoxdur. Ancaq bankdan pul çəkənlərin bank hesabı bəllidirsə, deməli, onların bütün məlumatları var və hüquq-mühafizə orqanı az bir müddətdə həmin göstəriciləri əldə edərək cinayətkarı yaxalaya bilər.

İnkişaf etmiş ölkələrdə artıq bu cür oğurluqlar baş vermir. Çünki belə oğurluq edən hər bir şəxs dərhal həbs edilir. Hətta GPS izləmə sistemi ilə onların hansı istiqamətdə olduqları da müəyyənləşdirilir. Digər tərəfdən, həmin ölkələrdə insanlar bu mövzularda ciddi şəkildə maarifləndirilir.

Burada bir məqama da toxunmaq yerinə düşər. Belə ki, böyük məbləğdə vəsaitlərin oğurluğunun baş verməməsi üçün hər bir şəxs hansı kartı harada istifadə etməli olduğunu bilməlidir. Banklarda kartlardan oğurluq hallarının qarşısını almaq üçün hazırda kartlar kateqoriyalar üzrə istifadə edilir. Məsələn, əməkhaqqı, səyahət, alış-veriş və s. kartlar işlədilir.

Bu kartların multifunksional olmasına baxmayaraq, onlardan növlərinə uyğun yararlanmaq daha yaxşı olar. Əməkhaqqı, yaxud pul yığılan kartlar alış-veriş üçün məsləhət bilinmir. Onlayn alış-verişdə maaş kartı işlədilirsə, burada da risk ehtimalı var. Əməkhaqqı kartı hər ay müəyyən məbləğdə vəsait qəbul edən kart hesabıdır. Bu hesab elektron kommersiya saytına yüklənilibsə, saytın etibarı yoxdursa, sabah o kart məlumatlarının digər ələ keçməsi, vəsaitin oğurlanması ehtimalı da yüksəkdir.

Bu problemlərin meydana gəlməsində, xüsusilə onlayn fırıldaqçılıq yolu ilə bank kartlarından vəsaitin oğurlanmasında vətəndaşların zəruri məlumatsızlığı da az rol oynamır. Ona görə də hər bir şəxs bu məsələdə son dərəcə diqqətli və ehtiyatlı olmalıdır. Adamlar ona sorğu göndərən resursu öyrənməli, domenin nə zaman yaradıldığına diqqət yetirməlidirlər.

# Satan da, alan da məmnundur

## *Paytaxtın “Mövsüm yarmarkası”ndan reportaj*

**Sonuncu dəfə yarmarkadan reportajı təxminən iki ay əvvəl hazırlamışdım. Elə bu ünvanda bal yarmarkası təşkil olunmuşdu. Budəfəki – noyabrın 28-dən etibarən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki “Aqrar Tədarük və Təchizat” ASC-nin təşkilatçılığı ilə paytaxtda həftəsonları “Mövsüm yarmarkası”nın ünvanı da eynidir – Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5.**

Yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlərin məhsullarının bazara çıxışını dəstəkləmək, onları alternativ satış nöqtələri ilə təmin etmək, eyni zamanda şəhər sakinlərinin təbii, yerli və sağlam kənd məhsullarına əlçatanlığını artırmaqdır.

Yarmarkada 30-a yaxın regiondan 55-ə yaxın fermer 120-ə qədər çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirirlər. Burada satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edir. Belə ki, məhsulların keyfiyyəti ilə bağlı hər hansı sualı yaranan vətəndaşlar yarmarkada fəaliyyət göstərən Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsuldan analiz verməsi də mümkündür. Qeyd edək ki, “Mövsüm yarmarkası”nda fermerlər piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla ödənişsiz şəkildə təmin olunublar.

Təşkil olunmuş kənd təsərrüfatı yarmarkasına əslində reportajdan daha çox, bazar qeydləri, yaxud bazar təəssüratları da demək olar.

Səhər saatlarıdır. Yarmarkadayıq. Alıcılar hər yandan yarmarkaya doğru irəliləyir. Yarmarkada hər kəs öz işindədir. Ən çox alıcılarla satıcıların dialoqu diqqəti cəlb edir. Alacaqları məhsulun qiymətini aşağı salmağa çalışırlar. Satıcılar isə həmişə eşitdiyimiz ənənəvi üsullarını işə salıblar – “ əgər bazarda bundan ucuz mal tapsan, gətir, özüm alacam. Üstəlik də sənə nə qədər desən, pay da verəcəm”.

Bu arada ətrafa göz gəzdirirəm. Yarmarkada ilk baxışdan canlanma, bolluq və qızğın alış-veriş gözə çarpır, piştaxtalarda çeşidlərin müxtəlifliyi də hiss olunur. Alıcılara tərəvəzlərdən kartof, soğan, pomidor, xiyar, kələm, yerkökü, çuğundur, meyvələrdən naringi, alma, armud, heyva, nar, həmçinin ağartı və s. kənd nemətləri təklif edilir.

Bundan əlavə, yarmarkada satıcı-alıcı münasibətlərində də fəallıq müşahidə olunur. Satıcılar bildirirlər ki, yarmarkaların təşkili sahibkarlar üçün satış imkanlarını artırır və onların məhsullarını daha geniş auditoriyaya çatdırılmasına şərait yaradır.

Alıcılar isə yarmarkada məhsulların təravətli, qiymətlərin isə münasib olduğunu vurğuladılar. Onların fikrincə, bu cür yarmarkalar keyfiyyətli məhsul əldə etməyə imkan yaradır.

Paytaxt sakinləri yarmarkadakı məhsulların təzə və keyfiyyətli, eyni zamanda, bazarlar və marketlərdən 25-30 faiz ucuz qiymətə olmasından razılıq edirlər.

**Balakənli fermer Sara Həsənova** üçüncü dəfədir ki, yarmarkada iştirak edir. Rayonla müqayisədə paytaxtda alıcılıq qabiliyyəti çox yüksəkdir söyləyən fermer söhbət zamanı qeyd edir ki, böyük təsərrüfat sahibidir. 2 hektar fındıq bağı, 83 pətək arı ailəsi var. Həmçinin alma, heyva bağları da ailənin dolanışıq yerləridir.






Yarmarkaya müxtəlif kənd təsərrüfatı malları – alma, əzgil, yemişan, qoz-fındıq, lobya, bal və digər məhsullar gətirib. Satışından və yaradılan şəraitdən çox razıdır.



**Arzu Xəlilov** isə Xaçmazın Nərəcan kəndində uzun illərdir ki, fermerliklə məşğuldur. Bugünkü yarmarkaya da barlı-bağatlı, bərəkətli torpağının məhsullarını çıxarıb. Ümumilikdə 2 tondan artıq satışa məhsul gətirib. Qiymətləri də digər satış yerlərindən olduqca aşağıdır. Evdə hazırladığı gül suyu və alma sirkəsinin isə daimi müştəriləri var. Beşinci dəfədir ki, yarmarkada iştirakı nəticəsində daimi müştəri qazanıb. Gəlməmişdən öncə müştərilərinin sifarişini də nəzərə alaraq onların istədiklərini yerinə yetirib.

**Ağdaşlı fermer Eldəniz Əhmədov** isə təkcə müştərilərinə düyü təklif edir. 500 kiloqram gətirdiyi düyüdən çox az miqdarda qaldığını və hər zaman yerli məhsula ehtiyac olduğunu bildirir. “İki növ-uzun və yumru düyü süfrələrin bəzəyidir” – deyən fermer müştərisi ilə yerindəcə razılaşıb 30 kiloqram düyünü təşkil olunacaq xeyir iş üçün məclisə satır.

**Alıcı, paytaxt sakini Qaroğlan Abdullayev** həyat yoldaşı ilə yarmarkaya gəlib:

“Həddindən artıq razıyıq. Qiymətlər ucuzdur, gəlməyə dəyər. Yenə nə zaman təşkil olunarsa, gələcəm. Bu cür yarmarkaların təşkilinə görə dövlətimizə təşəkkür edirik. Belə əlverişli və rahat satış bazarı yaradıblar. Vətəndaşlar üçün çox böyük köməkdir. Çünki burada təbii məhsullar gətirib satırlar. Yarmarka ildə bir neçə dəfə təşkil olunur. Bazarda, yaxud da evimizin ətrafında iri marketlərdə satılan ərzaqlarla müqayisədə qiymətlər aşağıdır”.

Onu da qeyd edək ki, digər satış obyektləri ilə müqayisədə alıcılara məhsulu daha ucuz və sərfəli qiymətə təklif edən yarmarkaların təşkili həm fermerlərin, həm də alıcıların ürəyincə idi. Necə deyərlər, satan da, alan da məmnundur. Elə biz də qiymətləri nəzərə alıb alış-verişimizi edib, satıcılara “bazar olsun” söyləyib yarmarkanı tərk edirik.

***Müşfiq MİRZƏ***
***Fotolar Rauf İBRAHİMOVUNDUR***
***XQ***

# “Dədə Qorqud” dünyasından böyük ədəbiyyata açılan qapı

## *Kamal Abdulla – 75*



**Bu günlərdə 75 illik yubileyi təntənə ilə qeyd edilən ədəbiyyatşünas, yazıçı, dramaturq, akademik, Xarici Dillər Universitetinin rektoru Kamal Abdullanın çoxşaxəli yaradıcılıq yolu həm ölkəmizdə, həm də ondan kənarda maraqla izlənir. Yubiley ilini bu zəngin fəaliyyətin yaradıcılıq hesabatı kimi də qiymətləndirmək olar.**

Kamal Abdullanın dünya türkologiyasına və müasir ədəbiyyata verdiyi sanballı töhfələrə ehtiram əlaməti olaraq Türkiyənin bir sıra nüfuzlu universitetlərində elmi məclislər keçirilib. İğdır Universitetində, Ankara Türk Kültürünü Araşdırma İnstitutunda və Marmara Universitetində onun yaradıcılığına həsr olunmuş simpoziumlar təşkil edilib.

Teatr mühitinin Kamal Abdulla dramaturgiyasına artan marağı da diqqət çəkir. Müəllifin pyesləri son aylarda müxtəlif səhnələrdə yeni yozumlarla tamaşaçılara təqdim olunub:

– Qazax Dövlət Dram Teatrında – *“Bir, iki, bizimki”*;
– Naxçıvan Dövlət Teatrında – *“Simurq quşu”*;
– Füzuli Teatrında – *“Ruh”*;
– Musiqili Dram Teatrında – *“Gülçöhrə və Əsgər”*.

Hazırda yazıçının əsərlərindən ibarət yeddicildliyin, ayrıca olaraq, məşhur “Gizli Dədə Qorqud” əsərinin təkmilləşdirilmiş nəşri də ədəbi cameənin maraqla gözlədiyi hadisələrdəndir.

Etimad Başkeçid, Saday Budaqlı, Nəriman Əbdülrəhmanlı, Mahir Qarayev və Yaşar Əliyevdən ibarət bir qrup yazıçı ilə söhbətində Kamal Abdulla bütün bu məsələlər, üstəgəl, dil haqqında, onu canlı bir orqanizm kimi qəbul edərək, ədəbiyyatın xaosu necə mənaya çevirdiyindən, yazıçının zamanla dialoqda qalmasının vacibliyindən danışır.



**Yaşar Əliyev:** – ***Kamal müəllim, söhbətimizə belə bir sualla başlamaq istərdik: bizdə də, dünyada da tanınmış ədiblər, bir qayda olaraq, bədii yaradıcılığın yalnız müəyyən bir mərhələsində ədəbi tənqidlə məşğul olmağa başlayıblar. Azərbaycan ədəbiyyatında, məsələn, Anar, Elçin və digərləri istisna təşkil etmir. Sizdə bu ardıcıllıq, sanki, pozulub, Azərbaycan ədəbi tənqidinin ən parlaq imzalarından biri olmusunuz, sonra bədii yaradıcılığa keçmisiniz…***

**Kamal Abdulla:** – Yox, elə olmayıb, mən bədii yaradıcılığa hələ orta məktəb illərindən başlamışam. O vaxtlar bir kitablıq şeirlərim vardı ki, onları indi sizin təsəvvürünüzə gətirə bilməyəcəyiniz adamlara oxuyurdum. Məsələn, Zərbəli Səmədov vardı, mənim sevimli ədəbiyyat müəllimim, Əməkdar elm xadimi, Sosialist Əməyi Qəhrəmanı... Dayım Məmmədhüseyn Təhmasib və onun həyat yoldaşı Bilqeyis xanım vardı, o da ədəbiyyat müəllimiydi. Nə deyim, rahat qoymurdum onları…

O vaxtlar, 60-cı illərdə qohumlar bir-birinə qonaq gedərdi. Biz qonaq gedəndə həmişə özümlə şeir dəftərimi də götürərdim. O vaxtdan şeirlər yazırdım. Sonra universitetin filologiya fakültəsinə qəbul olundum, yenə yazırdım, amma, belə deyək də, bunlar rəqabətədavamlı şeirlər deyildi. O vaxtlar ədəbiyyat fakültəsində Ramiz Rövşən, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli, Seyran Səxavət kimi imzalar vardı. Onların yanında, əlbəttə ki, mənim şeirlərim xeyli zəif təsir bağışlayırdı.

**Mahir Qarayev:** – ***Siz də düşünüb çəkildiniz geri, elə?***

– Elə deməzdim, yenə şeir yazırdım, sadəcə, indiki dillə desək, prioritetlərim dəyişdi. Müəllimim vardı – Musa Adilov. Allah ona rəhmət eləsin, çox gözəl alim, gözəl insan idi. O, məni Dədə Qorqud dünyasına yönəltdi və biz birlikdə “Dədə Qorqud”un söz lüğətini hazırlamağa başladıq. Yeri gəlmişkən, çox ağır, çətin bir iş idi. Evdə hara baxırdın, lüğət kartları görürdün. İki-üç boyun lüğətini hazırlayandan sonra gördüm ki, “Dədə Qorqud”un bəzi hissələrini əzbər bilirəm. Sözlük, bilirsiniz də, necə yazılır: cümləni bir dəfə yazıb, birinci sözün altından xətt çəkirsən, həmin cümləni təkrar yazıb, bu dəfə ikinci sözün altından xətt çəkirsən, beləcə, cümlədə nə qədər söz varsa, o qədər yazıb, növbəti sözü işarələyirsən. Ona görə, o dil, o ruh, o ab-hava istər-istəməz adamın canına hopur. Amma şeir yazmağa davam edirdim. Sonra çətinliklə də olsa – asanlıqla yox! – bir-iki hekayə yazdım, birini ərk elədiyim müəllimim Bəxtiyar Vahabzadəyə göstərdim. Dayım onun müəllimi olmuşdu, münasibətimiz Əli Sultanlıya görə qurulmuşdu. Bəxtiyar müəllim oxudu, sonra gəlib xoş sözlər dedi hekayə haqqında.

**Saday Budaqlı:** – ***Tələbə vaxtlarından söhbət gedir?***

– Üçüncü, ya da dördüncü kursda oxuyurdum. Bax belə, sonra yavaş-yavaş elm sahəsinə yönəldim.

**Mahir Qarayev:** – ***Bəs, o vaxtlar yazdığınız şeirləri, hekayələri çap etdirmirdiniz?***

– “Bakı” qəzetində ilk şeirim 1966-cı ildə çap olunub. Mirzə Cəlilə həsr etmişdim. Təsəvvür edin ki, 16 yaşındaydım, 8-ci sinifdə oxuyurdum. Zərbəli müəllimin sayəsində çap edilmişdi.

**Yaşar Əliyev:** – ***Sonrakı dövrdə “Kamal Mehdi” imzası ilə çap olunurdunuz. “Xəzər”in ilk nömrəsində şeirləriniz işıq üzü görmüşdü”. Bədii yaradıcılığa başlayanda, əsərlərinizin bu qədər rezonans doğuracağını təxmin edirdiniz?***

– Yox, qətiyyən! Heç bu barədə düşünmürdüm. Əslində, o daxili əhvali-ruhiyyəni məndə dostlarım, inandığım adamlar yaratdı. Məsələn, “Yarımçıq əlyazma” hələ çap olunmamış, roman haqqında ilk yazını elə Etimad Başkeçid yazdı.

**Etimad Başkeçid:** – ***Elədir, “Yarımçıq əlyazmalar və bütöv inanclar” adlı o məqalə “Səhifələr” qəzetində çap olunmuşdu.***

– Yazılarımı zövqünə inandığım adamlara verirdim ki, oxuyub fikirlərini bildirsinlər. Lap açığını desəm, bu mənim özümə inamsızlığımdan irəli gəlirdi. İnanmırdım ki, həqiqətən də, diqqətəlayiq bir əsər ortaya qoya bilmişəm. Ona görə də, dostların fikrini öyrənmək mənim üçün vacib idi. Roman ətrafında cərəyan edən müxtəlif hadisələr də məhz bu yazılardan sonra başladı.

**Nəriman Əbdülrəhmanlı**: – ***Rus poeziyasının gümüş dövründən silsilə tərcümələriniz sanki bir mərhələdən digərinə keçid xarakteri daşıyır…***

– Yox, qoy deyim, bu necə oldu: onda mən Slavyan Universitetində işləyirdim. Fikirləşdim ki, burada işləyirəmsə, slavyan aləminə aid bir işlə də məşğul olum. Birbaşa həmin o gümüş dövrün şairlərinə müraciət elədim. Onu da deyim ki, o şeirlərin heç biri təsadüfi seçilməmişdi – hamısı antik ədəbiyyatla bağlı nümunələr idi. Qumilyov, Kuzmin, Axmatova, Mandelştam və başqaları... Onlardan seçdiyim şeirlərin, demək olar, hamısı eyni mövzudadır.

**Nəriman Əbdülrəhmanlı**: – ***Sonrakı hekayələrinizdə də bu mövzu müstəqil xətt kimi keçir.***

– Elədir. Antik ədəbiyyata maraq məndə uşaqlıqdan vardı. 60-cı il idi, dayım Əli Sultanlının kitabı nəşr olunmuşdu: “Antik ədəbiyyat tarixi”. On-on bir yaşından o kitabı oxuyurdum. Yeri gəlmişkən, o kitab çap olunan vaxtlarda antik süjetlər dilimizə hələ çox az tərcümə olunmuşdu. Adda-budda, yox səviyyəsində idi. Ona görə də Əli Sultanlı məcbur olmuşdu ki, elmi təhlili həm də təsvirin üzərində qursun.

Məsələn, “İliada”nı, “Odisseya”nı, yaxud Edipin başına gələnləri başdan-ayağa təsvir edir, sonra təhlilini verirdi. Orada səhifə-səhifə təsvirlər yer alırdı, mifoloji süjetlərin təsviri. Hamısını maraqla oxuyurdum. Əlbəttə ki, təhlilləri buraxırdım, yaşım az idi, onlar mənə darıxdırıcı görünürdü, amma yerdə qalanları nağıl kimi oxuyurdum. Ona görə hələ şagird vaxtlarımdan onlar mənim beynimə, yaddaşıma hopmuşdular. “Kitabi – Dədə Qorqud” kimi.

**Etimad Başkeçid:** – ***Bəs, “Dədə Qorqud”a marağınız hansı mənəvi ehtiyacdan yarandı? Belə deyək, ədəbiyyat müstəvisində sizin üçün bu dastanı önəmli edən nədir?***

– Yəqin ki, ümumi mifologiyaya olan maraq. Bu da bizim mifologiyamızdır. On yaşından başlayan o maraq milli müstəvidə, “Dədə Qorqud”da yeni mənəvi dünyaların, qədim inancların və xalqın düşüncə tərzinin qapılarını üzümə açdı. İlk növbədə, süjetlər məni özünə çəkdi, sonra dissertasiya üzərində çalışanda dil nöqteyi-nəzərindən, Azərbaycan dili sintaksisinin inkişafı ilə bağlı çox maraqlı nüanslar, nümunələrlə qarşılaşdım orada. Bilirsiniz, bizdə bəzən elə adamları dil tarixçisi adlandırırlar ki, əslində, onların bu məsələyə heç bir aidiyyəti yoxdur.

Məsələn, kimsə Füzulinin və Nəsiminin dilindən yazır, amma bu, dil tarixçisi deyil axı. Dil tarixçisi dildə gedən prosesi tarixi nöqteyi-nəzərdən izləyən adamdır. Nəsimidən Füzuliyə qədər prosesi izləyən adamdır dil tarixçisi. “Dədə Qorqud” dastanlarında da bir cümlənin timsalında, ümumiyyətlə, hansısa təsvirin nümunəsində bir sürəklilik izləmək mümkündür. Məsələn, *“Rəsul əleyhissəlam zamanına yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu”*. Baxın, heç kim fikir vermir, amma bu cümlədə iki predikativ mərkəz var: “derlər”, bir də “qopdu”. Təkrar edirəm, bir cümlədə.

Deməli, burada “derlər” formal olaraq, predikativ mərkəz yaratmır, əslində, “deyilən” feli-sifətin ideyasını yaşadır özündə. Onun içində feli-sifət yaşayır, inkişaf bu şəkildə gedib. Yaxud: “Qanturalı derlərdi bir igid vardı”. Burada “Qanturalı derlərdi”-də cümlə qurtarmalı idi, amma davam edir. Gördüyümüz kimi, iki preidikativ mərkəz özünü göstərir. Baxın, çoxpredikativlikdən təkpredikativliyə keçid Azərbaycan dilinin sintaksisinin ən maraqlı məsələlərindən biridir. Söhbət Azərbaycan dilinin sintaksisini hərəkətdə görməkdən gedir. Hərəkətdə, inkişafda olan nə varsa, sintaksisi bu nöqteyi-nəzərdən öyrənmək olduqca maraqlıdır. Dil tarixçisi də bunu öyrənəndir, əslində.

**Yaşar Əliyev:** – ***Kamal Abdulla imzası, sanki, iki ayrı-ayrı yazıçını özündə birləşdirir və ya sizin yaradıcılığınız iki müstəqil xətti özündə ehtiva edir. Bu mənim şəxsi qənaətimdir. Bu xətlərdən biri sırf ədəbiyyat kontekstində yazılmış əsərləri təmsil edir. Bura romanlarınız və bir çox hekayələriniz aid edilə bilər. Məsələn, Borxesə həsr olunmuş “Adaşlar” hekayəsi kimi. Digər xətt Kamal Abdullanı oxucuya sırf avtobioqrafik yazıçı kimi təqdim edir. Tanış məhəllə, tanıdığınız real adamların iştirak etdiyi mətnləri nəzərdə tuturam. Bunların hansı sizin üçün daha doğma, daha yaxındır?***

– Bunlar bir-birinin içindədir. Fikrimcə, biri digərini inkar etmir. Sənin dediyin həmin o “Adaşlar” hekayəsində də avtobioqrafik məqamlar yox deyil. Amma, eyni zamanda, belə deyək, metafizik hekayədir.

**Etimad Başkeçid**: – ***Əslində, “Yarımçıq əlyazma” da, bir çox digər əsərləriniz də polimpsest üzərində qurulub. Bunu “Unutmağa kimsə yox” romanında açıq görmək olar…***

– Bir dəfə özüm tənbəllik eləməyib, “Unutmağa kimsə yox”u kənar gözlə saf-çürük eləmişəm. Əsər yeddiqatlı bir struktura malikdir. Bilirsən, o qatlara enmək, bəlkə də, asandır – çətin deyil yazı prosesində. Qayıtmaq çətindir – yenidən əsas təsvirə qayıtmaq asan deyil.

**Nəriman Əbdülrəhmanlı**: – ***Mifologiya ilə bağlı başqa bir sual. Məlumdur ki, yunan və Roma mifologiyası bütün Qərb ədəbiyyatına çox güclü təsir edib.***

– Qərb ədəbiyyatını bunsuz təsəvvür etmək mümkün deyil.

**Nəriman Əbdülrəhmanlı:** – ***Elə sual da bununla bağlı yaranır: niyə Şərq mifologiyasının Şərq ədəbiyyatına təsiri o qədər də güclü hiss olunmur? Bu, nə ilə bağlıdır? Azərbaycan ədəbiyyatında bu, yəni mifologiya qabarıq şəkildə yalnız sizin yaradıcılığınızda hiss olunur.***

– Bu suala cavab vermək həm asandır, həm də bir az təhlükəlidir. O mənada ki, mifologiyanı bilməməkdən irəli gəlir bəzi şeylər. Bizim bir çox tanınmış qələm adamları belə yalnız intuitiv olaraq bu məsələyə toxunur. Amma məsələn, Şekspir bunu bilə-bilə eləyir. Hamletin gətirdiyi oyunçular ki var, oyunları birbaşa mifologiyadır – Aqamemnonun başına gələnlərdir, səhnələşdirilir. Şekspirdən Coysadək tarix boyu bu belə davam edib.

Bizdə bəzən deyirlər, ədəbiyyata gələnlərin gərək ayağı torpağa dəysin, yalnız bununla yazıçı olmaq olar. Amma məncə, mifologiyanı oxumaqla, kitabla da yazıçı olmaq olar. Borxes deyirdi ki, mən ədəbiyyata kitabdan gəlmişəm və bununla fəxr edirəm.

**Mahir Qarayev:** – ***Hazırda 5 romanınız var, amma ədəbi aləmdə ən böyük rezonans doğuran ilk əsəriniz “Yarımçıq əlyazma” oldu. Bilmək istəyirəm, siz bu romanı necə müddətə yazdınız. Və bir də: ilk romandan sonra ikincini yazmaq daha asan oldu, yoxsa daha çətin?***

– Sözün açığı, əvvəllər elə bilirdim, mən roman yaza bilmərəm. Ona qədərki hekayələri də bir növ çəkinə-çəkinə yazmışdım. “Yarımçıq əlyazma”dan sonra o biriləri yazmaq çətin olmadı, əksinə, xeyli asan oldu. Yəni ilk romanda o nəfəsi hiss elədim. Bəlkə də kiməsə qəribə görünə bilər, amma səmimi şəkildə deyəcəm: indi mənə elə gəlir ki, romandan başqa heç nə yaza bilmərəm. “Yarımçıq əlyazma” nisbətən tez yazıldı, amma təbii ki, beynimdə onu ərsəyə gətirənə qədər xeyli vaxt keçmişdi.

**Mahir Qarayev:** – ***Sonrakı əsərləri artıq “Yarımçıq əlyazma”nın müəllifi kimi yazdınız?***

– Sizə görə, ən yaxşısı bu romandırsa… Bir şey deyim, bir az əyləncəli olsun: “Don Kixot”un birinci və ikinci hissələrinin yazılması arasında 10 il vaxt keçib. Ümumi rəyə görə, ikinci hissə birincidən zəif alınıb. Sual yaranıb ki, görəsən, niyə belə olub? Cavab da belə olub ki, ikinci hissəni yazanda Servantes artıq dahi olduğunu bilirdi.

**Mahir Qarayev**: – ***İstənilən halda “Yarımçıq əlyazma” mürəkkəb əsərdir…***

– Eyni zamanda, çox sadə əsərdir. Ola bilsin, özünəxas qəribə ab-havası var. Mifoloji tarixlə reallığın qovuşduğu yer, 3 ön söz… Bəzən ayırd etmək olmur: elmi əsərdir, yoxsa bədii? Umberto Eko ilə görüşümüzdə qolumdan tutub, kitab rəfindəki kitabı göstərdi: “Bu Coysdur, – dedi, – o sizdən də qəliz yazır”. Yəni sən bu fikrində tək deyilsən.

**Mahir Qarayev**: – ***Ekonun “Yarımçıq əlyazma” haqqında “Romanınınız cəlbedicidir, amma onu çimərlikdə oxumaq olmaz”,– sözlərini də buraya əlavə etmək olar. Kamal müəllim, o vaxt “Yarımçıq əlyazma”nı hələ əlyazma şəklində dostların mühakiməsinə verəndə artıq aydın idi ki, yaxşı bir əsər yazdığınızın fərqindəsiniz– yəni romandan tam arxayınsınız. Bir yazıçı üçün bu əminlik çox normal, hətta yüksək keyfiyyətdir.***

***Sualım isə şəxsidir: bəlkə, yazıçıdan bunu soruşmaq, çox da düz deyil, amma yenə də bilmək istərdim: bu romanda sizin özünüzün ən çox rəğbət bəslədiyiniz obraz hansıdır?***

– Sualın birinci hissəsi ilə bağlı demək istəyirəm ki, bəli, mən bilirdim, bütöv bir mətn yaratdığımı. Adındakı “yarımçıq”lığa baxmayaraq. Şərti olaraq, özümə yaxın bildiyim obraza gəlincə... romanda Səbzivar qəbiristanlığı təsvir olunur. Yadınızdadırsa, Gəncə zəlzələsində ölənləri aparıb orada basdırırlar. Qəbiristanlığın üzərində quşlar başlayır uçmağa. Bir qoca münəccim də var, sözünə heç kəs inanmır. O deyir ki, bunlar ölənlərin ruhlarıdır, uçub-uçub yorulacaqlar, sonra biryolluq buralardan uçub gedəcəklər.

Romada, italyan dilində bu kitabın təqdimatında bir nəfər mənə qəribə sual verdi. Sizin kimi, o da dedi ki, siz bu əsərdə özünüzü kimin yerində görürsünüz? Orada, bilirsiniz, bir oturuma bir qoyun yeyən Şirşəmsəddin var, Salur Qazan, Bayındır xan, Şah İsmayıl obrazı, Hüseyn bəy Lələ var. Mənsə o italyana belə cavab verdim: sözünə heç kimin qulaq vermədiyi o qoca münəccimin yerində…

**Etimad Başkeçid**: – ***Nəsrinizdə zaman-zaman bir “oxşar” mövzusu ön plana çıxır. Oxşarlar, inikaslar, zamanların və dünyaların kəsişməsi. Oxşar arxetipi sizin üçün nə dərəcədə vacibdir və şəxsən sizin üçün nəyi simvolizə edir?***

– Bu suala dəqiq cavab verə bilməyəcəyəm. Bu məqamda özümü çarpaz sorğulamaya məruz qalan adam kimi hiss edirəm. Vallah, bilmirəm. Bu mövzuda bir hekayəm də var – “Adaşlar”. Görünür, bu mövzu, bu motiv təxəyyülə meydan açır. Ola bilsin, mənim üçün “oxşarlıq”, sadəcə, bədii bir üsul deyil, şəxsiyyətin bütövlüyünü itirdiyi o çatdan baxmaq yoludur. Hər bir insanın içində özünə bir “əks-sədası” var, biz ya onu sıxışdırır, gizlədirik, ya da başqalarında axtarırıq. Bəlkə də ikiləşmə-oxşarlıq arxetipi mənə sövq-təbii bu daxili dialoqu, işıqla kölgənin, gerçəklə xəyali olanın toqquşmasını araşdırmağa imkan verir.

**Saday Budaqlı**: – ***Əsərlərinizdə “yaddaş” və “unutqanlıq” məsələlərini qabartdığınız məqamlar da az deyil. Məşhur “Unutmağa kimsə yox” ifadəsi də bura daxildir. Ədəbiyyat yaddaşı xilas eləməyin bir formasıdırmı və ya bu nədən qaynaqlanır?***

– O misra necə oldu, haradan ağlıma gəldi, açığı, mənim özümə də bəlli deyil. Amma yadımdadır ki, bu misranı tapanda çox xoşbəxt olmuşdum. Həmin misradan bütöv bir mətn alındı. O misranın konteksti bu idi:

***...Yollar getdi üzü dağa,***
***Yoxuşlar enişlərdən çox.***
***Kimsə yox xatırlamağa,***
***Unutmağa da kimsə yox*.**

Demək istəyirəm ki, bəzi şeylərlə təmasda nəticənin necə olacağını sən özün də təxmin eləyə bilmirsən. Amma “Yarımçıq əlyazma”nın ideyasının necə yarandığı haqqında danışa bilərəm. Sevilyada əvvəllər məscid olmuş “əl-Qəsr”– indi adına Əlqazar deyilən bir muzey var. Oranı gəzərkən gördüm ki, bir divar rənglənib, üzərində də latınca nələrsə yazılıb. Amma bəzi yerlərin suvağı tökülmüş, rəngi getmişdi, altından ərəb hərfləri görünürdü.

Fikirləşdim ki, bəlkə, bu da, köhnə yazının üstündən latınca yazılan söz də Allaha eyni arzu ilə müraciətdir. Elə bil, xristianlar bir rəng qalınlığında Allaha daha yaxın olmağa çalışıblar… Bilmirəm, bu təəssürat necə gəlib bir romana – “Yarımçıq əlyazma”ya çevrildi.

**Etimad Başkeçid**: – ***Bu, müəyyən anlamda, sənət, arxitektura, mədəniyyətdəki polimpsest məsələsidir: bir mətn digərinin üzərindən yazılır. Roman da belə başlayır – Gəncə zəlzələsi… sonra cümlə qırılır, başqa mətləblərdən söz açılır. Əslində, bu əsərdə bir çox janrlar təmsil olunur. “Yarımçıq əlyazma” mif, tarix, hipertekstuallıq, fentezi, hətta detektiv elementləri özündə birləşdirir. Elə əsərlər var ki, konkret janrını müəyyənləşdirmək çətindir.***

– Təbii ki, dünyada bütün təsirlərdən xali əsər təsəvvür etmək çətindir. Müdriklər belə deyirlər: heç nəyə bənzəməyənin özü yoxdur. Bir dəfə rəhmətlik Mövluddan soruşdum, dedim ki, Markesi oxumusan, yəqin? “Yüz il tənhalıq” romanının Mövludun “Köç” əsəri ilə – yeri gəlmişkən, çox gözəl əsərdir – səsləşən məqamlarını nəzərdə tutub soruşmuşdum. Cavab verdi ki, yox, oxumamışam. Açığı, inanmadım ona, oxumuşdu, yəqin ki…

Amma burada ikinci bir məqam da var. Bir dəfə də eyni şeyi Yusif Səmədoğludan soruşdum. Yaxşı münasibətimiz var idi rəhmətliklə. Dedim ki, Yusif müəllim, sizin “Qətl günü” romanınızda mən Bulqakovun, Markesin təsirini hiss edirəm. Nə desə yaxşıdır? Dedi ki, tamamilə düz deyirsən, hələ başqa təsirlər də var. Yəni kimlərdənsə təsirləndiyini dilə gətirməkdən çəkinmədi, ehtiyat eləmədi. Bu çox incə məqamdır.

**Yaşar Əliyev:** – ***Markes də deyirdi ki, mən pis oturan hər şeyi götürürəm.***

– Bu söhbətimizin işığında süni intellekti yada salmasaq, doğru olmaz. Bir neçə ay qabaq yoldaşlardan biri gəlib dedi ki, Kamal müəllim, bilirsən, süni intellekt sənin haqqında nələr deyir? Dedim, yox, bilmirəm. Mənə süni intellektin dediklərini, belə deyək, emal etdiklərini oxudu, ayağımın altından yer qaçdı. Böyük alimimiz, dostum Rafiq Əliyevdən soruşdum. Dedim ki, mən elə bilirdim süni intellekt, sadəcə, yazılanları bir yerə yığır, toparlayır, amma bu o deyil axı… O mənə daha çoxunu danışdı.

Hərdən adama elə gəlir, Nitsşenin o məşhur fövqəlbəşərini görürsən qarşında. Mənim indi yeddicildliyim nəşr olunacaq. Kitablardan biri belə adlanır: “Kamal Abdulla və süni intellekt”. Çox maraqlı kitabdır, məncə, ilk dəfə belə bir kitab hazırlanır.

**Nəriman Əbdülrəhmanlı**: – ***Söz düşmüşkən, qeyri-səlis məntiq və ədəbiyyat, folklor araşdırmaları ideyası necə yarandı sizdə? Necə oldu bu fikrə gəldiniz?***

– Bilirsiniz, Rafiq Əliyev mənim dostumdur. Tez-tez görüşürük: o, mən, Ramiz Rövşən, Nazim İmanov, Muxtar İmanov, Rüstəm Behridi, Azər, Fərhad, Eldar… Hamımıza maraqlıdır süni intellektlə bağlı məsələlər. Rafiq Əliyevdən müxtəlif şeylər soruşurduq bu barədə. Fikir verib gördüm ki, “Dədə Qorqud”da onun dediklərinin inikasını əyani şəkildə görmək olur. Söhbət vaxtı belə misalların sayı artdı və biz fikirlərimizi gerçəkləşdirməyə qərar verdik. 3 kitab yazıldı: “Kitabi – Dədə Qorqud və qeyri-səlis məntiq”, “Qeyri-səlis məntiq və dil, nitq”, “Uşaqlar üçün qeyri-səlis məntiq”. “Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq” kitabı artıq Türkiyədə, Almaniyada və bu ölkənin ən nüfuzlu nəşriyyatlarından birində, həm də (“Şpringer”də) ingiliscə nəşr olunub.

**Nəriman Əbdülrəhmanlı**: – ***Dünyanın 20-dən çox dilində kitablarınız nəşr olunub. Təəssüratınız necədir? Tərcümə olunmuş əsərləriniz barədə nə deyə bilərdiniz?***

– Bu sualın cavabı çox geniş ola bilər. Bu yaxınlarda “Unutmağa kimsə var... adda-budda xatirələr” adlı kitabım çap olunacaq. Orada “Yarımçıq əlyazma” və digər kiablarımın başqa dillərdə, xarici ölkələrdə nəşrinin tarixçəsinə də nəzər salmağa çalışmışam.

**Etimad Başkeçid**: – Kamal müəllim, sonda aşağıdakı suallara qısa cavablar verməyinizi xahiş edirik:

***Sizə təsir göstərən və ya sizi təsirləndirən ilk kitab hansıdır?***

– 5 cildlik Azərbaycan nağılları, Əli Sultanlının “Antik ədəbiyyat tarixi”.

***Proza, yoxsa poeziya?***

– Proza.

***Sevdiyiniz kitabınızın ən çox xoşladığınız sitatı?***

– “Taleyində olan həyatında olmaya bilər”.

***Ən gözəl söz kimi hansı ifadəni görürsünüz?***

– (cavabsız)

***Nizami, yoxsa Füzuli?***

– Füzuli.

***Son vaxtlar sizi təsirləndirən film hansıdır?***

– (cavabsız)

***Yazıçı üçün hansı daha vacibdir: istedad, yoxsa intizam?***

– İstedad.

***Gənc müəlliflərə qısaca hansı məsləhəti verərdiniz?***

– Mütaliə.

***Yaradıcılıqla bağlı hər hansı adətiniz və ya ritualınız varmı?***

– (cavabsız)

***Kitab, yoxsa ekran: hansı qalib gələcək?***

– Ekran.

***Rəqəmsal dövrdə ədəbiyyat nə itirir?***

– Cəsarət.

***Sizin öncəgörməniz: 20 ildən sonra oxucu necə olacaq?***

– Olacaqmı?

**Hamılıqla:** ***Yubileyiniz möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları gətirsin.***

– Dostların çevrəsində.

*Çapa hazırladı:*
*Mehparə ƏLİYEVA*
*XQ*

*Dilimiz–diriliyimiz*

**Dil, sadəcə, strukturlaşmış ünsiyyət sistemi deyil. Bu mürəkkəb sistemə yalnız fikirləri və hisslərin ifadə vasitəsi kimi baxılmamalıdır. Dil həm də hər bir insanın milli mənsubiyyətini müəyyənləşdirən, millətin dünyagörüşünü möhkəmlədən vasitədir. Ana dili milli şüur səviyyəsini müəyyən edən əhəmiyyətli faktorlardan biridir. Belə ki, hər bir xalqın ana dili mədəniyyətinin və keçdiyi tarixi proseslərin məhsulu, göstəricisidir.**

# Prezidentin ana dilimizi qorumaq tələbi milli-mənəvi çağırışdır



Dilin formalaşmasında gedən proseslər spontan baş verdiyindən müəyyən təsirlərə məruz qalması təbiidir. Lakin bəzi hallarda bu təsirlər ziyanlı olur, dilin "milli özülünü" laxladır, "nüvəsi"ni aşınma təhlükəsinə məruz qoyur. Bəzən yad təsirlər və təzyiqlər nəticəsində dilin tamamilə unudulması kimi böyük bir faciə də yaşanır. Bir çox xalqlar bu ağır faciəni – dil itkisini yaşayıb və yaşayır. Müasir dövrdə də belə nümunələrə rast gəlmək mümkündür. Məsələn, Çilidə yaqan dilinin tədricən yoxa çıxması, Pakistanda Pəncab dilində danışanların sürətlə azalması belə faciələrdəndir. Rusiya, Fransa və Şotlandiya kimi ölkələrdə də bəzi azlıq dillərinin də yoxa çıxdığını, yaxud yoxa çıxmaq üzrə olduğunu göstərmək olar.

Mütəxəssislər dilin tarix səhnəsindən silinməsini tarixi-siyasi proseslərlə əlaqələndirir, qloballaşma, geopolitik və sosiolinqvistik təsirlərini xüsusi qabardırlar. Bu tarixi faciənin baş verməsində həmin dilin daşıyıcısı olan xalqın ziyalılarının, xüsusən elm adamlarının fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi xüsusi qabardılmalıdır.

Əhəmiyyətli geostrateji və təbii resurslarla zəngin coğrafiyada yerləşməmiz bizi istər-istəməz dünyanı, yaxud regionumuzu həyati mənafe zonası hesab edən fövqəlgüclərin davamlı siyasi-iqtisadi, eyni zamanda, ictimai-mədəni təzyiqləri ilə üzüzə qoyur. Digər tərəfdən ortaq mədəni tarixə malik qonşularımızın dillərindəki fərqli qrammatik ünsürlərin cəmiyyətimizin müəyyən təbəqələrinə bəlli səbəblərdən sirayət etməsi də dilimizin təhlükəsizliyi üçün ciddi siqnallar doğuran təhlükələr yaradır.

Qeyd edək ki, bu təhlükələr yeni deyil. Ulu öndər Heydər Əliyev hələ sovet hakimiyyəti vaxtı ölkəmizə rəhbərlik etdiyi dövrdə ana dilimizə qarşı ziyanlı təsirləri görür və qabaqlayıcı addımlar atırdı. Onun 1970-ci ildə BDU-nun 50 illik yubileyində Azərbaycan dilində çıxış etməsi kommunist rejiminin tarixində nadir hadisə olmaqla yanaşı, Azərbaycan hakim nomenklaturasına, ziyalı təbəqəsinə milli kimliyin, o cümlədən milli mənsubiyyətin əsas identiflik göstəricisi olan ana dilinin qorunması, təəssübünün çəkilməsinə yönəlmiş yüksək səviyyəli çağırış idi.

Sovet Azərbaycanının son illərində və müstəqilliyimizin ilk dövrlərində də dilimiz fərqli fonetik və qrammatik xüsusiyyətlərə malik fərqli dillərin təsirlərindən təəssüflər olsun ki, qoruna bilmədi. Bu mənəvi deqradasiya meyillərinin qarşısının alınması üçün 18 iyun 2001-ci il tarixində "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" verilən Fərman tarixi addımlardan biri kimi göstərilə bilər.

Prezident İlham Əliyev də şübhəsiz ki, mürəkkəb geostrateji coğrafiyada yerləşən və ciddi siyasi-iqtisadi, hətta hərbi təzyiqlərə qarşı xalqını qorumaq əzmində olan müdrik dövlət başçısı kimi mənəvi-milli mövcudluq dəyərlərimizdən birinə qarşı təhlükəni görməyə bilməzdi. Son illərdə ana dilimizin məruz qaldığı təsir və təzyiqlərin, təbii ki, fərqindədir. 3 noyabrda Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında dövlət başçısının çıxışında ana dilimizin qorunması ilə bağlı tarixi çıxışı və çağırışı da bu yöndə ciddi siqnaldır.

Qeyd olunan kontekstdə həyəcan zənginin çalınmasına məsul peşə sahiblərindən biri məhz humanitar sahədə fəaliyyət göstərən alimlər olmalıdır. Prezident AMEA-nın yubiley tədbirində qeyd etdiyi kimi, on il bundan əvvəl həmin kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmış, öz narahatlığını ifadə etmişdi... "Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram", – deyən dövlət başçısı narazılığını ifadə edib. Bu məsələ bütün cəmiyyətin məsul olduğu problemidir. Lakin elm adamları da öz məsuliyyətini dərk edərək sözügedən sahədə əhəmiyyətli töhfələr verməlidirlər.

Qeyd edək ki, AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda monoqrafiyalardan tutmuş ən xırda dəftərxana sənədinə kimi bütün mətnlərin ana dilimizin qanunlarına əməl edilərək yazılmasına diqqət olunur. Xüsusilə qeyd olunmalıdır ki, institutumuzda fəaliyyət göstərən "Cənubi Azərbaycan" şöbəsində ana dilimizin statusunun qorunması və tarixi inkişafına dair konseptual elmi tədqiqatlar aparılır. Bu tədqiqatlar arasında Cənubi Azərbaycanda yaşayan və öz doğma dilində təhsil almaq hüquqlarından məhrum olunan, hətta orta məktəblərdə ana dilində danışdığına görə ağır şəkildə cəzalandırılmış soydaşlarımızın sözügedən müqəddəs amal – Azərbaycan dili uğrunda mübarizələri də tədqiqata cəlb edilib.

Cənubi azərbaycanlıların İran İslam Respublikasının qanunvericiliyinə və beynəlxalq sənədlərə əsaslanan ana dili uğrunda mübarizəsi demokratiya və insan haqlarına dair məsələ kimi tədqiq olunur. Hazırda da şöbədə həmin istiqamətdə elmi araşdırmalar davam etdirilir. Bundan sonra da ana dilimizin keşiyində durmaq və Azərbaycan dilinin qorunması istiqamətində elmi fəaliyyətimizi uğurla davam etdirmək əzmindəyik.

***Yeganə HACIYEVA,***
***AMEA Şərqşünaslıq İnstitutu Cənubi Azərbaycan şöbəsinin aparıcı elmi işçisi, dosent***

*Laçının azad edilməsindən 5 il keçir*

# Qarabağ Zəfərinin Laçın finalı

**30 ilədək yağı tapdağında inləyən Laçın rayonu 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, dekabrın 1-də Azərbaycana qaytarılıb. Bu proses döyüşsüz baş versə də, həm Birinci Qarabağ müharibəsində, həm də 44 günlük Zəfər yürüşündə hərbçilərimiz işğala məruz qalmış digər bölgələrimiz kimi, Laçının da uğrunda mətanətlə vuruşmuş, canları və qanları bahasına bu torpaqların əzəli-əbədi sahibləri olduqlarını göstərmişdilər. Sadəcə, küncə sıxışdırılan düşmən daha artıq itkilər verməsin deyə, Laçının, Ağdamın və Kəlbəcərin döyüşsüz təhvil verilməsini rəsmiləşdirən kapitulyasiya aktına qol çəkməli olub.**



Prezident İlham Əliyev o zaman xalqa müraciətində həmin hərbi-diplomatik uğuru layiqincə dəyərləndirmişdi: "Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Ermənistan silahlı qüvvələri Laçını 1992-ci il mayın 18-də ələ keçirmişdilər. İşğal dövründə rayonun əhalisi etnik təmizləməyə məruz qalıb, 300-dən çox hərbi və mülki şəxs həlak olmuş və ya itkin düşmüşdü. İşğalçılar burada 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsini, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisəni, 5 musiqi məktəbini və digər infrastruktur obyektlərini talayaraq məhv edib, təbiətə divan tutmuşdular. Həmçinin 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə uğramışdı. Buna baxmayaraq, torpaqlarımızda qeyri-qanuni yaşayan ermənilər bizim ordumuzun humanizmi sayəsində Ağdam və Kəlbəcərdə olduğu kimi, Laçından da təhlükəsiz şəkildə, atəşə məruz qalmadan, rahatlıqla bütün əşyalarını götürərək çıxıb getdilər.



İftixarla xatırlayırıq ki, Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində, digər ərazilərimiz kimi, Laçının Güləbird, Səfiyan və Türklər kəndlərini də işğaldan azad etmişdilər, yəni Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə igid oğullarımız Laçının alınmasının möhkəm təməlini qoymuşdular. Hərbi əməliyyatlar dayanan vaxtdan sonra müəyyən edilmiş 5 kilometrlik Laçın dəhlizinin biryolluq bağlanması, rayon mərkəzinin, Zabux və Sus kəndlərinin də Azərbaycanın nəzarətinə qaytarılması, 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri ilə suverenliyimizin tam bərpa olunması böyük hərbi və diplomatik qələbəmizdir. Artıq bir müddətdir ki, Laçında da "Böyük Qayıdış" hərtərəfli reallaşmaqdadır.

İnişil payızda həmkarlarım Tahir Aydınoğlu, Səbuhi Məmmədov və Əbülfəz Babazadə ilə Laçına 2 günlük səfərimiz bütün detalları ilə yadımdadır. Payız gözəlliyinə bürünmüş dağlar diyarında həyata keçirilən genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Şəhərin tarixən mövcud olmuş məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilir. Böyük Zəfərin yaratdığı güclü enerji Laçında quruculuq müstəvisinə bacarıqla proyeksiya olunur. Şəhərdə xəstəxana, Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri – çoxşaxəli infrastruktur yaradılır.

Artıq şəhərlə bərabər, bir neçə kənd də məskunlaşıb. Doğma sakinlərinin nəfəsi ilə qızınan evlərdə, idarələrdə, məktəbdə olarkən söhbət etdiyimiz hər kəsin gözündən təbii bir sevinc və qürur boylanırdı. Rayon sakini Gündüz Təhməzov və anası İpək xanım, həyətyanı təsərrüfatını qaydaya salan Natiq Abbasov və qonşusu – ağsaqqal Zülfüqar Babayev 31 illik ayrılığın sonundakı vüsaldan xoşbəxt olduqlarını məmnunluqla dilə gətirdilər. Dövlətin qayğısı ilə bura qayıdıb gözəl evlərlə təmin olunmalarının sevincini bölüşdülər. "Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə və rəşadətli Silahlı Qüvvələrimizə, bu yerlərin hazırkı bərpaçı və qurucularına hədsiz minnətdarıq. Bizə bu sevinci yaşadan şəhidlərimizə, qazilərimizə borcluyuq" – dedilər.

Əvvəllər Laçının işğalı günü mükəddər şəkildə qeyd olunurdu. İndi 26 avqust – Şəhər Günü, 8 noyabr – Zəfər Günü və 1 dekabr – azadlığına qovuşma günləri sonsuz təmtəraqla keçirilir. Axşam səmasına açılan yaylım atəşləri şəhəri və ətrafını ağappaq nura boyayır, uca zirvədə dalğalanan üçrəngli Azərbaycan bayrağı həzincə gülümsəyir.

Laçının azad edilməsi həm Vətən müharibəsinin nəticələrindən biri, həm də dövlətimizin siyasi və hərbi gücünün bariz göstəricisi idi. Bu gözəl diyar tarixi boyunca strateji mövqeyinə görə Qarabağ ilə Azərbaycanın digər bölgələri arasında körpü rolu oynayıb. Məhz buna görə 1992-ci ildə Laçının işğalı həm hərbi, həm də mənəvi baxımdan böyük itki kimi dəyərləndirilirdi. Didərgin düşmüş sakinləri isə haqqın qalib gələcəyinə inanır, doğma yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirdilər.

**YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasovun dedikləri:**

– Bu gün həmin tarixi hadisədən 5 il keçir, lakin o günün sevinci, xalqın yaşadığı qürur və göz yaşları hələ də yaddaşlardan silinmir, çünki Laçının azad edilməsi millətin birliyi və qələbə əzminin ən böyük simvoluna çevrildi. Laçının azad edilməsindən sonra bölgədə genişmiqyaslı bərpa və quruculuq işlərinə start verildi.

Dağıdılmış infrastruktur yenidən quruldu, tamamilə yeni elektrik, qaz, su və rabitə xətləri çəkildi, yollar, tunellər, körpülər inşa edildi, Laçın şəhəri müasir şəhərsalma prinsipləri ilə yenidən tikildi. Dövlət tərəfindən kəndlərin bərpası sürətləndirildi, məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri yenidən istifadəyə verildi.

Ötən 5 il ərzində Laçın sıfırdan dirçəldildi. Bu dövrdə ən sevindirici məqamlardan biri isə laçınlıların öz yurd-yuvalarına geri dönməsi oldu. İllərlə həsrət qalan insanlar dövlətin yaratdığı yeni məhəllələrə, smart kəndlərə köçürülərək öz doğma yurdlarında yenidən həyat qurmağa başladılar. Bu qayıdış Laçının ruhunu yenidən oyatdı və bölgədə həyat canlandı. Bizə bu tükənməz sevinci yaşadanlar var olsunlar!

Sonda əlavə edək ki, dekabrın 1-i, qış ayının ilk günü Laçında könüllərə, çöhrələrə yaz hərarəti yayan bir gündür. Laçının azad edilməsinin 5-ci ildönümü xalqımız üçün qürur, qələbə və birlik günüdür. Bu gün biz təkcə tarixi qələbəni yada salmırıq, həm də 5 il ərzində görülən böyük işləri, dirçələn həyatın hər addımını, dədə-baba yurdlarına qayıdan insanların sevincinə qatılırıq. Bu gün Laçın həm də mədəni baxımdan yeni mərhələyə qədəm qoyub və MDB tərəfindən Mədəniyyət Paytaxtı elan edilməsi onun təkcə Azərbaycanın deyil, regionun mədəni, tarixi və mənəvi mərkəzlərindən birinə çevrildiyini təsdiqləyir.

Laçının azadlığı Azərbaycanın yenilməzliyinin, dövlətimizin iradəsinin və xalqımızın sarsılmaz birliyinin ən parlaq rəmzlərindən biri olaraq tarixdə əbədi qalacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***


## "Simurq Kompani" ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

(manatla)

| Aktivlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Uzunmüddətli aktivlər | 414787,07 | 526945,07 |
| Torpaq, tikili və avadanlıqlar | 414787,07 | 526945,07 |
| CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | 414787,07 | 526945,07 |
| Qısamüddətli aktivlər | 2080,42 | 2027,84 |
| Ehtiyatlar | 1763,97 | 1763,97 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 316,45 | 263,87 |
| CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | 2080,42 | 2027,84 |
| CƏMİ AKTİVLƏR | 416867,49 | 528972,91 |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 107138,40 | 107138,40 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -283257,86 | -283243,00 |
| CƏMİ KAPİTAL | -176119,46 | -176104,60 |
| Qısamüddətli öhdəliklər | 592986,95 | 705077,51 |
| Qısamüddətli kreditor borcları | 51429,56 | 44129,64 |
| Sair qısamüddətli öhdəliklər | 541557,39 | 660947,87 |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | 592986,95 | 705077,51 |
| CƏMİ ÖHDƏLİKLƏR | 592986,95 | 705077,51 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 416867,49 | 528972,91 |

**Məcmu gəlirlər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 1243300,00 | 1248700,00 |
| Satışın maya dəyəri | 1225393,48 | 1281796,75 |
| Ümumi mənfəət | 17906,52 | -33096,75 |
| Sair əməliyyat gəlirləri | 2760,00 | 2760,00 |
| Sair əməliyyat üzrə xərclər | 20681,38 | 19423,25 |
| Sair əməliyyat (mənfəəti) | -17921,38 | -16663,25 |
| Vergitutmadan əvvəl sair əməliyyatdan mənfəət (zərər) | -14,86 | -49760,00 |

**Kapitalda dəyişikliklər hesabatı**

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| 2024-cü il yanvarın 1-nə qalıq | 107138,40 | 0,00 | -283243,00 | -176104,60 |
| 2024-cü il üzrə xalis mənfəət (zərər) | | | -14,86 | -14,86 |
| 2024-cü il dekabrın 31-nə qalıq | 107138,40 | 0,00 | -283257,86 | -176119,46 |


# Lənkəranda "Yaşıl marafon"



**IDEA İctimai Birliyinin Lənkəran rayonunun meşə ərazisində təşkil etdiyi "Yaşıl marafon" çərçivəsində ağacəkmə aksiyası keçirilib. Könüllülərin iştirakı ilə 1350 ədəd Eldar şamı tingi əkilib.**

1 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin kollektivi nəcib təşəbbüsü davam etdirərək Lənkəran rayonunun Osaküçə meşəbəyliyinin 9 saylı dolayının 11-ci kvartalında 0,3 hektar ərazidə 333 Eldar şamı əkib.

**Mərkəzin direktoru Habil Əliyev** söhbət zamanı bildirdi ki, 2 gün ərzində Osaküçə kəndinin yuxarı hissəsindəki meşə ərazisində daha 1600 palıd tingi əkilib. Aksiya zamanı dəmirağac, palıd və yerli cinsdən olan digər tinglərin əkilməsinə üstünlük verilir. Mərkəzin 5 tinglik təsərrüfatı Lənkəran, Astara və Lerik rayonlarının meşə təsərrüfatlarını əkin məqsədilə tinglərlə təmin edir. Ümumilikdə hər üç rayonda 48 hektar ərazidə yeni meşə massivinin salınması nəzərdə tutulur. İndiyə kimə 32 hektar sahədə ağacəkmə aksiyası keçirilib. "Yaşıl marafon" çərçivəsində tədbirlər davam etdirilir.



IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu"nun məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə layiqli töhfələr verməkdir, – deyə mərkəzin direktoru bildirdi.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***


## Ləğv prosesində olan "Muğanbank" ASC fəaliyyətini yeni ünvanda davam etdirəcək

Məlumat üçün bildiririk ki, ləğv prosesində olan "Muğanbank" ASC 2025-ci il dekabrın 1-dən etibarən fəaliyyətini yeni ünvanda – Bakı şəhəri, Xocalı prospekti 36A nömrəli ünvanda (ləğv prosesində olan "Amrahbank" ASC-nin baş ofisi) davam etdirir.

Əlaqə nömrəsi: (+994) 941.



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 254 (30948) 2 dekabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

## Misli Premyer Liqasında XIII tur



**Ötən bazar günü keçirilən 2 oyunla Misli Premyer Liqasında XIII tura yekun vurulub. Şamaxıda yerli komanda "Sumqayıt"ı qəbul edib. Qarşılaşmada hesabı meydan sahibləri açıblar. Kərim Rossi 70-ci dəqiqədə komandasını hesabda önə çıxarıb. 88-ci dəqiqədə Aleksa Yankoviç tarazlığı bərpa edib. 90+1-ci dəqiqədə isə Aleksandr Ramalinqom qələbə topunu vurub.**

Günün ikinci oyununda "Qəbələ" "Araz-Naxçıvan"ı qəbul edib. Qarşılaşma meydan sahiblərinin minimal üstünlüyü ilə başa çatıb – 2:1.

"Qırmızı-qaralar"ın heyətində 15-ci dəqiqədə Prins Ovusu, 59-cu dəqiqədə Adriel Ba Loua fərqləniblər. Qonaqların heyətində isə 39-cu dəqiqədə Bəxtiyar Həsənalızadə fərqlənib.

Qeyd edək ki, XIII turda "Zirə" "Kəpəz"i (2:0), "Sabah" "İmişli"i (3:0), "Qarabağ" "Karvan-Yevlax"ı (2:0) məğlub edib. "Turan-Tovuz" – "Neftçi" oyununda hesab açılmayıb.

## İrina Zaretskanın Dünya bürüncü



**Azərbaycanın karateçisi İrina Zaretska Misirin paytaxtı Qahirədə keçirilən Dünya çempionatında medal qazanıb. 68 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız 3-cü yer uğrunda görüşdə qalib gələrək bürünc mükafata sahib çıxıb.**

Asiman Qurbanlı (84 kiloqram) isə bürünc medal qarşılaşmasında uduzaraq, yekunda 5-ci yeri tutub.

## Fiqurlu konkisürənimizin ilk Avropa yarışması



**Azərbaycanın fiqurlu konkisürmə üzrə idman tarixində ilk dəfə olaraq azərbaycanlı idmançı Avropa Çempionatında iştirak edəcək.**

27-30 noyabr tarixlərində İstanbulda keçirilən "Bosphorus Cup" adlı yarışda qısa və sərbəst proqram üzrə çıxış edən fiqurlu konkisürənimiz Nərgiz Süleymanova 26 idmançı arasında 156.53 xal toplayaraq qızıl medala sahib olub və Avropa Çempionatına vəsiqə qazanıb.

Digər idmançımız Səbinə Əliyeva öz rəqibləri arasında 137.22 xal toplayaraq 6-cı yerə, yeniyetmə idmançımız Arina Kalugina isə 154.85 xalla 5-ci yerə sahib olub.

***Qabil YUSİFOĞLU***
***XQ***

*"Neftçi" – 1966*

# Yaddaşlarda əbədiləşən bürünc komanda



**Çoxlarınızın dəfələrlə görməyinizə baxmayaraq, yenə maraqla qarşılayacağınıza şübhə etmədiyim foto 1966-cı il noyabrın 30-da həyata vəsiqə alıb. Həmin payız axşamında "Neftçi" Respublika stadionunun tamaşaçılarla ağzınadək dolu tribunaları qarşısında 28-ci SSRİ çempionatının Bakıda vida görüşündə Moskvanın "Spartak" komandasına 3:0 hesabı ilə qalib gələrək, tarixində ilk dəfə bürünc mükafatçı oldu.**

Bu oyunda qələbə moskvalılar üçün də çox mühüm əhəmiyyət kəsb edirdi. Onlar məqsədlərinə çatsaydılar, finişdə "Neftçi"ni qabaqlayacaq, komandamız yekun cədvəlində 4-cü yerlə kifayətlənməli olacaqdı. Amma görüşdə baş verən hadisələrin göstərdiyi kimi, həmin gün qonaqlar meydan sahibləri ilə heç cür bacarmayıb, onların kəskin hücumları və həlledici dəqiq zərbələri qarşısında aciz qaldılar.

Nə həmin parlaq tamaşayadək, nə də ondan sonra Azərbaycan futbolunun ovaxtkı flaqmanının belə böyük nailiyyəti olmayıb. Bu gün bir daha dərc etdiyimiz foto bürünc medallı futbolçuların unudulmaz hünərini əbədiləşdirən tarixi töhfədir.

Bu günlərdə yenə futbolumuzun böyük zəfər günlərini, ustalıqlarını dəfələrlə alqışladığımız insanları minnətdarlıq hissi ilə xatırlayırıq. Onlar həyatlarının ən yaxşı dövrünü, coşqun gənclik illərini bütün respublikanın sevimlisi olan "Neftçi"yə həsr etmiş və onun adının Sovet İttifaqı çempionatlarının mükafatçıları siyahısına yazdırılması üçün əllərindən gələni etmişlər. Respublika adına görülən böyük işlər, qazanılan uğurlar isə heç vaxt yaddan çıxmır.

Fotomüxbirin "Spartak"la oyundan dərhal sonra lentə aldığı qaliblər idman ictimaiyyətimizə yaxşı tanışdırlar. Onların adlarını bir daha hörmətlə çəkək. Fotoda ayaq üstə duranlar (sağdan sola): baş məşqçi Əhməd Ələsgərov, Kazbek Tuayev, Yaşar Babayev, Aleksandr Trofimov, Vladimir Bruxti, Nikolay Boqdanov, komandanın rəisi Şövkət Orduxanov, Sergey Kramarenko, məşqçi Valentin Xlıstov, Vyaçeslav Semiqlazov, komandanın həkimi Boris Xetaqurov; oturanlar (yenə sağdan sola): Valeri Hacıyev, Mübariz Zeynalov, Anatoli Banişevski, Eduard Markarov və inzibatçı Aydın İsmayılov.

Allah rəhmət eləsin, bütünlüklə Azərbaycan futbolunun yetirmələrindən ibarət olan bu komandanın bir çox üzvü əbədiyyətə qovuşub. Həyatda olanlardan iki həftə əvvəl, noyabrın 13-də K.Tuayevin 85 yaşı tamam olub, onun yaşıdı B.Xetaqurov isə bu günlərdə özünün Feysbuk səhifəsində diqqətə çatdırdığı kimi, tezliklə "Zapiski futbolnoqo vraça" ("Futbol həkiminin qeydləri") kitabını nəşr etdirəcək. Şübhəsiz, kitab futbol ictimaiyyətimizə dəyərli töhfə olacaq. Həyat və fəaliyyəti "Neftçi" ilə sıx bağlı olmuş məşhur həkimin qeydlərinin nəşrini maraqla gözləyək.

"Spartak"la 59 il əvvəlki görüşə qayıdıb, qeyd edək ki, tallinli hakim Y.Xyarmsın idarə etdiyi oyunda bütün komanda əvvəldən axıradək tamaşaçıların alqış sədaları altında əla mübarizə apardı, matçın qəhrəmanı isə 2 qolun müəllifi Banişevski oldu. O və çempionatda "Neftçi"nin ən sərrast oyunçusu, 14 qolun müəllifi Tuayev mövsümün yekunlarına görə SSRİ-nin ən yaxşı 33 futbolçusu sırasına daxil edildilər.

Nəhayət, onu da xatırladaq ki, "Neftçi" Azərbaycan futbolu üçün çox əlamətdar olan 28-ci çempionatda 34 oyunda 68 mümkün xaldan 45-ni topladı. Bu, bütün ölkə birincilikləri ərzində komandanın ən yüksək göstəricisidir. Statistikaya müraciət etsək, görəcəyik ki, həmin il Bakı kollektivi gümüş mükafatçı Rostovun OİK komandasından cəmi 2 xal geri qalıb və onunla hər iki oyunda meydandan qalib ayrılıb – evdə 4:1, səfərdə 3:1.

..."Neftçi"nin bürünc medallarının 60 illik yubileyinə 1 il qalır.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***



# Beyinin "ömür yolu"

**Kembric Universitetinin alimləri müəyyən ediblər ki, insan beyni həyat boyu 5 əsas inkişaf mərhələsindən keçir. Bu mərhələlərin dönüm nöqtələri 9, 32, 66 və 83 yaşlarda baş verir. Tədqiqat 90 yaşa qədər olan təxminən 4 min nəfərin beyin skanları əsasında aparılıb və nəticələr "Nature Communications" jurnalında dərc olunub.**

Araşdırma göstərir ki, beyin təxminən 30 yaşa qədər gənclik fazasında qalır və məhz bu dövr onun ən səmərəli işlədiyi mərhələ hesab olunur.

Uşaqlıq illərində beyin sürətlə inkişaf edir və artıq sinapsları təmizləyir. Qeyd edək ki, sinapslar neyronların (sinir hüceyrələrinin) digər ney-



ronlara və ya əzələ, vəzi kimi orqanlara mesaj ötürməsinə imkan verən xüsusi qovşaqlardır. 9 yaşdan 32 yaşa qədər davam edən gənclik dövründə beyin əlaqələri maksimum səmərəlilik üçün yenidən qurulur və psixi pozuntuların yaranma riski bu mərhələdə ən yüksək olur.

32 yaşdan 66 yaşa qədər davam edən yetkinlik dövrü beynin ən sabit, lakin tədricən geriləmənin başlandığı mərhələ sayılır. Təxminən,



66 yaşdan sonra erkən qocalma fazası başlayır və bu dövrdə beynin əlaqə strukturlarında dəyişikliklər müşahidə edilir. 83 yaşdan sonra isə gec qocalma fazası başlayır, lakin bu mərhələ barədə məlumat azdır.

Alimlər vurğulayırlar ki, yaş mərhələləri insan həyatındakı mühüm dəyişikliklərlə, hətta 30 yaş ətrafında baş verən sosial dönüşlərlə diqqətəlayiq dərəcədə üst-üstə düşür. Mütəxəssislər araşdırmanı beynin həyat boyu necə dəyişdiyini anlamaq baxımından əhəmiyyətli hesab edirlər.

***Hazırladı:***
***S.ELAY***
***XQ***

## HAVA

## Bakıda yağmursuz, bəzi rayonlarda yağış və qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi axşam bəzi yerlərdə arabir güclənəcək.**

Havanın temperaturu gecə 9-13, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında fasilələrlə yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.



Havanın temperaturu gecə 1-5, gündüz 12-15 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 1-6 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

*✓ "AS İnşaat" MMC-yə məxsus "AS Ocean" gəmisinin Mülkiyyət hüququ haqqında şəhadətnaməsi, Azərbaycan Respublikasının dövlət bayrağı altında üzmə hüququ haqqında şəhadətnaməsi və Minimum heyət tərkibi haqqında şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Konstitusiya Məhkəməsinin hakimi Humay Əfəndiyevaya əzizi

**QUMRU MƏMMƏDƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rövşən Ağayev, Rəhim Məmmədov, Rafiq Əliyev, Novruz Aslanov, Bayram Səfərov, Hüseynbala Mirələmov, İsrafil Qurbanov, Xanlar Abbasov, Akif Əlibəyov, Rakif Həsənov, Natiq İsayev və Qəmbər Beybalayev Qurban Sadıqova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Nazirlər Kabineti aparatının sektor müdiri Qurban Sadıqova anası

**NABAT SADIQOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Məmmədağa Sərdarov, övladları Elçin, Emin və Şahin Sərdarovlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin məsul işçisi Qurban Sadıqova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

Ü N V A N I M I Z:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3566
SİFARİŞ 2325
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00